**Fəxrəddin Nağıyev**
**Natalya Bondarenko**
**Rəşad Məmmədov**
**Kuzma Kiçik**

# KOMMERSİYA (SAHİBKARLIQ) HÜQUQU

# PRAKTİKUM

## *TƏDRİS-METODİKİ VƏSAİT*

(Polis Akademiyasının kursant və dinləyiciləri üçün)

*Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Polis Akademiyasının Elmi Şurasının 13 sentyabr 2021-ci il tarixli 1 №-li qərarı ilə təsdiq olunmuşdur.*

**BAKI – 2023**

**Elmi redaktorlar:**

Polis Akademiyasının rəisi, polis general-mayoru **Canpolad Alı oğlu Daanov**

**Rəyçilər:**

Baykal Dövlət Universitetinin elmi işlər üzrə prorektoru, hüquq elmləri doktoru, professor
**Oleq Pavloviç Qribunov**

M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin hüquq fakültəsinin “Sahibkarlıq hüququ” kafedrasının professoru, hüquq elmləri doktoru
**Anna Viktorovna Belitskaya**

Volqoqrad Dövlət Universitetinin “Mülki və beynəlxalq xüsusi hüquq kafedrasının professoru, hüquq elmləri doktoru, professor
**Aleksandr İvanoviç Qonçarov**

Polis Akademiyasının “Elmi-tədqiqat və redaksiya-nəşriyyat” şöbəsinin rəisi, polis polkovniki, hüquq üzrə fəlsəfə doktoru, dosent
**Hikmət Qismət oğlu Eyvazov**

Polis Akademiyasının “Mülki hüquq” kafedrasının rəisi, polis polkovniki, hüquq üzrə fəlsəfə doktoru, dosent
**Nəbi Yəhya oğlu Əsgərov**

Bu tədris-metodiki vəsait Azərbaycan Respublikası DİN-in Polis Akademiyasının kursant və dinləyiciləri üçün nəzərdə tutulmuşdur. Eyni zamanda, tədris-metodiki vəsaitdən “hüquqşünaslıq” ixtisası üzrə təhsil alan ali təhsil müəssisələrinin tələbə və magistrantları, habelə doktorantlar və kommersiya (sahibkarlıq) hüququnun tədrisi ilə məşğul olan müəllimlər faydalana bilər.

**F.T. Nağıyev, N.L. Bondarenko, R.Y. Məmmədov, K.V. Kiçik. Kommersiya (sahibkarlıq) hüququ. Praktikum. Tədris-metodiki vəsait (Polis Akademiyasının kursant və dinləyiciləri üçün), Bakı, “Sapfir-15” MMC, 2023, 152 səh.**

## MÜNDƏRİCAT

**Ön söz** .......................................................................... 5
**Seminar-təcrübə dərslərinin mövzu-təqvim planı** .................. 8
**"Kommersiya (sahibkarlıq) hüququ" fənninin öyrənilməsinə dair ümumi metodik göstərişlər** ....................... 9
**Referat mövzuların hazırlanmasına dair metodik tövsiyələr** ................................................................... 11
**Bütün mövzuların mənimsənilməsi üçün tövsiyə olunan normativ-hüquqi aktlar və ədəbiyyat** .................................... 13
**Mövzu 1. Kommersiya (sahibkarlıq) hüququnun anlayışı, prinsipləri və mənbələri** .......................................... 17
**Mövzu 2. Kommersiya (sahibkarlıq) hüququnun subyektləri və onların əmlakının hüquqi rejimi** ................ 32
**Mövzu 3. Müflisləşmə və iflasın hüquqi tənzimlənməsi** ........ 45
**Mövzu 4. Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi** .... 57
**Mövzu 5. Dövlət əmlakının özəlləşdirilməsinin hüquqi tənzimlənməsi** ........................................................... 68
**Mövzu 6. Sahibkarlıq fəaliyyəti sahəsində inhisar fəaliyyətinin məhdudlaşdırılması və rəqabətin hüquqi təminatı** .......................................................................80
**Mövzu 7. Sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqlarının və qanuni mənafelərinin müdafiəsi** ................. 92
**Mövzu 8. Sahibkarlıq fəaliyyəti subyektlərinin istehsal fəaliyyətinin hüquqi tənzimlənməsi** ..................... 103
**Mövzu 9. Bank fəaliyyətinin hüquqi tənzimlənməsi** ........... 113
**Mövzu 10. İnvestisiya fəaliyyətinin hüquqi tənzimlənməsi** ... 123

# СОДЕРЖАНИЕ

**Предисловие**............................................................................ 137
**Тематический план семинарских и практических занятий**...........................................................................141
**Общие методические указания по изучению дисциплины «Коммерческое (предпринимательское) право»**............................................................... 142

# Ön söz

“Kommersiya hüququ” fənninin tədrisinin **əsas məqsədi** gələcək peşəkar hüquqşünaslara hüquq mədəniyyətinin, hüquqi düşüncənin formalaşdırılmasından və inkişaf etdirilməsindən, həmçinin təcrübi fəaliyyətdə bu sahədə mövcud olan hüquq normalarının düzgün tətbiq edilməsi bacarığının aşılanmasından ibarətdir. Yuxarıda qeyd edilən məqsədlərə nail olmaq üçün aşağıdakı **vəzifələrin** həlli zəruridir:

- kursant və dinləyicilər tərəfindən kommersiya (sahibkarlıq) hüququnun əsas anlayışlarının hüquqi təbiətini və mahiyyətini, onun hüquqi quruluşunu hərtərəfli, dərindən dərk etməsinə nail olmaq (nəzəri-dərkedici vəzifə);
- kommersiya (sahibkarlıq) hüququ sahəsində elmi-tədqiqat işi üzrə bacarıqların formalaşdırılması (tədris-tədqiqat vəzifəsi);
- kommersiya (sahibkarlıq) hüquq normalarını konkret həyati vəziyyətlərə tətbiq və təhlil etmək, hüquqi şərhini vermək bacarığının formalaşdırılması (tədris-təcrübi vəzifə);
- yaradıcı şəxsiyyətin, gələcək peşəkar mütəxəssislərin hüquqi təfəkkürünün formalaşdırılması (dünyagörüşü vəzifəsi).
- kursant və dinləyicilərə normativ materialla, məhkəmə təcrübəsi və hüquq ədəbiyyatı ilə, həmçinin kompyuter proqramları əsasında hüquqi sənədlərlə müstəqil iş bacarığını aşılamaq;
- kursant və dinləyicilərə seminar-məşğələ dərslərinə səmərəli hazırlıq, o cümlədən, elmi müzakirələrdə fəal iştirak etmək qabiliyyətini, öz mövqelərini müdafiə etmək üçün arqumentlər gətirmək, fikirlərini aydın və əsaslandırılmış şəkildə ifadə etmək, normativ-hüquqi aktların layihələrinin hazırlanması vərdişlərini inkişaf etdirmək;
- təhsilalanların kommersiya (sahibkarlıq) hüququnun aktual problemləri üzrə nəzəri biliklərə yiyələnməsi və s.

Təcrübə məşğələlərinin keçirilməsinin əsas məqsədi kursant və dinləyicilərin konkret praktiki məsələlərin həlli, sahibkarlıq fəaliyyəti haqqında qanunvericiliyin normalarının düzgün tətbiq edil-

məsi bacarığının aşılanmasından ibarətdir.

Təcrübə məşğələləri kommersiya (sahibkarlıq) hüququnun nəzəri və təcrübi müddəalarının möhkəmləndirilməsinə, hər hansı bir hüquqi problemlərin həlli üzrə müzakirələr aparmaq qabiliyyətinin inkişafının, müstəqil axtarışlar yolu ilə elmi biliklərin əldə edilməsi bacarığının, tədris və təcrübi işə yaradıcı və müstəqil yanaşmanın formalaşdırılmasına kömək edir. Təcrübi məşğələlər normativ-hüquqi aktlarla və hüquq ədəbiyyatı ilə müstəqil olaraq işləməyi özündə ehtiva edir.

Praktikum Azərbaycan Respublikasının Təhsil Nazirinin 16 fevral 2018-ci il tarixli F-134 nömrəli əmri ilə təsdiq edilmiş "Kommersiya hüququ" fənni üzrə tədris proqramı əsasında tərtib olunmuşdur və 10 mövzudan ibarətdir. Hər bir mövzu üzrə müzakirəyə çıxarılan suallar, terminoloji, yazılı, test və normativ-hüquqi aktların müvafiq normalarının şərh edilməsi ilə bağlı tapşırıqlar, habelə kommersiya (sahibkarlıq) hüquq elmində mövcud olan elmi problem və yanaşmalar, özünüyoxlama sualları, referat mövzuları və müvafiq mövzunun mənimsənilməsi üçün tövsiyə olunan ədəbiyyat təsbit olunmuşdur.

Kursant və dinləyici kommersiya (sahibkarlıq) hüququ fənnini mənimsəməsi nəticəsində:

**1. bilməlidir:** kommersiya (sahibkarlıq) hüququnun tənzimlənməsinin predmetini və metodunu, habelə onun mənbələrini; sahibkarlıq fəaliyyətinin anlayışını, əlamətlərini, habelə bu fəaliyyətin həyata keçirilməsinin hüquqi formalarını; sahibkarlıq fəaliyyəti subyektlərinin yaradılması və xitamı ilə bağlı qanunvericiliyin mövcud normalarını; mülki dövriyyədə əmlakın hüquqi rejimini; sahibkarlıq fəaliyyətinin təşkilinin və həyata keçirilməsinin hüquqi vasitələrini; sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin hüquqi vasitələrini;

**2. bacarmalıdır:** kommersiya (sahibkarlıq) hüququnun əsas nəzəri və təcrübi problemlərini müəyyən edərək təhlil etməyi; kommersiya (sahibkarlıq) hüququ sahəsində müxtəlif normativ-hüquqi aktlarda təsbit edilmiş norma və müddəaların hüquqi məzmu-

nunu və onları şərh etməyi; sahibkarlıq fəaliyyətini tənzim edən hüquq normalarının mahiyyətini, sosial-hüquqi təbiətini və təyinatını müəyyən etməyi; müflisləşmə haqqında işin məhkəmədə qaldırılması ilə əlaqədar olan sənədlərin tərtib edilməsini; sahibkarlıq fəaliyyəti sahəsindəki faktları və vəziyyətləri hüquqi cəhətdən düzgün müəyyən etməyi; sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi məsələləri üzrə hüquqi məsləhət verməyi; sahibkarlıq fəaliyyəti subyektlərinin təşkilati-hüquqi formalarını fərqləndirməyi; sahibkarlıq fəaliyyəti subyektlərinin pozulmuş hüquqlarının və qanuni maraqlarının müdafiəsinin üsul və metodlarının tətbiqini.

**3. yiyələnməlidir:** kommersiya (sahibkarlıq) hüququnun terminoloji ifadələrindən istifadə etmək; sahibkarlıq fəaliyyətini tənzim edən normativ-hüquqi aktlarla sərbəst işləmək; müxtəlif hüquqi təzahürləri, hüquqi faktları, hüquq normalarını təhlil və şərh etmək; sahibkarlıq fəaliyyəti sahəsində mövcud və ya yaranacaq hüquqi problemləri və münaqişələri həll etmək; sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqlarını və maraqlarını qorumaq üçün lazımi hüquqi məsləhət və tövsiyələr vermək; kommersiya (sahibkarlıq) hüququ üzrə biliklərin təkmilləşdirilməsi üçün zəruri informasiyanın axtarılması bacarıqlarına.

Respublikamızda kommersiya (sahibkarlıq) hüququ fənnindən ilk dəfə belə bir məzmunda tədris-metodiki vəsait hazırlandığından qüsur və çatışmazlıqlardan da xali deyildir. Odur ki, onun gələcəkdə daha da təkmilləşdirilməsi üçün söyləniləcək haqlı irad və təklifləri əvvəlcədən qəbul edir və onların müəlliflərinə qabaqcadan öz minnətdarlığımızı bildiririk.

## Seminar-təcrübə dərslərinin mövzu-təqvim planı

| Sıra № | Mövzunun adı | Saatlar |
|---|---|---|
| **1** | **2** | **3** |
| 1. | Kommersiya (sahibkarlıq) hüququnun anlayışı, prinsipləri və mənbələri. | 2 |
| 2. | Kommersiya (sahibkarlıq) hüququnun subyektləri və onların əmlakının hüquqi rejimi | 2 |
| 3. | Müflisləşmə və iflasın hüquqi tənzimlənməsi. | 2 |
| 4. | Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi | 2 |
| 5. | Sahibkarlıq fəaliyyəti sahəsində inhisar fəaliyyətinin məhdudlaşdırılması və rəqabətin hüquqi təminatı. | 2 |
| 6. | Dövlət əmlakının özəlləşdirilməsinin hüquqi tənzimlənməsi. | 2 |
| 7. | Sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqlarının və qanuni mənafelərinin müdafiəsi. | 2 |
| 8. | Sahibkarlıq fəaliyyəti subyektlərinin istehsal fəaliyyətinin hüquqi tənzimlənməsi. | 2 |
| 9. | Bank fəaliyyətinin hüquqi tənzimlənməsi. | 2 |
| 10. | İnvestisiya fəaliyyətinin hüquqi tənzimlənməsi. | 2 |
| | **Yoxlama nəzarət dərsi** | 2 |
| | **CƏMİ:** | **22** |

## “Kommersiya (sahibkarlıq) hüququ” fənninin öyrənilməsinə dair ümumi metodik göstərişlər

“Kommersiya hüququ” tədris proqramına əsasən, təlimin fəal və interaktiv metod və formalarından istifadə edilməklə aparılan mühazirə, seminar-təcrübə məşğələləri nəzərdə tutulur.

Fənnin öyrənilməsi üçün hər bir kursant və dinləyici tərəfindən mühazirə və seminar konspekt dəftəri ilə yanaşı, ayrıca olaraq təcrübə dəftərinin tərtib olunması **mütləqdir.** Kursant və dinləyici hər bir mövzu üzrə terminoloji, yazılı, test, müvafiq hüquq normalarının şərhinə dair tapşırıqların icrasının nəticələrini, həmçinin elmi problem və yanaşmalara dair əsaslandırılmış mövqeyini, müvafiq normativ-hüquqi aktın normasına istinad etməklə təcrübi məsələlərin həlli üçün qoyulan sualları cavablandıraraq **təcrübə dəftərində qeyd etməlidir.**

**Müzakirəyə çıxarılan suallar.** Konkret mövzu üzrə nəzəri biliklərin sistemli şəkildə əldə edilməsi və mənimsənilməsi üçün seminar-məşğələ dərslərində müzakirə olunacaq suallar təsbit olunmuşdur. Seminar-məşğələ dərslərində müzakirə olunacaq sualların düzgün cavablandırılması üçün hər bir mövzu üzrə tövsiyə olunan ədəbiyyat siyahısı nəzərdən keçirilməlidir: dərsliklər, dərs vəsaitləri, monoqrafiyalar, elmi məqalə və tezislər, normativ-hüquqi aktlar və onların kommentariyaları.

**Terminoloji tapşırıq.** Kursant və dinləyici verilmiş terminoloji ifadələrin hüquqi, fəlsəfi və etimoloji mənalarının, izahlarının ensiklopedik, fəlsəfi və hüquq lüğətlərindən istifadə etməklə təcrübə dəftərində qeydiyyatını aparmalıdır.

**Yazılı tapşırıqlar.** Kursant və dinləyici hər bir mövzu üzrə əldə edilmiş əsas biliklərin mənimsənilməsinin təmin edilməsi məqsədi ilə yazılı tapşırıqların icrasının nəticələrini təcrübə dəftərində qeyd etməlidir.

**Elmi problemlər və yanaşmalar.** Hər bir mövzu üzrə hüquq elmində mövcud olan problemlər, yanaşmalar təsbit olunmuş-

dur ki, bu da öz növbəsində kursant və dinləyicinin konkret elmi məsələ ilə bağlı öz fikirlərini sərbəst şəkildə ifadə etmək və əsaslandırmaq bacarığının inkişaf etdirilməsinə xidmət edir. Qoyulmuş elmi problemi kursant və dinləyici nəzərdən keçirməli və özünün əsaslandırılmış mövqeyini təcrübə dəftərində qeyd etməlidir.

**Mövzu üzrə məsələlər.** Konkret mövzu üzrə əldə edilən nəzəri biliklərin möhkəmləndirilməsinə və konkret hüquqi vəziyyətlərdə normativ-hüquqi aktların müvafiq normasının düzgün tətbiq edilməsi bacarığının formalaşdırılmasına xidmət edir. Mövzu üzrə məsələlər aşağıdakı mərhələlərdə ardıcıllığa əməl olunmaqla həll edilməlidir: **birinci mərhələdə,** məsələnin məzmunu və cavab veriləcək suallar nəzərdən keçirilir; **ikinci mərhələdə,** məsələnin həlli zamanı tətbiq edilməli olan normativ-hüquqi aktın seçilməsi həyata keçirilir; **üçüncü mərhələdə,** normativ-hüquqi aktın məzmununda konkret normanın müəyyən edilməsi və məsələnin həlli zamanı tətbiq edilir; **dördüncü mərhələdə** isə kursant və dinləyici tapşırıqda verilən sualların cavablarını özünün təcrübə dəftərində qeyd edir.

**Test tapşırıqları.** Kursant və dinləyici mövzu üzrə əldə etdiyi biliklərini müstəqil şəkildə yoxlanılmasını özündə ehtiva edir. Hər bir test tapşırığında konkret sual verilir və biri doğru olmaqla dörd cavab verilmişdir.

## Referat mövzuların hazırlanmasına dair
## METODİK TÖVSİYƏLƏR

1. Referatın hazırlanmasından əvvəl mövzunun adı, məzmunu və həcmi müəyyən edilməlidir;

2. Mövzuya dair ədəbiyyatlar və normativ-hüquqi aktlarla tanış olunmalıdır;

3. Materialları nəzərdən keçirərkən oxunanlar barədə düşünülməlidir;

4. Mövzu ilə əlaqədar materialları nəzərdən keçirərkən diqqət cəlb edən məqamların qeydiyyatı aparılmalıdır;

5. Mövzu ilə əlaqədar materialları nəzərdən keçirdikdən sonra referatın tərtibatına başlanılmalıdır;

6. Referat müstəqil şəkildə tərtib olunmalıdır;

7. Referatın məzmunu girişdən, bölmələrdən (zərurət yarandıqda alt bölmələrdən), nəticədən və istifadə olunmuş mənbələrdən ibarət olmalıdır;

8. Referatda ifadə olunan hər bir fikir sübuta yetirilməli, əsaslandırılmalı və təsdiq olunmalıdır;

9. Referatın tərtibatı bitdikdən sonra çıxış etmək üçün bir neçə dəfə oxunulmalıdır;

10. Referat ilə çıxış edərkən daha çox danışmağa üstünlük verilməlidir;

11. Referat hazırlanarkən və çıxış zamanı mövzunun aktuallığı özündə əks olunmalıdır;

12. Referatın hazırlanması müddəti **2 həftədir**;

13. Referatın tərtibi:

- referat A4 formatında **20 səhifə həcmindən** az olmamalıdır;

- referatın mətni 1.5 interval, 14 keql, səhifənin aşağı-yuxarı və sağ-sol hissəsinin ölçüsü 2 sm, şrift Times New Roman olmalı, Microsoft Word 2003 proqramında yığılmalıdır;

- referatın mətnində istinadlar ədəbiyyat siyahısında göstəri-

lən ardıcıllıqla işarə olunmalıdır, məsələn, (2) və ya (3, s. 345). Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

- referatın titul səhifəsində mövzunun adı, müəllifin adı, soyadı, atasının adı, təhsil aldığı kurs və taqımı, elmi rəhbərin adı, soyadı, atasının adı, vəzifəsi, rütbəsi, elmi dərəcəsi və elmi adı göstərilməlidir.

## Bütün mövzuların mənimsənilməsi üçün tövsiyə olunan normativ-hüquqi aktlar və ədəbiyyat:

### *I. Azərbaycan dilində*


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2023.

2. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Azərbaycan Respublikasının 28 dekabr 1999-cu il tarixli 779-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş və Azərbaycan Respublikasının 26 may 2000-ci il tarixli 886-IQ nömrəli Qanununa əsasən 2000-ci il sen-tyabr ayının 1-dən qüvvəyə minmişdir. Bakı, 2019.

3. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi. Azərbaycan Respublikasının 28 dekabr 1999-cu il tarixli 779-IQ №-li Qanunu ilə təsdiq edilmiş və Azərbaycan Respublikasının 26 may 2000-ci il tarixli 886-IQ №-li Qanununu ilə sentyabr ayının 1-dən qüvvəyə minmişdir. Bakı, 2021.

4. "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 15 dekabr 1992-ci il tarixli 405№ -li Qanunu.

5. Axundov A. Azərbaycan dilinin izahlı lüğəti. Bakı, "Elm" nəşriyyatı, 2005.

6. Aslanov S.X. Sahibkarlıq hüququ. Əlavə və dəyişikliklərlə. II nəşr. Bakı, "Digesta" nəşriyyatı, Bakı, 2005.

7. Fəlsəfə ensiklopedik lüğəti /prof. İ.Ə. Rüstəmovun redaktəsi ilə. Bakı: Azərbaycan Ensiklopediyası, 1997.

8. Xələfov E.A. Sahibkarlıq hüququ. Dərs vəsaiti. Bakı, 2007.

9. Quliyev A.İ. Hüquq ensiklopediyası. Bakı, Qanun, 2007.

10. Məmmədov R.Y. Kommersiya (sahibkarlıq) hüququ: ümumi hissə. Dərs vəsaiti. I cild. Bakı, "Apostroff", 2015.

11. Məmmədov R.Y., Kizdarbekova A.S., Makoviy V.P., Kolesova T.S. Kommersiya (sahibkarlıq) hüququ: 100 suala 100 cavab. Dərs vəsaiti. Bakı, Ekoprint, 2017.

12. Məmmədov R.Y., Sadkov A.N., Karpıçev M.V. Kommersiya (sahibkarlıq) hüququ: sxemlərdə. Dərs vəsaiti. Bakı,

Ekoprint, 2018.
13. Məmmədov R.Y., Ferziyeva N.M. Kommersiya (sahibkarlıq) hüququ: mühazirə mətnləri. Bakı, 2022.
14. Mömsümov Camid. İqtisadi lüğət**.** Bakı, 2011.
15. Niftullayev V.M. Sahibkarlığın əsasları. Bakı, 2002.

### *II. Rus dilində*

1. Андреева Л.В. Коммерческое право России. М.,2004.
2. Байша Ж.Ф. Предпринимательское право. Учебное пособие. 2-е изд. переработан. и доп. М,. Издательско-торговая корпорация «Дашков и К», 2008.
3. Большой российский энциклопедический словарь. М.: Больш. российская энцик., 2003.
4. Венгеров А.Б. Теория государства и права: Учебник. М., 1999, стр. 340.
5. Гражданское право. Часть 1. Учебник. Под.ред. А.П.Сергеева, Ю.К. Толстого. М., 1996;
6. Гражданское и торговое право зарубежных стран. Учебное пособие. Под ред. В.В. Безбаха, В.К.Туринского. М., 2004.
7. Горбухов В.А. Коммерческое право. Конспект лекций. М. 2007.
8. Дойников И.В. Предпринимательское право. М.: Изд.: «ПРИОР», 1998.
9. Жилинский С.Э. Предпринимательское право (правовая основа предпринимательской деятельности). Учебник для вузов. 7-е изд., перераб. и доп. М.: Норма, 2006.
10. Корпоративное право: учебный курс: в 2 т. / Е.Г. Афанасьева, В.А. Вайпан, А.В. Габов и др.; отв. ред. И.С. Шиткина. М.: Статут, 2017.
11. Коршунова Н.М., Иваново Т.М. Предпринимательское право. М. 1999.
12. Круглова Н.Ю. Хозяйственное право. М.: Русская

Деловая Литература, 1997.

13. Кулагин М.И. Предпринимательство и право: опыт Запада. М., 1992.

14. Лаптев В.В. Введение в предпринимательское право. М., 1994.

15. Лебедев К.К. Предпринимательское и коммерческое право. СПб., 2002.

16. Мартемьянов В.С. Хозяйственное право. Т.1. М., 1994.

17. Попондопуло В.Ф. Коммерческое (предпринимательское) право: Учебник. 2-е изд. Перераб. и доп. М., 2006.

18. Предпринимательское (хозяйственное) право: учебник: в 2-х томах/ под ред. О.М. Олейник. Т.1. М., 1999; Т. 2. М., 2002.

19. Предпринимательское (хозяйственное) право. Учебник. Под ред. В.В.Лаптева, С.С. Занковского. М.,2006.

20. Предпринимательское право Российской Федерации. Под ред. Е.П. Губина, П.Г. Лахно. М., 2007.

21. Предпринимательское право. Курс лекций. Под.ред. Н.И.Клейн. М., 1993;

22. Предпринимательское право России: учеб. / В. С. Белых, Г. Э. Берсункаев, С. И. Виниченко и др.// отв. ред. В. С. Белых. – М.: Проспект, 2009.

23. Пугинский Б.И. Коммерческое право России. Учебник. М., 2005.

24. Российское предпринимательское право. Под ред. И.В.Ершовы, Г.Д. Отнюковы. М.: изд-во: Велби, Проспект, 2010.

25. Предпринимательское право России: библиография: учебно-методическое пособие / МГУ имени М.В. Ломоносова / отв. ред. д.ю.н., профессор Е.П. Губин, д.ю.н., профессор Ю.С. Харитонова / Е. Г. Афанасьева, А. В. Белицкая, В. А. Вайпан и др. — Юстицинформ М, 2019.

26. Предпринимательское право России: итоги, тенденции и пути развития: монография, коллектив авторов / МГУ

имени М.В.Ломоносова / отв. ред. Е.П. Губин / Е. Г. Афанасьева, А. В. Белицкая, В. А. Вайпан и др. — Юстицинформ Москва, 2019.

27. Предпринимательское право: современный взгляд: монография, коллектив авторов / МГУ имени М.В. Ломоносова / отв. ред. С.А. Карелина, П.Г. Лахно, И.С. Шиткина. М.: Юстицинформ, 2019. 600 с / Е. А. Абросимова, Е. Г. Афанасьева, А. В. Белицкая и др. — Юстицинформ М, 2019.

28. Предпринимательское право Российской Федерации: учебник для магистрантов / отв. ред. Е.П. Губин, П.Г. Лахно. 3-е изд., перераб., и доп. М.: Норма, ИНФРА, 2017.

29. Смагина И.А. Предпринимательское право. Учебное пособие. 3-е изд. М. Изд-во «Омега-Л», 2009.

30. Тюнель А., Функ Я., Хвалей Ф. Курс международного торгового права. Минск, 2000.

31. Хозяйственное право: учебник// под ред. В.К. Мамутова. Киев, 2002.

32. Юридическая энциклопедия /Под ред. Б.Н.Топорнина. М., 2001.

## ***III. İngilis dilində***

1. Kenneth W. Clarkson, Roger LeRoy Miller and Frank B. Cross. Business Law: Text and Cases - 14th edition. Cengage Learning Published: 2018.

2. Roger LeRoy Miller. Business Law Today: Essentials - 11th edition. Cengage Learning Published: 2017.

3. Jane Mallor. Business Law - 16th edition. Richard D. Irwin, Inc. Published: 2016.

4. Eric Baskind. Commercial Law Concentrate: Law Revision and Study Guide**.** Fifth Edition. Oxford Univercity Press, 2019.

5. M.A. Clarke, R.J.A. Hooley, R.J.C. Munday, L.S. Sealy, A.M. Tettenborn, and P.G. Turner. Commercial Law. Text, Cases, and Materials. Fifth Edition. Oxford Univercity Press, 2017.

## Mövzu 1. Kommersiya (sahibkarlıq) hüququnun anlayışı, prinsipləri və mənbələri

*Mühazirə – 4 saat;*
*Seminar – 2 saat.*

### Müzakirəyə çıxarılan suallar:

1. Kommersiya (sahibkarlıq) hüququnun anlayışı, predmeti və metodu.
2. Kommersiya (sahibkarlıq) hüququnun digər hüquq sahələri ilə qarşılıqlı əlaqəsi.
3. Kommersiya (sahibkarlıq) hüququnun prinsiplərinin anlayışı və təsnifatı.
4. Kommersiya (sahibkarlıq) hüququnun mənbələrinin anlayışı və növləri.
5. Kommersiya (sahibkarlıq) hüquq münasibətlərinin anlayışı və növləri.

### Hüquq normalarının şərhinə dair tapşırıqlar:

1. Azərbaycan Respublikasının Konstitusiyasının 13-cü, 15-ci, 29-cu, və 59- cu maddələrinin şərhini verin.

2. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 14-cü maddəsinin şərhini verin.

3. “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinin şərhini verin.

### Yazılı tapşırıqlar:

1. Sahibkarlıq fəaliyyətinin əlamətlərini sxem şəklində tərtib edin.

2. Kommersiya (sahibkarlıq) hüququnun prinsiplərinin izahı verilməklə sxem şəklində tərtib edin.

3. Kommersiya (sahibkarlıq) hüququnun digər hüquq sahələri ilə qarşılıqlı əlaqəsini özündə əks etdirən sxemi tərtib edin.

4. Kommersiya (sahibkarlıq) hüquq münasibətlərinin növlərinin izahı verilməklə sxem şəklində tərtib edin.

## Terminoloji tapşırıqlar:

*"Kommersiya", "sistem", "prinsip", "sahibkarlıq", "mənfəət", "mənbə", "metod"* terminlərinin etimoloji, hüquqi və fəlsəfi izahlarını dəftərinizdə qeyd edin.

## Elmi problemlər və yanaşmalar:

**1. Monistik nəzəriyyənin** tərəfdarları hesab edirlər ki, sahibkarlıq münasibətləri bir hüquq sahəsi ilə tənzim olunmalıdır. **Dualistik nəzəriyyənin** nümayəndələri isə sahibkarlıq münasibətlərinə başlıca olaraq, mülki və inzibati hüquq mövqeyindən yanaşaraq hesab edirlər ki, əmtəə-pul dövriyyəsi sahəsində bərabərhüquqlu subyektlərin üfüqi münasibətləri mülki hüquq ilə, şaquli münasibətlər isə inzibati hüquq və ona yaxın olan digər hüquq sahələrinin normaları ilə tənzim olunmalıdır. Kommersiya (sahibkarlıq) hüququnun müstəqil hüquq sahəsi olması fikirlərini dəstəkləyən V.V. Laptev,[1] V.K. Mamutov,[2] V.S. Martemyanov[3] və başqaları hesab edirlər ki, kommersiya (sahibkarlıq) hüququ müstəqil hüquq sahəsidir.

Lakin əks mövqedə duran E.A. Suxanov,[4] V.P. Mazolin,[5]

---

[1] Лаптев В.В. Хозяйственное право – право предпринимательской деятельности // Государство и право. 1993.№1; Введение в предпринимательское право. М., 1994.;

[2] Хозяйственное право: учебник// под ред. В.К. Мамутова. Киев, 2002.

[3] Мартемьянов В.С. Хозяйственное право: учебник. Т.1. М., 1994.

[4] Гражданское право: учебник // под ред. Е.А.Суханова. Т.1. М., 1998.

[5] Гражданское право: учебник// под ред. В.П. Мазолина, А.И.Масляева. Т.1 М., 2003.

S.S. Allahverdiyev[6] və başqaları hüququn müstəqil bir sahəsi kimi sahibkarlıq hüququnu inkar edirlər. Belə ki, S.S. Allahverdiyev hesab edir ki, "sahibkarlıq hüququ kimi müstəqil hüquq sahəsinin ayrılması qondarılmış, uydurulmuş, qeyri-təbii və süni məsələdir. Bunun heç bir elmi, praktiki əsası yoxdur".[7]

N.İ. Kleyn, A.P. Sergeyev və V.F. Popondopulo belə hesab edirlər ki, sahibkarlıq hüququ müstəqil hüquq sahəsi deyildir. Onların fikrincə, sahibkarlıq hüququ – xüsusi hüquqdur və mülki hüququn tərkib hissəsidir. Mülki-hüquqi tənzimləmə predmetinin tərkib hissəsi olan sahibkarlıq münasibətləri mülki hüququn təkcə xüsusi normaları ilə deyil, həm də ümumi normaları ilə də tənzim olunur. Mülki hüququn xüsusi normaları ümumi normalara nisbətən üstünlük təşkil edir və sahibkarlıq münasibətlərinə, ilk növbədə də bu xüsusi normalar tətbiq edilir. Mülki hüququn ümumi normaları subsidiar hərəkət edir, yəni yalnız mülki hüququn xüsusi normaları mövcud olmadıqda ümumi normalar tətbiq edilir.[8]

Eyni zamanda, hüquq ədəbiyyatlarında kommersiya (sahibkarlıq) hüququnun kompleks hüquq sahələrinə aid olması barədə fikirlər də səslənir. Belə ki, V.Q. Belyakov mülki hüququ kommersiya hüququnun əsas bazasının təşkil etdiyini vurğulasa da, eyni zamanda hüququn digər sahələrini də nəzərdən qaçırmır. Həmçinin, müəllif hüquq elmində mövcud olan dualistik və monistik konsepsiyaları qəbul etmir və kommersiya (sahibkarlıq) hüququnu-hüququn kompleks sahəsi kimi qəbul edir.[9]

---

[6] Allahverdiyev S.S. Azərbaycan Respublikasının Mülki hüququ. I cild. I kitab. Dərslik. Bakı. "Digesta" nəşriyyatı, 2003.

[7] Allahverdiyev S.S. göst. əsəri. səh. 38.

[8] Попондопуло В.Ф. Понятие и система коммерческого право. Государство и право. 1993, № 8; Правовой режим предпринимателиства. СПБ., 1994; Предпринимательское право. Курс лекций. Под.ред. Н.И.Клейн. М., 1993; Гражданское право. Часть 1. Учебник. Под.ред. А.П.Сергева, Ю.К.Толстого. М., 1996; Гражданское право. Учебник. Отв.ред. Е.А.Суханов. М., 1998. Т. 1.

[9] Беляков В.Г. Правовое регулирование предпринимательской деятельности. Учебное пособие, 3-е изд. испр. и доп. СПБ. Изд-во Высшая щкола менеджмента, изд. дом С.-Петербург. гос. ун-та, 2008. стр: 43.

S.X. Aslanov isə kommersiya (sahibkarlıq) hüququ mülki hüquqi konteksdə yanaşaraq anlayış verir.[10]

***Sizin fikrinizcə, kommersiya (sahibkarlıq) hüququnun Azərbaycan hüquq sistemində yeri barədə müəlliflərin hansı birinin fikirləri ilə razılaşmaq olar? Bu məsələyə dair öz mövqeyinizi bildirin və fikirlərinizi əsaslandırın.***

**2.** Hüquq ədəbiyyatlarında "**təsərrüfat fəaliyyəti**", **kommersiya fəaliyyəti**", **"sahibkarlıq fəaliyyəti"** anlayışlarının nisbətinə dair müxtəlif fikirlər mövcuddur.

B.İ. Puqinskiy "sahibkarlıq hüququ" və "kommersiya hüququ" anlayışlarını xarakterizə edərək göstərir ki, terminin tətbiqində çoxlu səhvlərə yol verilir. Sahibkarlıqla bağlı hər şey kommersiya adlanır. Kommersiya bankları, kommersiya təhsil müəssisələri və s. haqqında danışılır. Bu qeyri-dəqiqlik ilk növbədə Mülki Məcəllədə öz əksini tapır. Belə ki, Mülki Məcəllədə bütün təşkilatlar kommersiya və qeyri-kommersiya təşkilatlarına ayrılır.[11] Y.A. Suxanov isə qeyd edir ki, "fikrimizcə, sahibkarlıq hüququnun kommersiya hüququndan fərqləndirilməsi üçün heç bir əsas yoxdur. Qanunda təsbit olunan sahibkarlıq fəaliyyətinin bitmiş əlamətləri elə kommersiya fəaliyyətinə xas olan əlamətləridir".[12]

V.S. Belıx isə ilk növbədə anlayışlar aparatının nəzərdən keçirilməsini təklif edir. Müəllif qeyd edir ki, «çox vaxt bu anlayışlar sinonim kimi işlədilir».[13] Rus hüquşünasları Y.P. Qubin və P.Q. Laxnonun fikrincə isə **təsərrüfat fəaliyyəti** – iqtisadi fəaliyyətin növlərindən biridir, təsərrüfat subyektlərinin özləri və dövlət hakimiyyəti orqanları tərəfindən müəyyən edilən qaydalara uyğun ola-

---

[10] Aslanov S.X. Sahibkarlıq hüququ. Bakı, "Digesta" nəşriyyatı, 2005. Səh 15.

[11] Пугинский Б.И. Коммерческое право России. Учебник. М., 2005. стр: 5-6

[12] Толстой Ю.К. Заметки о научной деятельности О.С.Иоффе. М., 2005, стр: 26.

[13] Белых Б.С. Правовое регулирование предпринимательской деятельности в России. М., 2005. стр. 15-16.

raq iqtisadi fəaliyyətin təşkili, rəhbərliyi və bilavasitə həyata keçirilməsi qaydasıdır. **Kommersiya fəaliyyəti** isə ticarət ilə, əmtəə dövriyyəsi ilə bağlı olan iqtisadi, təsərrüfat, sahibkarlıq fəaliyyətinin növüdür. **Sahibkarlıq fəaliyyəti** – daha geniş anlayış olan iqtisadi fəaliyyət anlayışının tərkib hissəsidir. Belə ki, istənilən sahibkarlıq fəaliyyəti elə iqtisadi fəaliyyətdir.[14]

***Sizin fikrinizcə, hansı mövqe daha doğrudur?***

***"Sahibkarlıq fəaliyyəti" ilə "kommersiya fəaliyyəti" anlayışları arasında nisbət müəyyən edilməlidirmi?***

***Göstərilən anlayışlar eynimənalı anlayışlar hesab olunurmu? Fikrinizi əsaslandırın.***

**3.** Sahibkarlıq hüquq elmində kommersiya (sahibkarlıq) hüququnun prinsiplərinin təsnifatı barədə alimlər arasında vahid fikir formalaşmayıb. Belə ki, bir sıra alimlər kommersiya (sahibkarlıq) hüququnun prinsiplərinə mülki hüquqi, digər alimlər isə xüsusi hüquqi aspektdən yanaşır və təsnifatını verirlər. Belə ki, kommersiya (sahibkarlıq) hüququ prinsiplərinin təsnifatını verərkən mülki qanunvericiliyə istinad etmiş S V.F. Popondopulonun fikrincə, "mülki hüququn tərkib hissəsi kimi kommersiya hüququnun xüsusiyyətlərini xüsusi hüququn prinsipləri vasitəsilə müşahidə aparmaq olar".[15] S.X.Aslanov da bu fikirləri dəstəkləyir.[16] İ.V. Yerşova, kommersiya hüququna xas olan prinsiplərinin təsnifatını təsbit edir: azad sahibkarlıq fəaliyyəti, vahid iqtisadi məkan; mülkiyyətin çox formalığının tanınması, mülkiyyət formalarının hüquq bərabərliyi və onların bərabər şəkildə müdafiəsi; rəqabətin dəstəklən-

---

[14] Предпринимательское право Россиийской Федерации. Отв. Ред. Е.П. Губин, П.Г.Лахно. М.,Юристъ, 2004, стр: 23.

[15] Попондопуло В.Ф. Коммерческое (прелпринимательское) право. Учебник. М.Юристь, 2004. стр: 29.

[16] Aslanov S.X. Sahibkarlıq hüququ. Bakı, "Digesta" nəşriyyatı, 2005. Səh. 23-29.

məsinin, inhisarçılığa və haqsız rəqabətə yönələn iqtisadi fəaliyyətin yolverilməzliyi; sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi və qanunçuluq prinsipləri.[17]

***Sizin fikrinizcə, kommersiya (sahibkarlıq) hüququnun prinsiplərinə dair müəlliflərin hansı birinin təklif etdiyi təsnifatı daha məqsədəmüvafiq hesab etmək olar? Fikrinizi əsaslandırın.***

## Test tapşırıqları:

**1. Kommersiya (sahibkarlıq) hüququna aşağıda verilən anlayışlardan hansı biri doğrudur?**

a) kommersiya (sahibkarlıq) hüququ – hüququn bir sahəsi olub, sahibkarlıq münasibətlərini, onunla sıx bağlı olan qeyri-kommersiya münasibətlərini, o cümlədən dövlət və ictimai maraqları təmin etmək məqsədi ilə iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi üzrə münasibətləri tənzim edən hüquq normalarının məcmusudur;

b) kommersiya (sahibkarlıq) hüququ – hüququn bir sahəsi olub, sahibkarlıq münasibətlərini, o cümlədən dövlət və ictimai maraqları təmin etmək məqsədi ilə iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi üzrə münasibətləri tənzim edən hüquq normalarının məcmusudur;

c) kommersiya (sahibkarlıq) hüququ – hüququn bir sahəsi olub, sahibkarlıq münasibətlərini, onunla sıx bağlı olan əmlak və şəxsi qeyri-əmlak münasibətlərini, o cümlədən dövlət və ictimai maraqları təmin etmək məqsədi ilə iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi üzrə münasibətləri tənzim edən hüquq normalarının məcmusudur;

d) kommersiya (sahibkarlıq) hüququ – hüququn bir sahəsi olub, sahibkarlıq münasibətlərini, maliyyə münasibətlərini, onunla sıx bağlı olan əmlak və şəxsi qeyri-əmlak münasibətlərini, o cüm-

[17] Ершова И.В. Предпринимательское право. Учебник. М., Юриспруденция, 2002. стр: 13-15.

lədən dövlət və ictimai maraqları təmin etmək məqsədi ilə iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi üzrə münasibətləri tənzim edən hüquq normalarının məcmusudur.

**2. Aşağıda göstərilən əlamətlərdən hansı biri sahibkarlıq fəaliyyətinin əlamətidir?**

a) fiziki şəxslərin müstəqil fəaliyyətidir;
b) tabeliklə xarakterizə olunan fəaliyyətdir;
c) hüquqi şəxslərin müstəqil fəaliyyətidir;
d) sistematik gəlir əldə edilməsinə yönələn fəaliyyətdir.

**3. Sadalanan prinsiplərdən hansı biri kommersiya (sahibkarlıq) hüququnun prinsiplərinə aiddir?**

a) sahibkarlıq fəaliyyətinin inkişafı prinsipi;
b) inhisarçılıqdan müdafiə və rəqabətin təminatı prinsipi;
c) sahibkarlıq fəaliyyətinin məhdudlaşdırılmasının yolverilməzliyi prinsipi;
d) sahibkarlıq fəaliyyətinin davamlı inkişafı prinsipi.

**4. Kommersiya (sahibkarlıq) hüququnun prinsiplərinə aid deyil?**

a) sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi prinsipi;
b) vahid iqtisadi məkan prinsipi;
c) inhisarçılıqdan müdafiə və rəqabətin hüquqi təminatı prinsipi;
d) sahibkarlığın təminatlığı prinsipi.

**5. Hansı halda işgüzar adətlər kommersiya (sahibkarlıq) hüququnun mənbəyi hesab oluna bilər?**

a) qanunla müəyyən edilmiş hallarda işgüzar adətlər kommersiya hüququnun mənbəyi ola bilər;
b) işgüzar adətlər kommersiya hüququnun mənbəyi ola bilməz;
c) işgüzar adətlər elə kommersiya hüququnun mənbəyidir;
d) istisna hallarda işgüzar adətlər kommersiya hüququnun mənbəyi ola bilər.

## Məsələlər:

**Məsələ 1.** Vətəndaş Qasım Həsənov hansı fəaliyyətin sahibkarlıq fəaliyyəti hesab olunması ilə əlaqədar Bakı şəhər 1 nömrəli hüquq məsləhətxanasına müraciət etmişdir:

1. Vətəndaş Qasım Həsənov tərəfindən qohumların, qonşuların, tanışların və digər şəxslərin sifarişinə əsasən təmir işlərinin yerinə yetirilməsi;

2. Banklara əmanətin qoyulması və faiz olaraq qoyulmuş məbləğdən sistematik olaraq gəlir götürülməsi;

3. Repetitorluq üzrə xidmətlərin göstərilməsi orta məktəb şagirdlərinin ali məktəbə daxil olması üçün "xarici dil" fənni üzrə hazırlanması.

Hüquq məsləhətxanasının nümayəndəsinin fikrincə, vətəndaş Qasım Həsənov tərəfindən həyata keçirilən fəaliyyətlərindən yalnız biri qohum olmayan şəxslərin sifarişi əsasında təmir işlərinin aparılması fəaliyyəti sahibkarlıq fəaliyyyətidir.

***Sahibkarlıq fəaliyyətinin növlərini sadalayın.***

***Bu halda Hüquq məsləhətxanasının nümayəndəsinin fikirlərini haqlı olaraq qəbul etmək olarmı?***

***Vətəndaş Qasım Həsənov tərəfindən həyata keçirilən fəaliyyət növlərini sahibkarlıq fəaliyyəti hesab etmək olarmı?***

**Məsələ 2.** Azərbaycan Respublikasında fəaliyyət göstərən "Ulduz"ASC Qazaxıstan şirkətinə qarşı iddia ilə Bakı Kommersiya Məhkəməsinə müraciət etmişdir.

"Ulduz"ASC ilə Qazaxıstan şirkəti arasında daşıma müqaviləsi bağlanılmışdır. Müqavilənin şərtlərinə əsasən, Qazaxıstan şirkəti süd məhsullarını Bakı şəhərinə daşınmasını həyata keçirməlidir. Məhsulun çeşidi daşıma müqaviləsinin tərkib hissəsi hesab olunan xüsusi protokolla müəyyən olunmuşdur. Məhsulun ödənişi alıcı tərəfindən məhsul qəbul edildikdən sonra həyata keçirilməlidir.

Lakin məhsulun qəbulu aktı ilə müəyyən olunmuşdur ki, Qa-

zaxıstan şirkəti məhsulun çeşidini dəyişdirməklə protokolun şərtlərini birtərəfli qaydada pozmuşdur. Alıcının məhsulun çeşidinin protokolda təsbit olunan çeşidlə əvəz edilməsi tələbindən Qazaxıstan şirkəti imtina etmişdir.

İddia ərizəsində iddiaçı "Ulduz"ASC işin hallarını Azərbaycan Respublikasının Mülki Məcəlləsinin normalarına əsaslanaraq ifadə etmişdir. Məhkəmə prosesinə cavabdeh qismində cəlb olunan Qazaxıstan şirkəti isə "Əmtəələrin beynəlxalq alqı-satqısı müqaviləsi haqqında" BMT-in 1980-cı il Konvensiyasının müddəalarını rəhbər tutaraq iddiaçı "Ulduz" ASC-nin iddia tələbini qəbul etməkdən imtina etmişdir.

***Bu mübahisənin həlli üçün işə baxan məhkəmə hansı normativ-hüquqi aktkarı rəhbər tutmalıdır?***

***Bu halda məhkəmə hansı qərarı qəbul etməlidir?***

***Hansı halda Azərbaycan Respublikasının ərazisində beynəlxalq müqavilələrin normaları tətbiq oluna bilər?***

**Məsələ 3.** Qanunla müəyyən edilmiş qaydada fərdi sahibkar kimi qeydiyyata alınmayan vətəndaş Əhmədov Samir Bakı şəhər 1 saylı notariat kontorunda bağlanılmış əmlak kirayəsi müqaviləsi əsasında mülkiyyətində olan dörd mənzili kirayə verməklə gəlir əldə edir.

***Belə bir fəaliyyət sahibkarlıq fəaliyyəti hesab oluna bilərmi?***

***Sahibkarlıq fəaliyyətinə anlayış verin.***

**Məsələ 4.** Vətəndaş Əhməd Kazımov sələmçilik fəaliyyəti ilə məşğul olur: xüsusi qaydada borc müqavilələri əsasında qonşularına, dostlarına, tanışlarına faiz dərəcəsi müəyyən etməklə pul vəsaiti verir.

***Belə bir fəaliyyət sahibkarlıq fəaliyyəti hesab olunurmu?***

***Sahibkarlıq fəaliyyətinin əlamətlərini sadalayın.***

**Məsələ 5.** Vətəndaş Sahib Cümşüdov mənzilin təmirinə dair vətəndaş Şahbaz Hüseynov arasında müqavilə bağlanılmışdır. Müqavilənin şərtlərinə əsasən Sahib Cümşüdov mənzilin təmirini 1 dekabr 2018-ci il tarixinə, yəni Şahbaz Hüseynovun məzuniyyətə getməsinədək bitirməlidir. Lakin, müqavilə bağlandıqdan sonra Sahib Cümşüdov bir ay müddətində xəstə olaraq müalicə almışdır. Buna görə də Sahib Cümşüdov müqavilədə göstərilən müddətdə mənzilin təmirini başa çatdırmamışdır. Bu səbəbdən mənzilin sahibi Şahbaz Hüseynov məzuniyyət zamanı nəzərdə tutulan xarici ölkəyə səfərini ləğv etmiş, qabaqcadan alınmış avia bilet isə geri qaytarmışdır.

Bir müddət sonra Şahbaz Hüseynov müqavilədə göstərilən şərtlərin pozulması və vurulmuş ziyanın ödənilməsinə dair iddia ərizəsi ilə Nəsimi rayon məhkəməsinə müraciət etmişdir. Məhkəmə prosesində vətəndaş Sahib Cümşüdov iddianı qəbul etməmiş, fərdi sahibkar kimi dövlət qeydiyyatına alınmaması, müqavilənin şərtlərinin pozulmasında onun təqsirinin istisna təşkil etdiyini bildirmişdir. Bu səbəbdən də heç bir məsuliyyət daşımır.

***Sahib Cümşüdovun fəaliyyəti sahibkarlıq fəaliyyəti hesab olunurmu?***

***Sahib Cümşüdovun fərdi sahibkar kimi dövlət qeydiyyatından keçməməsi bağlanmış müqavilə üzrə onun məsuliyyətini istisna edirmi?***

***Bu halda işə baxan məhkəmə hansı qərarı qəbul etməlidir?***

**Məsələ 6.** Esmira Həsənova doqquz mərtəbəli yaşayış binasının dördüncü mərtəbəsində öz şəxsi mənzilində manikür-pedikür xidmətlərini göstərirdi. Bir ay sonra yaşayış binasının sakinləri Esmira Həsənovadan manikür-pedikür xidmətlərinin göstərilməsi fəaliyyətinin dayandırılmasını tələb etmişlər. Buna səbəb kimi isə sakinlər göstərmişdirlər ki, davamlı olaraq mənzilin giriş qapısı

önündə yığışan müştərilərin sıxlığı nəticəsində yuxarı və aşağı mərtəbələrə keçid məhdudlaşır və bu da binada yaşayan sakinlərin narahatçılığına səbəb olur.

Esmira Həsənova bina sakinlərinin tələblərini yerinə yetirməkdən imtina edərək qeyd etmişdir ki, manikür-pedikür xidmətləri göstərilən mənzil onun xüsusi mülkiyyətindədir və ona məxsus olan yaşayış sahəsi ilə bağlı hər hansı hərəkətləri etmək, o cümlədən ondan istifadə qaydasını müəyyən etmək hüququna malikdir. Bina sakinləri ərazi üzrə polis şöbəsinə ərizə ilə müraciət etmişlər.

***Esmira Həsənovanın öz şəxsi mənzilində manikür-pedikür xidmətlərinin göstərməsi qanunvericiliyə uyğundurmu?***

***Polis şöbəsi bu halda hansı tədbirlər görməlidir?***

***Əgər Esmira Həsənovanın mənzilinə gələn müştərilər mənzilin giriş qapısının qarşısında deyil, onun mənzilində öz növbəsini gözləsələr, qərar dəyişəcəkmi?***

**Məsələ 7.** Bakı şəhəri Xəzər rayonunun Buzovna kənd sakini Əli Əliyev dörd ildir ki, alüminium qırıntıları, mis və digər əlvan metallar alaraq yaşadığı evin yaxınlığındakı ərazidə saxlamışdır. Ümumilikdə, 6 ton alüminium, 4 ton mis və 3 ton digər əlvan metallar vətəndaş Əli Əliyev tərəfindən toplanmışdır. Əli Əliyevin əsas məqsədi ondan ibarət idi ki, topladığı əlvan metal qırıntılarını baha qiymətə satmaqla daha yüksək qazanc əldə etsin. Lakin vətəndaş Əli Əliyevin bu fəaliyyəti ərazidə xidmət aparan polis əməkdaşları tərəfindən dayandırılmışdır. Səbəb kimi isə göstərilmişdir ki, vətəndaş Əli Əliyevin belə bir fəaliyyəti həyata keçirməsi üçün dövlət qeydiyyatının və müvafiq lisenziyanın olmamasıdır.

Vətəndaş Əli Əliyev isə bildirmişdir ki, onun həyata keçirdiyi fəaliyyət sahibkarlıq fəaliyyəti deyildir və onun hərəkətlərində sahibkarlıq fəaliyyətinin əlamətləri, xüsusilə də mütəmadi olaraq əmtəələrin alınması və satılması istisna təşkil edir. Bundan başqa, vətəndaş Əli Əliyev Azərbaycan Respublikasının Mülki Məcəlləsi-

nin 154.2-ci maddəsinə əsaslanaraq bildirmişdir ki, vətəndaşlara məxsus əmlakın sayı və dəyəri qanunvericiliklə məhdudlaşdırılmır və o, istənilən miqdarda metal qırıntılarına sahib ola bilər.

***Vətəndaş Əli Əliyevin fəaliyyəti sahibkarlıq fəaliyyəti hesab olunurmu?***

***Ərazidə xidmət aparan polis əməkdaşları tərəfindən vətəndaş Əli Əliyevin fəaliyyətinin dayandırılması qanunauyğundurmu?***

***Sahibkarlıq fəaliyyətinin əlamətlərini sadalayın.***

## Referat mövzuları:

1. Kommersiya (sahibkarlıq) hüququnun metodu: anlayışı və növləri.
2. Sahibkarlıq fəaliyyəti haqqında qanunvericilik: müasir vəziyyəti və inkişaf perspektivləri.
3. Kommersiya (sahibkarlıq) hüququnun Azərbaycan hüquq sistemində yeri.

## Özünüyoxlama sualları:

1. Sahibkarlıq fəaliyyəti dedikdə nə başa düşülür?
2. Sahibkarlıq fəaliyyəti hansı əlamətlərlə xarakterizə olunur?
3. “Sahibkarlıq fəaliyyəti” və “ticarət fəaliyyəti” anlayışlarının nisbəti nədən ibarətdir?
4. Kommersiya (sahibkarlıq) hüququnun mənbələrinin özünəməxsus cəhətləri nədən ibarətdir?
5. Məhkəmə presedenti kommersiya (sahibkarlıq) hüququnun mənbəyi hesab oluna bilərmi?
6. Kommersiya (sahibkarlıq) hüquq münasibətlərinin hansı növlərini bilirsiniz?
7. Kommersiya (sahibkarlıq) hüququnun mənbələrinin hansı

növlərini bilirsiniz?

8. Sahibkarlıq fəaliyyətinin hüquqi tənzimlənməsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarının rolu və əhəmiyyətini göstərin.

## Mövzunun mənimsənilməsi üçün tövsiyə olunan ədəbiyyat:


1. "Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişaf sahəsində süni maneələrin aradan qaldırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 7 yanvar 1999-cu il tarixli 69 nömrəli Fərmanı.

2. "Azərbaycan Respublikasında iqtisadi cinayətkarlığa qarşı mübarizə sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikasının Prezidentinin 27 yanvar 1998-ci il tarixli 730 nömrəli Fərmanı.

3. "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 9 avqust 1994-cü il tarixli 181 nömrəli Fərmanı.

4. "İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 17 iyun 1996-cı il tarixli 463 nömrəli Fərmanı.

5. "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında" Azərbaycan Respublikası Prezidentinin 28 sentyabr 2002-ci il tarixli 790 nömrəli Fərmanı.

6. "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 10 sentyabr 2000-ci il tarixli 783 nömrəli Fərmanı.

7. Aslanov S.X. Hüquqda dualizm – sahibkarlıq hüququnun formalaşması və inkişafının bəzi məsələləri. "Hüquqi dövlət və qanun" jurnalı, № 9, 1999, səh. 35-37.

8. Əliyev V. Sahibkarlıq fəaliyyətinin anlayışı və əlamətləri. “Qanun” jurnalı, № 11, 2007, səh. 21-28.

9. Hüquq nəzəriyyəsi. Təkmilləşdirilmiş yeni nəşr. M.B. Əhmədovun elmi redaktorluğu ilə. Bakı: Mütərcim, 2013.

10. Xələfov E.A. Sahibkarlıq hüququnun mənbələri. “Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi”. 21-ci buraxılış. Bakı, “Adiloğlu”, 2008, səh.159-162.

11. Məlikova M.F. Hüququ nəzəriyyəsi. Dərslik. Yenidən işlənmiş və əlavələr edilmiş üçüncü nəşri. Bakı, “Elm və təhsil”, 2019.

12. Məmmədov R. Y. Hüququn mənbələrinin növləri, onların ümumi əlamətləri və fərqləri. «Qanun» jurnalı, № 09, 2005, səh. 3-11.

13. Məmmədov R.Y. Hüququn mənbələrinin anlayışı və mahiyyəti. Keçid dövründə Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi. 13-cü buraxılış. Bakı, «Adiloğlu» nəşriyyatı, 2005, s.133-137.

14. Səmədov G. Правовой обычай как источник права. “Qanun” jurnalı, № 11, 2007, səh. 9-13.

15. Быков А.Г. О содержании курса предпринимАтельского права и принципах его построения // ПредпринимАтельское право в рыночной экономике. М.: Новая правовая культура, 2004.

16. Вайпан В.А. Источники предпринимательского права: учебно-методический комплекс (учебное пособие в рамках дисциплины «Предпринимательское право Российской Федерации»). М.: Юстицинформ, 2017.

17. Вайпан В.А. Принцип социальной справедливости в правовом регулировании предпринимательской деятельности // Гражданское право. 2016. № 2.

18. Губин Е.П. Предмет предпринимательского права: современный взгляд // Предпринимательское право. 2014. № 2.

19. Губин Е.П. Законодательство о предпринимательской деятельности: состояние и направления совершенствования // Предпринимательское право. Приложение «Бизнес и право в России и за рубежом». 2010. № 3.

20. Гаджиев Г.А. Конституционные принципы рыночной экономики. М.: Юристъ, 2002.

21. Лаптев В.А. Источники предпринимательского права в Российской Федерации: монография. М.: Проспект, 2017.

22. Мамутов В.К. Современные проблемы предпринимательского (хозяйственного) права. М.: ИГП РАН, 2011.

23. Мамутов В.К. Хозяйственное право. Избранные труды. Екатеринбург: Бизнес, менеджмент, право, 2008.

24. Покровский И.А. Основные проблемы гражданского права. Сер. «Классика российской цивилистики». М.: Статут, 2016.

25. Проблемы реализации принципов права в предпринимательской деятельности: монография / В.К. Андреев, Л.В. Андреева, К.М. Арсланов и др.; отв. ред. В.А. Вайпан, М.А. Егорова. М.: Юстицинформ, 2016.

26. Ровный В.В. Понятие и признаки предпринимательства. Иркутск: Издательство Иркутского университета, 1998.

27. Шиткина И.С. О признании судебной практики источником российского права // Хозяйство и право. 2013. № 4.

28. Мамутов В.К. Сближение современных систем правового регулирования хозяйственной деятельности // Государство и право. 1996. № 8. С. 41.

## Mövzu 2. Kommersiya (sahibkarlıq) hüququnun subyektləri və onların əmlakının hüquqi rejimi

*Mühazirə – 2 saat;*
*Seminar – 2 saat.*

### Müzakirəyə çıxarılan suallar:

1. Kommersiya (sahibkarlıq) hüququnun subyektlərinin anlayışı və növləri.
2. Kommersiya təşkilatları - kommersiya (sahibkarlıq) hüququnun subyektləri kimi.
3. Kiçik sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqi vəziyyəti.
4. Maliyyə-sənaye qrupları kommersiya (sahibkarlıq) hüququnun subyekti kimi
5. Əmtəə birjalarının yaradılması və fəaliyyətinin hüquqi tənzimlənməsi.
6. Mülkiyyət hüququ sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinin əsası kimi.

### Hüquq normalarının şərhinə dair tapşırıqlar:

1. "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü, 6-cı, 7-ci və 10-cu maddələrinin şərhini verin.

2. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 135-ci və 126-cı maddələrinin şərhini verin.

3. "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin şərhini verin.

## Yazılı tapşırıqlar:

1. Hüquqi şəxsin əlamətlərini sxem şəklində tərtib edin.
2. Səhmdar cəmiyyətini məhdud məsuliyyətli cəmiyyətdən fərqləndirən cəhətləri cədvəl şəklində göstərin.
3. Daşınar əşyaları daşınmaz əşyalardan fərqləndirən cəhətləri sxem şəklində göstərin.
4. Sahibkarlıq fəaliyyəti subyektlərinin təsnifatını cədvəl şəklində göstərin.

## Terminoloji tapşırıqlar:

*"Subyekt", "birja", "publik", "emansipasiya", "broker", "diler", "fond"* terminlərinin etimoloji, hüquqi və fəlsəfi izahlarını dəftərinizdə qeyd edin.

## Elmi problemlər və yanaşmalar:

**1.** Hüquq doktrinasında qapalı səhmdar cəmiyyətlərinin saxlanılmasının məqsədəuyğunluğu müzakirə olunur. Beləliklə, D.V. Lomakin qeyd edir ki, qapalı səhmdar cəmiyyətlə məhdud məsuliyyətli cəmiyyət arasındakı fərq ondan ibarətdir ki, emissiya qiymətli kağızlar - səhmlər buraxa bilər. Müəllifin fikrincə, qapalı səhmdar cəmiyyətin səhmləri klassik səhmlərlə yalnız nominal bənzərliyə malikdir. Bunu da əsas gətirən D.V. Lomakin hesab edir ki, qanunvericilikdə qapalı tipli səhmdar cəmiyyətinin mövcud olması heç bir obyektiv şərtə malik deyil.[18] Qapalı səhmdar cəmiyyətlərin mövcudluğunu inkar edən V.A.Belov da hesab edir ki, "… qapalı səhmdar cəmiyyətlərin mövcud olması nəinki faydasız (artıq)) deyil, eyni zamanda səhmdar cəmiyyətin hüquqi quruluşuna xələl gətirəcək qədər zərərli hesab edilir".[19]

---

[18] Ломакин Д.В. Понятие и признаки акционерного общества // Вестник Московского университета. 2002. № 2. С. 73 – 74.
[19] Белов В.А., Пестерова Е.В. Хозяйственные общества. М., 2002. С. 15.

Lakin heç də bütün mütəxəssislər qapalı səhmdar cəmiyyətinin sahibkarlığın mümkün təşkilati-hüquqi formaları sırasından çıxarılmasının tərəfdarı deyillər. Belə ki, A.E. Molotnikov hesab edir ki, "həm məhdud məsuliyyətli cəmiyyətlər, həm də qapalı səhmdar cəmiyyətlər müstəqil hüquqi şəxslərdir və köklü islahatlara ehtiyac duyulmur".[20]

***Sizin fikrinizcə, qapalı səhmdar cəmiyyətlərinin Azərbaycan Respublikasının mülki qanunvericiliyində təsbit olunması və sahibkarlıq fəaliyyətinin müvafiq təşkilati-hüquqi formalarından biri kimi çıxış etməsi məqsədəmüvafiqdirmi? Hansı qrup müəlliflərin fikirləri daha məqbul hesab edilə bilər? Fikrinizi əsaslandırın.***

**2.** Kommersiya (sahibkarlıq) hüquq elmində subyektlərin dairəsi və təsnifatı ilə bağlı müxtəlif mövqelər mövcuddur. Belə ki, V.V.Laptev kommersiya (sahibkarlıq) hüququ subyektlərinin üç növünü müəyyənləşdirir: 1) təsərrüfat (sahibkarlıq) fəaliyyəti ilə məşğul olan subyektlər; 2) bu fəaliyyəti tənzimləyən (təşkil edən) və ona nəzarət edən subyektlər; 3) təsərrüfatdaxili münasibətlərdə iştirak edən subyektlər.[21] Kommersiya (sahibkarlıq) hüququ subyektlərinin təsnifatına dair V.V.Laptevin mövqeyinə yaxın olan V.S. Martemyanov isə V.V.Laptevdən fərqli olaraq kommersiya (sahibkarlıq) hüququnun subyektlərini iki qrupa ayırmışdır. Müəllif birinci qrupa sahibkarlıq fəaliyyətini aparan (həyata keçirən) subyektləri daxil etmişdir: fərdi sahibkarları, müəssisələri və müəssisənin bölmələri. İkinci qrupa isə müəllif, təsərrüfat səlahiyyətlərində "... ən böyük xüsusi çəki təşkil edən təsərrüfat-təşkilati fəaliyyətdir...": dövlətlər və regionlar (vilayətlər, rayonlar və şəhərlər).[22] İ.V.Doynikov da V.V.Laptev və V.S.Martemyanov kimi iqtisadi (təsərrüfat) münasibətlərdə iştirak edən subyektləri üfüqi

---

[20] Молотиков А.Е. АО и ООО. Две формы ведения бизнеса. М., 2004. С. 12-13.

[21] См.: Лаптев В. В. Субъекты предпринимательского права. - С. 23 - 25.

[22] Мартемьянов В. С. Хозяйственное право. Т. 1, - С. 57.

və şaquli olaraq müəyyənləşdirir, lakin "sahibkarlıq hüququnun subyekti" və "sahibkarlıq hüquq münasibətlərinin subyekti" anlayışlarının fərqləndirməyi təklif edir.[23]

Sahibkarlıq hüquq subyektlərinə münasibətdə həm xüsusi hüquq, həm də sahibkarlıq hüquq doktrinasının tərəfdarlarının mövqeyindən fərqlənən mövqedə V. S. Belıx durur. Müəllif kommersiya (sahibkarlıq) hüququnun aşağıdakı subyektlərinin təsnifatını təklif edir:

1) fərdi sahibkarlar;

2) sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi şəxslər;

3) dövlət qurumları, bələdiyyələr;

4) nəzarət və sahibkarlığın tənzimlənməsi funksiyalarını həyata keçirən dövlət orqanları;

5) qeyri-hüquq subyektli qurumlar: a) müəssisələrin struktur bölmələri; b) maliyyə-sənaye qrupları, holdinqlər, konsernlər, konsorsiumlar, sindikatlar, trestlər.[24]

**Sizin fikrinizcə, kommersiya (sahibkarlıq) hüquq elmində subyektlərin təsnifatına dair alimlərin hansı birinin mövqeyi ilə razılaşmaq olar? "Sahibkarlıq hüququnun subyekti" və "sahibkarlıq hüquq münasibətlərinin subyekti" anlayışlarının nisbəti müəyyən edilməlidirmi? Fikrinizi əsaslandırın.**

## Test tapşırıqları:

**1. "Sahibkarlıq fəaliyyəti haqqında" Qanuna görə fərdi sahibkar olmaq üçün tələb edilən şərtlər hansılardır?**

a) fəaliyyət qabiliyyətli olmaq və qismən də olsa öz adına sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq;

b) fəaliyyət qabiliyyətli olmaq və sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün lisenziya almaq;

---

[23] Дойников И. В. Хозяйственное (предпринимательское) право: Вопросы и ответы. Учебное пособие. - М.: ЗАО «Книга сервис», 2002. - С. 28.

[24] Белых В. С. Правовое регулирование предпринимательской деятельности в России: монография. - М.: ТК Велби, Изд-во Проспект, 2005. - С. 135.

c) fəaliyyət qabiliyyətli olmaq, qismən də olsa öz adına sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, sahibkar kimi qeydiyyata düşmək və sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün lisenziya almaq;

d) fəaliyyət qabiliyyətli olmaq, qismən də olsa öz adına sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq və sahibkar kimi qeydiyyata düşmək.

**2. Qanunvericiliyə görə kredit təşkilatlarının hansı növləri fərqləndirilir?**

a) Mərkəzi və yerli kredit təşkilatları;

b) bank və bank olmayan kredit təşkilatları;

c) ümumi və xüsusi kredit təşkilatları;

d) banklar və onların filialları.

**3. Hüquqi şəxs yaratmaqla sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin dövlət qeydiyyatını hansı orqan həyata keçirir?**

a) Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti;

b) Azərbaycan Respublikasının Maliyyə Nazirliyi;

c) Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi;

d) Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi.

**4. Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin dövlət qeydiyyatını hansı orqan həyata keçirir?**

a) Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti;

b) Azərbaycan Respublikasının Maliyyə Nazirliyi;

c) Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi;

d) Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi.

**5. Sahibkarlıq subyektləri ölçüsünə görə hansı kateqoriyalara bölünür?**

a) mikro, orta və iri sahibkarlara;

b) iri, orta və kiçik sahibkarlara;

c) kiçik, mikro və iri sahibkarlara;

d) mikro, kiçik, orta və iri sahibkarlara.

## Məsələlər:

**Məsələ 1.** Nikaha daxil olan 17 yaşlı Aydın və Sona Həsənovlar sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa qərar vermişdirlər. Bu məqsəd ilə onlar Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə müraciət edərək fərdi sahibkar kimi qeydiyyata alınmasını xahiş etmişdirlər. Lakin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən müraciət edənlərin 18 yaşı tamam olmaması səbəbi ilə onların fərdi sahibkar kimi qeydiyyata alınmasından imtina edilmişdir.

***Belə bir imtina qanunauyğundurmu?***

***Hansı yaş həddində şəxsin fərdi sahibkar kimi qeydiyyata alınmasına yol verilir?***

**Fikrinizi əsaslandırın.**

**Məsələ 2.** İddiaçı Laçın Əliyev Bakı şəhər 1 saylı kommersiya məhkəməsinə iddia ərizəsi ilə müraciət edərək açıq tipli səhmdar cəmiyyətinin təsis müqaviləsinin etibarsız hesab edilməsini xahiş etmişdir. İddiaçı iddia ərizəsində səbəb olaraq müqavilənin nizamnamə kapitalına qoyuluşların həyata keçirilməsi kimi müqavilənin şərtlərinin təsisçilər tərəfindən yerinə yetirilməməsini göstərmişdir.

***Bu halda məhkəmə hansı qərarı qəbul etməlidir?***

***İddiaçı Laçın Əliyev məhkəməyə müraciət etməkdə haqlıdırmı?***

**Məsələ 3.** Dövlət orqanı tərəfindən hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən sahibkar qadın Nəzakət Nə-

cəfovaya sığorta ödənişinin sabit ödəniş formasında ödənilməsini tələb etmişdir. Lakin, Nəzakət Nəcəfova bildirmişdir ki, həmin dövrdə azyaşlı oğlunu tərbiyə etmiş və fəaliyyət göstərməməsi səbəbi ilə dövlət orqanının bu tələbini yerinə yetirməkdən imtina etmişdir.

***Bu halda məhkəmə hansı qərarı qəbul etməlidir?***

***Dövlət orqanının tələbini imtina etməsi üçün Nəzakət Nəcəfovanın irəli sürdüyü əsas qanunauyğundurmu?***

**Məsələ 4.** "Aysberq" QSC-nin səhmdarı Solmaz Vəliyeva digər səhmdarlara bildirmədən sahib olduğu səhmlərini üçüncü şəxsə satmışdır. Alqı-satqı barədə məlumat alan "Aysberq" QSC-nin digər səhmdarları cəmiyyətin səhmdarı Solmaz Vəliyeva ilə üçünçü şəxs arasında bağlanılmış səhmlərin alqı-satqısına dair müqavilənin etibarsız hesab edilməsinə dair iddia ərizəsi ilə Bakı şəhər 1 saylı kommersiya məhkəməsinə müraciət etmişdirlər.

***Qapalı səhmdar cəmiyyətinin səhmdarı hansı halda ona məxsus olan səhmlərini üçünçü şəxsə sata bilər?***

***Bu halda məhkəmə səhmdarların iddia tələbini təmin etməlidirmi?***

**Məsələ 5.** Təbii sərvətlərdən istifadə fəaliyyəti ilə bağlı olan yenidən yaradılmış xüsusi mülkiyyətdə olan müəssisə dövlət qeydiyyatına alınması barədə ərizə ilə dövlət qeydiyyatını aparan Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin yanında Dövlət Vergi Xidmətinə müraciət etmişdir. Lakin ərizəçinin lisenziyası olmaması əsas gətirilərək AR İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən yenidən yaradılmış xüsusi mülkiyyətdə olan müəssisənin dövlət qeydiyyatına alınmasından imtina edilmişdir.

***AR İqtisadiyyat Nazirliyinin yanında Dövlət Vergi Xidməti tərəfindən yenidən yaradılmış xüsusi mülkiyyətdə olan müəssisənin dövlət qeydiyyatına alınmasından imtinası qanunauyğundurmu?***

***Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün dövlət qeydiyyatından imtinanın əsaslarını göstərin.***

**Məsələ 6.** Vətəndaşlar Əhməd Qafarov və Araz Həsənov Xətai rayonunun ərazisində nəqliyyat vasitələrinin təmiri ilə bağlı xidmətlərin göstərilməsi üzrə fəaliyyətlə birlikdə məşğul olurdular. Xətai rayonunun Polis İdarəsinin 35-ci polis şöbəsinin sahə müvəkkili tərəfindən müəyyən olunmuşdur ki, vətəndaşlar Əhməd Qafarov və Araz Həsənov dövlət qeydiyyatına alınmadan nəqliyyat vasitələrinin təmiri ilə bağlı xidmətlərin göstərilməsi üzrə fəaliyyəti həyata keçirir. Bu səbəbdən sahə müvəkkili tərəfindən vətəndaşlar Əhməd Qafarov və Araz Həsənov saxlanılaraq Xətai rayonunun 35-ci polis şöbəsinə aparılmışdır. Saxlanılan vətəndaşlar Əhməd Qafarov və Araz Həsənov izahatlarında bildiriblər ki, onlar fərdi sahibkar olmadıqlarına görə dövlət qeydiyyatı onlar üçün məcburi deyil və sahə müvəkkili tərəfindən qanunsuz saxlanılıblar.

***Vətəndaşlar Əhməd Qafarovun və Araz Həsənovun nəqliyyat vasitələrinin təmiri ilə bağlı xidmətlərin göstərilməsi üzrə fəaliyyət sahibkarlıq fəaliyyəti hesab olunurmu?***

***Xətai rayonunun Polis İdarəsinin 35-ci polis şöbəsinin sahə müvəkkili tərəfindən vətəndaşlar Əhməd Qafarovun və Araz Həsənovun saxlanılması qanunauyğundurmu?***

**Məsələ 7.** Vətəndaşlar Əkrəm İsmayılov və Samir Cəbiyev tam ortaqlıq yaratmaq qərarına gəliblər. Bunun üçün onlar dövlət qeydiyyatına alınması barədə ərizə ilə dövlət qeydiyyatını aparan Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin yanında Dövlət Vergi Xidmətinə müraciət etmişlər. Lakin AR İqtisadiyyat Nazirliyinin yanında Dövlət Vergi Xidməti tərəfindən vətəndaşlar Əkrəm İsmayılovun və Samir Cəbiyevin yaratmaq istədikləri tam ortaqlığın dövlət qeydiyyatına alınmasından imtina edilməsi barədə qərar qəbul edilmişdir.

Belə olan halda vətəndaşlar Əkrəm İsmayılov və Samir Cəbiyev AR İqtisadiyyat Nazirliyinin yanında Dövlət Vergi Xidməti tərəfindən tam ortaqlığın dövlət qeydiyyatına alınmasından imtinası barədə qəbul edilmiş qərarın etibarsız edilməsinə dair iddia ərizəsi ilə Bakı İnzibati Məhkəməsinə müraciət etmişlər. İddia ərizəsinə etirazda AR İqtisadiyyat Nazirliyinin yanında Dövlət Vergi Xidməti bildirmişdir ki, vətəndaş Əkrəm İsmayılov fərdi sahibkar kimi dövlət qeydiyyatına alınması, vətəndaş Samir Cəbiyevin isə sahibkar statusuna malik olmaması səbəbindən tam ortaqlığın dövlət qeydiyyatına alınmasından imtina edilmişdir.

***AR İqtisadiyyat Nazirliyinin yanında Dövlət Vergi Xidməti tərəfindən vətəndaşlar Əkrəm İsmayılovun və Samir Cəbiyevin yaratmaq istədikləri tam ortaqlığın dövlət qeydiyyatına alınmasından imtina edilməsi barədə qərarı qanunauyğundurmu?***

***Kimlər tam ortaqlığın üzvü ola bilər?***

***Məhkəmə hansı qərarı qəbul etməlidir?***

## Referat mövzular:

1. Əmtəə birjası kommersiya (sahibkarlıq) hüququnun subyekti kimi.
2. Maliyyə-sənaye qruplarının fəaliyyətinin hüquqi tənzimlənməsi.
3. Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinin hüquqi əsasları.

## Özünüyoxlama sualları:

1. Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün hansı əsas təminatlar var?
2. Mülki qanunvericilikdə kommersiya təşkilatlarının hansı növləri təsbit olunub?
3. Hansı hallarda sahibkarlıq fəaliyyətinin subyektlərinin

dövlət qeydiyyatından imtina oluna bilər?

4. Daşınar əşya ilə daşınmaz əşyanı fərqləndirən cəhətləri sadalayın.

5. Hüquqi şəxsin təsis sənədlərinin hansı növləri var?

6. Nizamnamə ilə təsis müqaviləsi arasında fərq nədən ibarətdir?

7. Birjaların dövlət tənzimlənməsi hansı hüquqi mexanizmlərlə təmin edilir?

8. Əmtəə birjası hansı təşkilati-hüquqi formalarda fəaliyyət göstərə bilər?

## Mövzunun mənimsənilməsi üçün tövsiyə olunan ədəbiyyat:

1. "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının 10 dekabr 2004-cü il tarixli 802-IIQ nömrəli Qanunu.

2. "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının 22 oktyabr 2010-cu il tarixli 1101-IIIQ nömrəli Qanunu.

3. "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikasının 4 iyun 1999-cu il tarixli 673-IQ nömrəli Qanunu.

4. "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının 25 dekabr 2009-cu il tarixli 933-IIIQ nömrəli Qanunu.

5. "Banklar haqqında" Azərbaycan Respublikasının 16 yanvar 2004-cü il tarixli 590-IIQ nömrəli Qanunu.

6. "Maliyyə-sənaye qrupları haqqında" Azərbaycan Respublikasının 23 aprel 1996-cı il tarixli 69-IQ nömrəli Qanunu.

7. "Əmtəə birjası haqqında" Azərbaycan Respublikasının 25 may 1994-cü il tarixli 803 nömrəli Qanunu.

8. "Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin "bir pəncərə" prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 25 oktyabr 2007-ci il tarixli 2458 nömrəli Sərəncamı.

9. “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Əsasnaməsi”nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanı.

10. “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnaməsi”nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanı.

11. “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Əsasnaməsi”nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanı.

12. “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin Əsasnaməsi”nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanı.

13. “Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı.

14. “Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 31 iyul tarixli 224 nömrəli Fərmanı.

15. “Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin «bir pəncərə» prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında” Azərbaycan Respublikası Prezidentinin 25 oktyabr 2007-ci il tarixli 2458 nömrəli Sərəncamı.

16. “Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 21 dekabr tarixli 556 nömrəli Qərarı.

17. İmanov K. Kiçik və orta sahibkarlığın inkişafı və əqli mülkiyyət hüquqları. Hüquqi dövlət və qanun jurnalı, № 4, 2000,

səh. 33-36.
18. Qasımov Z. Açıq tipli səhmdar cəmiyyəti. «Qanun» jurnalı, № 12, 2005, səh. 42-43.
19. Абросимова Е.А. Некоммерческие организации в экономике: проблемы правового регулирования // Журнал российского права. 2016. № 1.
20. Анищенко А.В. Крестьянские (фермерские) хозяйства: создание, деятельность, налогообложение // Библиотечка «Российской газеты». 2017. № 3.
21. Белицкая А.В. Специализированное общество как специальный субъект предпринимательской деятельности // Предпринимательское право. 2015. № 3.
22. Вайпан В.А. Правовое регулирование деятельности субъектов малого и среднего предпринимательства: учебно-методический комплекс: учебное пособие в рамках дисциплины «Предпринимательское право Российской Федерации». М.: Юстицинформ, 2017.
23. Вайпан В.А. Основы, проблемы и новые изменения в правовом регулировании деятельности субъектов малого и среднего предпринимательства // Журнал предпринимАтельского и корпоративного права. 2016. № 2.
24. Витрянский В.В. Реформа российского гражданского законодательства: промежуточные итоги. М.: Статут, 2016.
25. Кичик К.В. Принадлежность имущества публично-правовому образованию как критерий отнесения хозяйствующего субъекта к числу заказчиков в сфере государственных (муниципальных) или корпоративных закупок // Законы России: опыт, анализ, практика. 2020. № 2.
26. Кичик К.В. Государственный (муниципальный) заказ России: правовые проблемы формирования, размещения и исполнения: монография / К.В. Кичик. – М.: Юстицинформ, 2012.
27. Мрясова Ю.Р. К вопросу о правовом регулировании профессиональной деятельности // Предпринимательское пра-

во. Приложение «Право и Бизнес». 2014. № 2. С. 40–43.

28. Семенушкина А.М. Правовые аспекты понятия субъектов малого и среднего предпринимательства // Предпринимательское право. 2009. № 4.

29. Суханов Е.А. О гражданской правосубъектности государственных юридических лиц // Журнал российского права. 2018. № 1. С. 5–15.

30. Суханов Е.А. Сравнительное корпоративное право. М.: Статут, 2014.

31. Суханов Е.А. О юридических лицах публичного права // Вестник гражданского права. 2011. № 2. С. 4–24.

32. Шиткина И.С. Особенности развития современного корпоративного законодательства и тенденции правоприменительной практики // Вестник экономического правовсудия. 2018. № 9.

33. Шиткина И.С. Ответственность фактически контролирующих лиц в корпоративном праве // Закон. 2018. № 7.

34. Шиткина И.С. Корпоративное право в таблицах и схемах. 3-е изд., перераб. и доп. М.: Юстицинформ, 2017.

35. Шиткина И.С. Ответственность контролирующих должника лиц при несостоятельности (банкротстве) // Хозяйство и право. 2017. № 8.

## Mövzu 3. Müflisləşmə və iflasın hüquqi tənzimlənməsi

*Mühazirə – 2 saat;*
*Seminar – 2 saat.*

### Müzakirəyə çıxarılan suallar:

1. Müflisləşmə və iflasın anlayışı, əlamətləri və subyektləri.
2. İflas prosesi: anlayışı və həyata keçirilməsi qaydası.
3. Kreditorların iclası, kreditorlar komitəsi, onların səlahiyyətləri.
4. Sağlamlaşdırmanın anlayışı və həyata keçirilməsi qaydası.
5. Borc tələblərinin irəli sürülməsi qaydası və şərtləri.

### Hüquq normalarının şərhinə dair tapşırıqlar:

"Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci, 3-cü, 14-cü, 18-ci, 19-cu, 23-cü, 35-ci, 40-cı maddələrinin şərhini verin.

### Yazılı tapşırıqlar:

1. Müflisləşmə və iflas institutunun hüquqi, sosial, iqtisadi əhəmiyyətini cədvəl şəklində tərtib edin.
2. Müflisləşmə və iflasın subyektlərinin tərkibini sxem şəklində göstərin.
3. Fərdi sahibkarın müflisləşməsinin əlamətlərini sxem şəklində tərtib edin.
4. Sağlamlaşdırma prosesinin şərtlərini sxem şəklində tərtib edin.
5. Əmlak inzibatçısına və müvəqqəti əmlak inzibatçısına qoyulan tələbləri ayrı-ayrılıqda sxem şəklində göstərin.

## Terminoloji tapşırıqlar:

*"Müflisləşmə", "iflas", "rezident", "kreditor", "müdir", "sağlamlaşdırma", "reabilitasiya", "müəssisənin aktivi", "müəssisənin passivi"* terminlərinin etimoloji, hüquqi və fəlsəfi izahlarını dəftərinizdə qeyd edin.

## Elmi problemlər və yanaşmalar:

**1.** Hüquq ədəbiyyatlarında müflisləşmə ilə bağlı alimlərin müxtəlif fikirləri mövcud olduğundan onları üç qrupa ayırmaq olar. **Birinci qrupa daxil olan alimlər** hesab edirlər ki, müflisləşmə elə iflasdır və ya əksinə, iflas-müflisləşmə deməkdir.[25] **İkinci qrup alimlər** isə "müflisləşmə" və "iflas" anlayışlarının fərqləndirilməsi zəruriliyini qeyd edirlər. M.V.Telyukinanın fikrincə, "iflas" anlayışı kreditorlara ziyan vuran borclunun hüquqazidd davranışında tətbiq edilməlidir ki, bu da göstərilən anlayışların dəqiq hüquqi təsnifatına imkan yaradacaqdır".[26] **Üçüncü qrup müəlliflər** isə "müflisləşməni" mülki-hüquqi kateqoriya kimi, "iflası" isə cinayət-hüquqi kateqoriya kimi fərqləndirirlər. Belə ki, E.A. Vasilyev hesab edir ki, «iflas» termini dar mənalı olub, borclu tərəfindən kreditorlara zərər vuran cinayət əməlinin törədilməsini nəzərdə tutur. «Müflisləşmə» termini isə «iflas» termininə nisbətdə daha

---

[25] Тихонова С. С. Инновационный общетеоретический лекционный курс «Юридическая техника»: взгляд отраслевика. Рецензия на курс лекций «Юридическая техника» под редакцией В.М.Баранова и В.А.Толстика. М., 2013; Юридическая наука и практика: Вестник Нижегородской академии МВД России. – 2013. - №23. – С.244-245; Тихонова С. С. Юридическая техника в уголовном праве: Курс лекций. – Н.Новгород: Деком, 2008. – С.117-119; Баренбойм П.Д. Правовые основы банкротства. Учеб. Пособие. М., 1995. Стр. 22.

[26] Телюкина М.Б. Соотношение понятий «несостоятельность и «банкротство» в дореволюционном и современном праве. Юрист. 1997. № 12. стр. 42; Щенникова Л., Банкроство в гражданском праве России: традиции и перспективы // Российская юстиция. 1998. № 10. стр.: 39

geniş mənaya malik olub, borclunun öz borc öhdəliklərinin ödəmə qabiliyyətinin olmamasının müvafiq məhkəmənin qərarı ilə təsdiqini nəzərdə tutur.[27]

***Sizin fikrinizcə, müflisləşmə və iflas anlayışlarının nisbəti məsələsinin müəyyən edilməsinə ehtiyac varmı? Hansı müəlliflərin fikirləri ilə razılaşmaq olar? Fikrinizi əsaslandırın.***

**2.** Sağlamlaşdırma borcluya göstərilən maliyyə yardımıdır. Hal-hazırda hüquq doktrinasında maliyyə yardımı (sağlamlaşdırma) geniş və dar mənalarda nəzərdən keçirilir. Birinci yanaşma nöqteyi-nəzərindən, təsisçilər və ya borclunun əmlakının sahibi (və ya digər şəxslər) tərəfindən qəbul edilən istənilən hər hansı bir əmlak xarakterli tədbirlər maddi yardımın göstərilməsi və ya sağlamlaşdırma adlanır. Belə ki, V.V. Vitryanskiy maliyyə yardımının göstərilməsi və ya sağlamlaşdırma anlayışına borc müqaviləsi, zəmanət və bank zəmanəti üzrə borcluya pul vəsaitlərinin verilməsini, borc ödənişinin təxirə salınmasını və ya hissə-hissə ödənilməsini, borcun köçürülməsini, borcun yeniləşdirilməsini, mənfəətin bölüşdürülməsindən imtinanı, nizamnamə kapitalına əlavə ödənişlərin edilməsini daxil edir. Bu mövqeyi K.S. Kondratyev və Q.A.Pliyev dəstəkləyir.[28]

---

[27] Васильев Е.Н. Правовое регулирование конкурсного производства в капиталистических странах. М., 1989. стр.: 22.; Лоркинанидзе А.Г. Гарантии платежеспособности по законодательству Англии И Франции. // Законодательство зарубежных стран. Выпуск 162// М., 1979. стр.: 32; Степанов В.В. Несостоятельность (банкротство) в России, Англии, Франции, Германии. М., 1999. Стр. 13-14; Зайцева В.В. Правовые проблемы конкурсного производства в процессе банкротства банков: Дис. … канд. юрид. наук. М., 2002. Стр. 5.

[28] Комментарий к Федеральному закону «О несостоятельности (банкротстве)» / под ред. Витрянского В. В. М., 2003 . с. 83-84; Кондратьева К. С. «Гражданско-правовое регулирование предупреждения банкротства юридического лица в России». Монография. Пермь, 2007. с. 92-93; Плиев Г. А. «Гражданско-правовой механизм предупреждения несостоятельности (банкротства) юридического лица». Дисс. …канд. юрид. наук. М., 2005. с. 135-136.

Bu mövqenin əksi olaraq, bir sıra müəlliflər hesab edirlər ki, sağlamlaşdırmanı bilavasitə borcluya verilmiş pul vəsaitlərinin köməyi ilə borclunun öz borclarını ödəmək və iflas haqqında icraatın başlanmasına yol verməməkdir. Belə ki, M.V. Telyukina hesab edir ki, "məhkəməyə qədər sağlamlaşdırma məhkəməyə qədər prosedurların həyata keçirilməsində mühüm tədbirdir".[29] Eyni fikirdə olan S.A.Karelina qeyd edir ki, "məhkəməyə qədər sağlamlaşdırma barədə sazişi borclunun ödəmə qabiliyyətinin bərpa edilməsinə yönələn tədbirlərin həyata keçirilməsi üzrə sazişin xüsusi bir halı kimi nəzərdən keçirilməsi məntiqlidir".[30]

"Müflisləşmə və iflas haqqında" AR Qanununun 1-ci maddəsinə müvafiq olaraq, **sağlamlaşdırma** — borclunun ləğv edilməsinin qarşısını almaq məqsədilə onun mülkiyyətçisi, kreditorlar və digər hüquqi və fiziki şəxslər tərəfindən maliyyə yardımı göstərilməsi yolu ilə borclunun ödəmə qabiliyyətinin bərpası üsuludur. Qanunun 40-cı maddəsinə müvafiq olaraq, sağlamlaşdırma prosesi elə tədbirlərdən ibarətdir ki, onun nəticəsində borclunun bütün öhdəlikləri yerinə yetirilir. Ehtimal olunan hər hansı sağlamlaşdırmanı məhkəmə təsdiq etməlidir.

***Sizin fikrinizcə, iflas prosesi zamanı sağlamlaşdırmaya dair irəli sürülən mövqelərin hansı biri ilə razılaşmaq olar? Fikrinizi əsaslandırın.***

**3.** Qanunverici sağlamlaşdırma prosesinin maksimal müddətini 24 ay müəyyən etmişdir. Analoji mövqedə Rusiya qanunvericiliyi də durur. Lakin hüquq ədəbiyyatında sağlamlaşdırma prosesinin müddəti ilə bağlı məsələ günü gündən aktuallaşır və bu müddətin iki ildən artıq müddətə artırılmasına dair fikirlər daha geniş yer tutur. Belə ki, İ.N. Uman, L.T. Gilyarovskaya və A.A. Vexoreva maliyyə sağlamlaşdırmasının müddətinin iki ildən artıq

[29] Телюкина М. В «Конкурсное право». М., 2006. с. 266-267.

[30] Карелина С. А. «Механизм правового регулирования отношений несостоятельности». М., 2008. с. 212.

müddətə uzadılmasını təklif edərək hesab edirlər ki, əksər hallarda maliyyə sağlamlaşdırması geniş miqyaslı tədbirlər sistemi ilə əlaqədardır, buna görə də iki illik müddət bu prosesin tam şəkildə aparılmasına imkan vermir.[31] Bu mövqeyi dəstəkləyən P.S. Zamalayev isə xarici ölkələrin təcrübəsinə istinad etməklə qeyd edir ki, maliyyə sağlamlaşdırması planının realizəsi müddəti Fransada - ümumilikdə 10 il, bəzi borclular üçün isə 15 il, ABŞ-da, İspaniyada və Belçikada isə maliyyə sağlamlaşdırmasının normativ müddəti 5 ilə qədər (uzadılma halları nəzərə alınmadan) müəyyən edilmişdir".[32]

***Sizin fikrinizcə, iflas prosesi zamanı sağlamlaşdırma müddətinin artırılmasına dair irəli sürülən mövqelərin hansı biri ilə razılaşmaq olar? Fikrinizi əsaslandırın.***

## *Test tapşırıqları:*

**1. Müflisləşməyə verilən anlayışlardan hansı biri düzgündür?**

a) kreditorun öz öhdəliklərini ödəmə qabiliyyətinin olmaması;
b) borclunun öz öhdəliklərini ödəmə qabiliyyətinin olması;
c) borclunun öz öhdəliklərini ödəmə qabiliyyətinin olmaması;
d) qanunda göstərilməyib.

**2. Müflisləşmə və iflasın subyekti olan fərdi borclu kimdir?**

a) öz fəaliyyətini hüquqi şəxs yaratmaqla həyata keçirən və

[31] Умань И.Н. Финансовое оздоровление как реабилитационная процедура, условия, порядок и процессуальные проблемы его применения при банкротстве юридических лиц // Российский судья. 2010. № 5. С. 34–37; Гиляровская Л.Т., Вехорева А.А. Анализ и оценка финансовой устойчивости. СПб., 2003. С. 246; Карелина С.А. Правовое регулирование несостоятельности (банкротства): Учебно-практич. пособие. М., 2006. С. 144.

[32] Замалаев П.С. Совершенствование законодательства о несостоятельности // Арбитражный управляющий. 2011. № 2. С. 31–32.

borcu olan sahibkar- fiziki şəxsdir;

b) öz fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən və borcu olan fiziki şəxsdir;

c) öz fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən və borcu olan sahibkar- fiziki şəxsdir;

d) öz fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən və borcu olan hüquqi şəxsdir.

**3. Sağlamlaşdırma prosesi nədir?**

a) sağlamlaşdırma prosesi elə tədbirlərdən ibarətdir ki, onun nəticəsində borclunun bütün öhdəlikləri yerinə yetirilir;

b) sağlamlaşdırma prosesi elə tədbirlərdən ibarətdir ki, onun nəticəsində borclunun bütün əmlakı satılır;

c) sağlamlaşdırma prosesi elə tədbirlərdən ibarətdir ki, onun nəticəsində kreditorların bütün öhdəlikləri yerinə yetirilir;

d) sağlamlaşdırma prosesi elə tədbirlərdən ibarətdir ki, onun nəticəsində borclu müflis elan olunur.

**4. Əmlak inzibatçısı kimdir?**

a) məhkəmə və kreditorlar tərəfindən borclunun ödəmə qabiliyyətsizliyi halında təyin edilən səciyyələndirilmiş vəzifəli şəxsdir;

b) məhkəmə tərəfindən borclunun ödəmə qabiliyyətsizliyi halında təyin olunan səciyyələndirilmiş vəzifəli şəxsdir;

c) kreditorlar tərəfindən borclunun ödəmə qabiliyyətsizliyi halında təyin olunan səciyyələndirilmiş vəzifəli şəxsdir;

d) müvafiq icra hakimiyyəti orqanı tərəfindən borclunun ödəmə qabiliyyətsizliyi halında təyin edilən səciyyələndirilmiş vəzifəli şəxsdir.

**5. Hansı halda borclu ödəmə qabiliyyəti olmayan sayılır?**

a) əgər ödəmə qabiliyyətinin olmadığını özü təsdiq edirsə;

b) əgər ödəmə qabiliyyətinin olmadığını müvafiq mərkəzi icra hakimiyyəti orqanı təsdiq edirsə;

c) əgər ödəmə qabiliyyətinin olmadığını yerli icra hakimiy-

yəti orqanı təsdiq edirsə;

d) əgər ödəmə qabiliyyətinin olmadığını yerli özünüidarəetmə orqanı təsdiq edirsə.

## Məsələlər:

**Məsələ 1.** Müflisləşmə və iflasa dair işin məhkəmə baxışının hazırlıq zamanı borclu bütün kreditorların tələblərini təmin etmiş və məcburi ödənişlərin ödənilməsi üzrə vəzifəsini yerinə yetirmişdir. Yalnız öz işçilərinə əmək haqqının ödənilməsi üzrə borclu qalmışdır.

***Bu halda işə baxan məhkəmə hansı qərarı qəbul etməlidir?***

***İflas prosesində işçilərə əmək haqqının ödənilməsi hansı qaydada həyata keçirilir?***

**Məsələ 2.** Əvvəllər fərdi sahibkar kimi fəaliyyət göstərmiş vətəndaş Sübhan Adilova Nəsimi rayon məhkəməsində iflas prosesinə dair məhkəmə baxışı zamanı şəxsin həyata keçirdiyi sahibkarlıq fəaliyyəti ilə bağlı olmayan tələblər ayrı-ayrı şəxslər tərəfindən irəli sürülmüşdür.

***İrəli sürülən tələblər məhkəmə qaydasında təmin edilməlidirmi?***

***Müflisləşmə və iflas ilə bağlı işlərə hansı məhkəmədə baxılmalıdır?***

***İflas prosesində kreditorlar tərəfindən tələblər hansı qaydada irəli sürülür?***

**Məsələ 3.** Bakı Kommersiya Məhkəməsinə fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan Həsən Hacıyevin müflis elan olunmasına dair Şamil Cəfərovun ərizəsi daxil olmuşdur. Tələbini əsaslandıran ərizəçi Şamil Cəfərov bildirmişdir ki, Həsən Hacıyev 4 ay müddətində ona çatdırılmış mallara ödəniş etməmişdir.

İşə baxan məhkəmə borcun məbləğinin fərdi sahibkar Həsən Hacıyevin əmlakının ümumi dəyərindən çox olmamasını əsas gətirərək ərizəçinin tələbini təmin etməkdən imtina etmişdir.

***Kommersiya məhkəməsinin qərarı qanunauyğundurmu?***

***Ödəmə qabiliyyətsizliyinin məzmununu açıqlayın.***

**Məsələ 4**. Kreditor Şamil Həsənov "Atilla" MMC-nin əmlak inzibatçısı Qafar Qasımova qarşı iddia ərizəsi ilə Bakı şəhər kommersiya məhkəməsinə müraciət etmişdir. Kreditor Şamil Həsənov ərizəsində göstərmişdir ki, "Atilla" MMC-nin əmlak inzibatçısı Qafar Qasımov "Atilla" MMC-nin iflası prosesində onun borclu müəssisəyə olan tələblərini qəbul etməmişdir. Məhkəmə prosesində çıxış edən "Atilla" MMC-nin əmlak inzibatçısı Qafar Qasımov bildirmişdir ki, kreditor Şamil Həsənovun tələbləri "Atilla" MMC-nin iflası prosesində tələblərin reyestri bağlandıqdan sonra irəli sürülmüşdür və bu səbəbdən də kreditorun tələbləri qəbul edilməmişdir.

***Kreditorun tələbi əsaslıdırmı?***

***Bu halda kreditorların tələbləri hansı qaydada təmin olunmalıdır?***

**Məsələ 5.** Bakı Kommersiya Məhkəməsi öz təşəbbüsü ilə sahibkar Pərviz Verdiyevi müflis elan etmişdir. Pərviz Vərdiyev "ASİYA" MMC-nin rəhbəridir. Lakin, məhkəmə tərəfindən müflis elan olunması məqamında sahibkar Pərviz Vərdiyevin fəaliyyəti dayandırılmışdır.

***Bakı şəhər kommersiya məhkəməsinin qərarı qanunauyğundurmu?***

***Sahibkarın müflis elan olunması üçün qanunvericilikdə hansı əsaslar təsbit olunub?***

**Məsələ 6.** Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan Sənan Hacıyev "Accessbank"dan 30000 AZN məbləğində kredit götürmüşdür. 22 fevral 2019-cu il tarixdə "Accessbank" ilə Sənan Hacıyev arasında bağlanmış kredit müqaviləsinə əsasən Sənan Hacıyev tərəfindən götürülən 30000 AZN məbləğində kredit üç il müddətində tam ödənilməlidir. Vaxtlı-vaxtında ödənilməsi öhdəliyini yerinə yetirməyən Sənan Hacıyev bankdan götürdüyü 30000 AZN məbləğində krediti geri qaytara bilməyib.

***Bu halda Sənan Hacıyev müflis elan edilə bilərmi?***

***Əgər müflis elan edilə bilərsə, hansı orqan tərəfindən müflis elan edilir?***

***Bu halda "Accessbank" nə etməlidir?***

**Məsələ 7.** "Oskar" ASC dörd ay ərzində qeyri-sabit maliyyə vəziyyəti ilə əlaqədar olaraq kreditorlarına olan borclarını ödəyə bilməyib. Kreditorlar isə öz növbəsində "Oskar" ASC-nin müflis elan edilməsinə dair iddia tələbi ilə Bakı Kommersiya Məhkəməsinə müraciət ediblər.

***"Müflisləşmə və iflas haqqında" AR Qanununa əsasən "Oskar" ASC-nin kreditorlarının hərəkətləri qanunauyğundurmu?***
***Bakı Kommersiya Məhkəməsi bu halda "Oskar" ASC-nin kreditorlarının iddia ərizəsini icraata qəbul etməlidirmi?***

## Referat mövzular:

1. Müasir dövrdə müflisləşmə və iflas: anlayışı və əlamətləri.
2. Kommersiya məhkəmələrində müflisləşmə və iflasa dair işlərə baxılmasının prosessual xüsusiyyətləri.
3. İflas prosesində barışıq sazişi: hüquqi təbiəti, bağlanılması və tətbiq edilməsi qaydası.

## Özünüyoxlama sualları:

1. Müflisləşmə və iflasın hansı əlamətlərini sadalaya bilərsiniz?

2. Əmlak inzibatçısının təyin edilməsinin hansı şərtlərini bilirsiniz?

3. Ödənişlərin növbəliyi hansı qaydada həyata keçirilir?

4. Əmlak inzibatçısına olan tələbləri göstərin.

5. Müvəqqəti əmlak inzibatçısına olan tələbləri göstərin.

6. Müvəqqəti əmlak inzibatçısının hansı səlahiyyətləri var?

7. Hansı şərtlər əsasında sağlamlaşdırma tətbiq edilə bilər?

8. Sağlamlaşdırmanın tətbiq edilməsi hansı hüquqi nəticələr yarada bilər.

## Mövzunun mənimsənilməsi üçün tövsiyə olunan ədəbiyyat:

1. "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikasının 13 iyun 1997-ci il tarixli 326-IQ nömrəli Qanunu.

2. "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikasının 23 iyun 1997-ci il tarixli 604 nömrəli Qanunu.

3. Андреев С.Е. Комментарий к Федеральному Закону «О несостоятельности (банкротстве)». М.: Изд. г-на Тихомирова М.Ю.: Юринформцентр, 2003. 336 с.

4. Баренбойм П.Д. Правовые основы банкротства. Учеб. Пособие. М., 1995.

5. Богданов Е.В. Особенности оспаривания сделок юридических лиц арбитражным управляющим в деле о банкротстве и арбитражным управляющим юридическим лицом // Адвокат. 2015. № 10. С. 8–13.

6. Институт несостоятельности (банкротства) в правовой системе России и зарубежных стран: теория и практика правоприменения: монография, коллектив авторов. Отв. ред. Каре-

лина С.А., И.В. Фролов / И. В. Фролов, С. А. Карелина, В. А. Вайпан и др. — Юстицинформ М, 2020.

7. Карелина С.А. Правовое регулирование несостоятельности (банкротства). М.: Зерцало, 2002. 208 с.

8. Карелина С.А. Механизм правового регулирования отношений несостоятельности. М.: Волтерс Клувер, 2008.

9. Карелина С.А. Правовое регулирование несостоятельности (банкротства): учебно-практическое пособие. М.: Волтерс Клуверс, 2006.

10. Карелина С.А., Фролов И.В. Институт банкротства граждан в РФ: достоинства и недостатки правовой модели регулирования // Сборник научных статей III Международной научно-практической конференции «Актуальные проблемы предпринимательского и корпоративного права в России и за рубежом» (25 апреля 2016 года, г. Москва) / под ред. С.Д. Могилевского, М.А. Егоровой. М.: Юстицинформ, 2016.

11. Комментарий к Федеральному закону «О несостоятельности (банкротстве)» / под ред. В.В. Залесского. М.: Юринформцентр: Изд. г-на Тихомирова М. Ю., 2003. 617 с.

12. Кузнецов С.А. Основные проблемы правового института несостоятельности (банкротства): монография. М.: Инфотропик Медиа, 2015. 304 с.

13. Лейба А. Негативные последствия банкротства ТСЖ. // ЭЖ-Юрист. 2014. № 46. С. 10.

14. Новоселов Е.В. Банкротство: путеводитель по принятию решений. М.: Юстицинформ, 2014. 104 с.

15. Попондопуло В.Ф. Конкурсное производство: правовое регулирование несостоятельности (банкротства). М.: Юристъ, 2001. 344 с.

16. Попондопуло В.Ф., Слепченко Е.В. Производство по делам о банкротстве в арбитражном суде. СПб.: Юридический центр Пресс, 2004. 346 с.

17. Рожкова М.А. Мировое соглашение в процедуре банкротства // Вестник ВАС РФ. 2004. № 2. С. 17.

18. Свириденко О.М. Назначение и цели института банкротства в хозяйственном обороте // Право и экономика. 2003. № 3. С. 10–15.

19. Семина А.Н. Банкротство: вопросы правоспособности должника – юридического лица. М.: Экзамен, 2003. 128 с.

20. Споры при банкротстве: сборник документов / сост. О.М. Оглоблина. М.: Изд. г-на Тихомирова М.Ю.: Юринформцентр, 2004. 120 с.

21. Ткачев В.Н. Несостоятельность (банкротство) в РФ: правовое регулирование конкурсных отношений. М.: Книжный мир, 2004. 249 с.

22. Ткачев В.Н. Правовое регулирование несостоятельности (банкротства) стратегических предприятий и организаций // Законодательство. 2005. N 6. С. 14-29.

23. Шишмарева Т.П. Институт несостоятельности в России и Германии. М.: Статут, 2015. 416 с.

24. Шершеневич Г.Ф. Учение о несостоятельности. Казань: Типография Университета, 1890.

## Mövzu 4. Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi

*Mühazirə – 2 saat;*
*Seminar – 2 saat.*

### Müzakirəyə çıxarılan suallar:

1. Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin anlayışı, məqsədi və metodları.
2. Sahibkarlıq fəaliyyəti sahəsində yoxlamaların aparılmasının hüquqi tənzimlənməsi.
3. Vergi yoxlamalarının anlayışı, növləri və aparılması qaydası.
4. Lisenziyalaşdırmanın anlayışı, məqsəd və vəzifələri.
5. Lisenziya və icazələrin verilməsinin, dayandırılmasının və ləğvinin qaydaları və şərtləri.

### Hüquq normalarının şərhinə dair tapşırıqlar:

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 32-ci maddəsinin şərhini verin.

2. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci, 5-ci, 9-cu, 10-cu, 32-ci maddələrinin şərhini verin.

3. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü, 5-ci, 27-ci maddələrinin şərhini verin.

### Yazılı tapşırıqlar:

1. Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin məqsədlərini sxem şəklində tərtib edin.

2. Sahibkarların müxtəlif risk qruplarına aid olunması me-

yarlarını sxem şəklində tərtib edin.

3. Lisenziya və icazənin ləğv edilməsi və dayandırılmasının əsaslarını fərqləndirən cəhətləri cədvəldə göstərin:

| **Sıra №-si** | **Müqayisə meyarları** | **Lisenziya və icazənin dayandırılması** | **Lisenziya və icazənin ləğvi** |
|---|---|---|---|
| **1.** | **Əsasları** | | |
| **2.** | **Qaydası** | | |
| **3.** | **Bərpası əsasları** | | |
| **3.** | **Bərpası qaydası** | | |

## Terminoloji tapşırıqlar:

*"Lisenziya", "icazə", "kameral", "üsul", "vasitə", "yoxlama", "risk"* terminlərinin hüquqi, etimoloji və fəlsəfi izahlarını dəftərinizdə qeyd edin.

## Elmi problemlər və yanaşmalar:

**1.** Hüquq ədəbiyyatlarında sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin metodları ilə hüquqi tənzimlənmənin metodları arasında bərabərlik işarəsinin qoyulması məsələsinə daha çox rast gəlinir. Belə ki, S.N. Şişkinin fikrincə, sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi metodlarına gəldikdə, tamamilə kifayət edir ki, sahibkarlıq (təsərrüfat) hüququnda istifadə olunan metodları göstərək (razılaşdırma metodu, məcburi göstərişlər metodu, tövsiyə metodu).[33] Bu fikrin əleyhdarlarından biri olan V.S. Belıx isə göstərir ki, istənilən halda dövlət tənzimlənməsinin metodları ilə hüquqi tənzimlənmənin metodları anlayışları məzmununa görə üst-üstə düşmür.[34]

---

[33] Предпринимательское (хозяйственное) право. Учебник. Под ред. В.В.Лаптева, С.С. Занковского. М.,2006. Стр. 347.

[34] Предпринимательское право России: учеб. / В. С. Белых, Г. Э. Берсункаев, С. И. Виниченко и др.// отв. ред. В. С. Белых. – М.: Проспект, 2009. Стр. 322.

***Sizin fikrinizcə, sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin metodları ilə hüquqi tənzimlənmənin metodları arasında bərabərlik işarəsinin qoyulması doğru hesab oluna bilərmi? Fikrinizi əsaslandırın.***

**2.** Hüquq elmində lisenziya anlayışı iki əsas mənada istifadə edilmişdir. Birincisi, lisenziya dedikdə, müəyyən bir fəaliyyət növü ilə məşğul olmaq hüququ başa düşülür. İkincisi, lisenziya müəyyən bir fəaliyyət növü ilə məşğul olmaq hüququnu təsdiq edən sənəddir. Birinci mövqeyi dəstəkləyən S.E.Jilinskiy lisenziyanı, lisenziyalaşdırma orqanı tərəfindən lisenziyalaşdırma tələblərinə və şərtlərinə məcburi şəkildə riayət olunmaqla müəyyən bir fəaliyyət növünün həyata keçirilməsini hüquqi şəxsə və ya fərdi sahibkara verilən xüsusi icazə (hüquq) kimi müəyyən edir.[35] Digər mövqedə duran N.Y. Kruqlova lisenziyanı "müəyyən şərtlər daxilində göstərilən fəaliyyət növünün müəyyən bir müddətdə həyata keçirilməsinə icazə verən rəsmi sənəd" kimi nəzərdən keçirir.[36] "Lisenziya və icazələr haqqında" AR Qanununu 1-ci maddəsinə əsasən, lisenziya – müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi üçün ərizəçiyə lisenziya verən orqan tərəfindən verilən rəsmi sənəddir.

***Sizin fikrinizcə, lisenziya sahibkarlıq fəaliyyətinin hər hansı növünün həyata keçirilməsi üçün verilən xüsusi razılıqdır yaxud belə bir fəaliyyətin həyata keçirilməsinə icazə verən rəsmi sənəddir? Fikrinizi əsaslandırın.***

## Test tapşırıqları:

**1. Hansı halda lisenziyanın sahibi ona verilən lisenziyanı başqa şəxsə verə bilər?**

a) heç bir halda;

---

[35] Предпринимательское право (правовая основа предпринимательской деятельности) : учеб. для вузов /С. Э. Жилинский. — 8-е изд., пересмотр, и доп. — М.: Норма, 2007. С. 212.

[36] Круглова Н.Ю. Хозяйственное право. - М., 1997. С. 301.

b) müstəsna halda;
c) müvafiq icra hakimiyyətinin müəyyən etdiyi halda;
d) istənilən halda.

**2. Hansı halda hüquqi və fiziki şəxsə verilən lisenziya öz hüquqi qüvvəsini itirir?**

a) yalnız hüquqi şəxs ləğv olunduqda;
b) lisenziya verən dövlət orqanının mülahizəsinə əsasən;
c) yalnız fiziki şəxs vəfat etdikdə;
d) hüquqi şəxs ləğv olunduqda, fiziki şəxs vəfat etdikdə.

**3. Növbəti səyyar vergi yoxlaması ildə neçə dəfə keçirilə bilər?**

a) ildə bir dəfədən az olmamaqla;
b) ildə bir dəfədən çox olmamaqla;
c) ildə üç dəfədən az olmamaqla;
d) ildə üç dəfədən çox olmamaqla.

**4. Müstəsna hallarda hansı orqanın qərarı ilə növbəti səyyar vergi yoxlamasının keçirilməsi müddəti 90 günə qədər artırıla bilər?**

a) yuxarı vergi orqanının qərarına müvafiq olaraq;
b) məhkəmənin qərarına müvafiq olaraq;
c) prokurorun qərarına müvafiq olaraq;
d) qanunvericilik belə hala yol vermir.

**5. Yoxlayıcı orqan tərəfindən plandankənar (növbədənkənar) yoxlamanın aparılması haqqında qərar sahibkara nə vaxt göndərilir?**

a) ən azı on iş günü qalmış;
b) ən azı beş iş günü qalmış;
c) yoxlamanın başlandığı an təqdim edilir;
d) ən azı on təqvim günü qalmış.

## Məsələlər:

**Məsələ 1**. Ərşad Kərimov həyata keçirdiyi sahibkarlıq fəaliyyətini dayandırmaq qərarına gəlmişdir. Bunun üçün o, 3 ay əvvəl vergi orqanına müvafiq ərizə ilə müraciət etmişdir. Baxmayaraq ki, Ərşad Kərimov tərəfindən ərizənin verildiyi gündən 6 ay müddət ötmüşdür, lakin vergi orqanı tərəfindən onun həyata keçirdiyi sahibkarlıq fəaliyyətinin dayandırılması barədə hər hansı bir qərar qəbul edilməmişdir.

***Vergi orqanı tərəfindən Ərşad Kərimovun ərizəsinə olan münasibəti qanunauyğun hesab etmək olarmı?***

***Ərizəni verdiyi gündən etibarən Ərşad Kərimov sahibkarlıq fəaliyyətini həyata keçirməkdə haqlıdırmı?***

**Məsələ 2.** "Dilşad" firması mebellərin təmiri ilə məşğul olmaq üçün lisenziya almışdır. Lakin, mebellərin təmiri ilə məşğul olması üçün kifayət qədər yerin olmaması səbəbindən firmanın rəhbəri Salman Əliyev yaşadığı binanın zirzəmisindən istifadə etmək qərarına gəlmişdir. "Dilşad" firması 6 aydır ki, çoxmənzilli yaşayış binasının zirzəmisində mebellərin təmiri xidmətlərini göstərir. Çox mənzilli yaşayış binasının əksər sakinləri Nərimanov rayon icra hakimiyyətinə müraciət edərək firmanın fəaliyyətinin dayandırılmasını xahiş etmişdirlər.

***Belə bir müraciət qanunauyğundurmu?***

***Nərimanov rayon icra hakimiyyəti bu halda hansı qərarı qəbul etməlidir?***

***Lisenziyanın verilməsi zamanı lisenziyada hansı məlumatlar göstərilməlidir?***

**Məsələ 3.** "Odissey" MMC-nin həyata keçirdiyi fəaliyyətin əsas məqsədi elektrik naqillərinin istehsalı və satışından ibarətdir. "Odissey" MMC-nin rəhbəri Sahib Ağayev məhdud məsuliyyətli

cəmiyyəti vergi orqanlarında qeydiyyatdan keçirərkən məlumatlarda onun fəaliyyət yerini Bakı şəhəri Nizami rayonunu göstərmişdir. Lakin "Odissey" MMC fəaliyyətini Şamaxı rayonunda həyata keçirir.

***Bu halda cəmiyyət tərəfindən qanun pozuntusuna yol verilmişdirmi?***

***Sahibkarlıq fəaliyyəti subyektlərinin dövlət qeydiyyatına alınmasının xüsusiyyətlərini göstərin.***

**Məsələ 4**. Bakı şəhərində yerləşən "Azimut" restoranının rəhbəri Qurban Həsənov AR Qida Təhlükəsizliyi Dövlət Agentliyinin əməkdaşlarının qanunsuz hərəkətləri ilə bağlı Bakı İnzibati Məhkəməsinə müraciət etmişdir. Qurban Həsənov ərizəsində göstərmişdir ki, AR Qida Təhlükəsizliyi Dövlət Agentliyinin əməkdaşları tərəfindən heç bir hüquqi əsas olmadan 20 noyabr 2019-cu il tarixdə ona məxsus olan "Azimut" restoranında təkrar yoxlamalar aparılmışdır. Halbuki, həmin ilin fevral ayının 25-də Agentliyin əməkdaşları tərəfindən plan üzrə yoxlama keçirilmişdir və hər hansı bir hüquq pozuntusu aşkar edilməmişdir. Eyni zamanda Qurban Həsənov ərizəsində göstərmişdir ki, Agentliyin əməkdaşları tərəfindən onun iştirakı olmadan sonuncu yoxlama aparılmışdır.

Qurban Həsənovun iddiasına cavab olaraq, Agentlik bildirmişdir ki, 20 noyabr 2019-cu il tarixdə aparılan yoxlamanın əsası kimi vətəndaş Səbinə Allahverdiyevanın "Azimut" restoranında keyfiyyətsiz qida məhsullarının təqdim olunmasına dair Agentliyə daxil olan şikayət ərizəsi olub.

***Vətəndaş Qurban Həsənovun iddiasını haqlı hesab etmək olarmı?***

***Vətəndaş Səbinə Allahverdiyeva "Azimut" restoranında keyfiyyətsiz qida məhsullarının təqdim olunmasına dair şikayət ərizəsini hansı orqana təqdim etməlidir?***

***Yoxlamaların aparılması əsaslarını göstərin.***

**Məsələ 5.** Kommersiya təşkilatı nəşriyyat fəaliyyətinin həyata keçirilməsi üçün lisenziya almışdır. Sonradan kommersiya təşkilatı, onun iştirakçılarının qərarına əsasən bölmə şəklində yenidən təşkil edilmişdir. Nəticədə iki yeni kommersiya təşkilatları yaranmışdır. Bu təşkilatlar əvvəllər verilmiş lisenziyanın etibarlı olduğunu düşünərək ləğv olunan kommersiya təşkilatının həyata keçirdiyi nəşriyyat fəaliyyətini davam etdirmişlər.

***Yeni yaradılmış hüquqi şəxslərin fəaliyyət göstərilməsi qanunauyğundurmu?***

***Lisenziya və icazələrin ləğv edilməsi əsaslarını göstərin.***

**Məsələ 6.** AR İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən "Səhər" MMC-də səyyar vergi yoxlamasının aparılması zamanı müəyyən edilmişdir ki, cəmiyyət tərəfindən gəlirlərin, xərclərin və vergitutma obyektlərinin uçotu qaydaları kobud şəkildə pozulmuşdur. Bunun nəticəsində ödənilməli olan bir sıra vergilər üzrə vergitutma bazası lazımi səviyyədə qiymətləndirilməmiş və onların üzərinə borc yaranmış, o cümlədən MMC-nin təsis sənədlərində nəzərdə tutulmayan fəaliyyətlə məşğul olması da müəyyən edilmişdir. Vergi Xidməti vergi ödəyicisindən vergi borclarının və cərimələrin mübahisəsiz qaydada tutulması haqqında qərar çıxarmışdır.

***Azərbaycan Respublikasının vergi qanunvericiliyinə əsasən, AR İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin qəbul etdiyi qərar qanunauyğundurmu?***

***Əgər qanunauyğun deyildirsə, bu halda "Səhər" MMC-nin rəhbərliyi hansı hərəkətləri yerinə yetirə bilər?***

**Məsələ 7.** Bakı şəhərində 2012-ci ildə yaradılmış "Xalı" MMC xalça istehsalı üzrə fəaliyyəti həyata keçirir. AR İqtisadiyyat Nazirliyinin Vergi Xidməti apardığı növbəti səyyar yoxlaması zamanı müəyyən etmişdir ki, "Xalı" MMC nəinki xalça istehsalı üzrə fəaliyyəti həyata keçirir, hətta "BİNƏ" Ticarət Mərkəzində yerlə-

şən və MMC-yə məxsus olan ticarət köşkündə istehsal etdiyi xalçaların satışını həyata keçirir.

Bu halda AR İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin qəbul etdiyi qərara əsasən "Xalı" MMC xalça istehsalı üzrə fəaliyyəti həyata keçirməklə yanaşı onların satışına görə lisenziya almalıdır.

***AR İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin qəbul etdiyi qərar qanunauyğundurmu?***

***Sizin fikrinizcə, "Xalı" MMC xalça istehsalı və satışı üçün ayrı-ayrılıqda lisenziya almalıdırmı?***

## Referat mövzuları:

1. Müasir dövrdə sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi: forma və metodları.
2. Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsində lisenziyalaşdırmanın əhəmiyyəti və yeri.
3. Vergi yoxlaması: anlayışı və növləri.

## Özünüyoxlama sualları:

1. Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin obyektiv zərurəti hansı səbəbdən yaranır?
2. Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin vəzifələrini sadalayın.
3. Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin anlayışını verin.
4. Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin hansı metodlarını bilirsiniz?
5. Sahibkarlıq fəaliyyəti sahəsində dövlət nəzarəti və təftişi dedikdə nə başa düşülür?
6. Lisenziya nədir?
7. Lisenziya hansı qaydada və şərtlərlə verilir?

## Mövzunun mənimsənilməsi üçün tövsiyə olunan ədəbiyyat:

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı, 2021. IV fəsil.

2. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının 2 iyul 2013-cü il tarixli 714-IVQ nömrəli Qanunu.

3. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının 20 oktyabr 2015-ci il tarixli 1410-IVQ nömrəli Qanunu.

4. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının 15 mart 2016-cı il tarixli 176-VQ nömrəli Qanunu.

5. "Lisenziyaların və icazələrin vahid reyestrinin aparılması Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 16 sentyabr tarixli 347 nömrəli Qərarı.

6.İnzibati hüquq. Dərs vəsaiti. Xüsusi hissə. //M.B.Əhmədovun elmi redaktorluğu ilə. Bakı, Azərbaycan Respublikası DİN-in Polis Akademiyası. "MBM" nəşriyyatı, 2011.

7. Багандов А.Б. Лицензированное право РФ: теория, практика, законодательство: учебник / под ред. Ю.А. Дмитриева. М.: Эксмо, 2004. 640 с.

8. Бондаренко Н.Л. Государственная поддержка малого предпринимательства в Республике Беларусь: использование позитивного опыта США // Материалы международной научно-практической конференции «Проблемы борьбы с пресступностью и подготовки кадров для правоохранительных органов». – Минск, Академия МВД Республики Беларусь, 3 апреля. 2014. – С. 282–283.

9. Бондаренко Н.Л. Эффективное законодательство как фактор, снижающий трансакционные издержки // Вестник Пермского Университета. Юридические науки. – 2016. – Вы-

пуск 1 (31). – С. 35–40.

10. Государственное регулирование экономики /Под ред. А.Н. Петрова. Ч. 1, 2. СПб., 1999.

11. Губин Е.П. Государственное регулирование рыночной экономики и предпринимательства: правовые проблемы. М.: Норма: ИНФРА-М, 2017.

12. Губин Е.П. Правовая политика в сфере рыночной экономики: теория и практика // Вестник Московского университета. Серия 11: Право. 2012. № 6.

13. Кичик К.В. Сравнительный анализ нормативного регулирования отношений в сфере публичных закупок в России, странах Восточной Азии (КНР, Республика Корея, Монголия, Япония) и некоторых других странах Азиатского региона (Вьетнам, Малайзия) // Публичные закупки: проблемы правоприменения. Материалы VI Международной конференции (8 июня 2018 г., МГУ имени М.В. Ломоносова). - М.: "Юстицинформ", 2018. С. 78-91.

14. Кичик К.В. Государственный (муниципальный) заказ как средство государственного регулирования экономики: правовые вопросы: дис. … канд. юрид. наук. М., 2011.

15. Кичик К.В. «Максимальная» и «минимальная» цена государственного (муниципального) контракта // Право и экономика. 2010. № 7.

16. Макаров О. В. Правовой режим государственного регулирования экономики и предпринимательской деятельности: содержание, проблемы, формы /О.В. Макаров // Рос. Юстиция. – 2011. – № 8. – С. 50–54.

17. Мельничук Г. Лицензирование как форма государственного регулирования // Российская юстиция. 2003. № 5. С. 23.

18. Парций Я. О лицензировании отдельных видов деятельности // Хозяйство и право. 2002. № 1. С. 31–40.

19. Посулихина Н.С. Административные процедуры как объект лицензирования медицинской деятельности // Административное право и процесс. 2015. № 9. С. 81–85.

20. Право и экономическое развитие: проблемы государственного регулирования экономики: монография, коллектив авторов / МГУ им. М.В. Ломоносова, Московское отделение Ассоциации юристов России // отв. ред. В.А. Вайпан, М.А. Егорова. М.: Юстицинформ, 2017.

21. Публичные закупки в зарубежных странах: динамика правового регулирования: монография / отв. ред. О.А. Беляева, В.А. Вайпан, К.В. Кичик. М.: Юстицинформ, 2017.

22. Тихомиров Ю.А. Публично-правовое регулирование: динамика сфер и методов // Журнал российского права. 2001. № 5.

23. Тихомиров Ю.А. Юридические режимы государственного регулирования экономики // Право и экономика. 2000. № 5.

24. Спектор А. А. Предпринимательская деятельность как объект государственного контроля (надзора) / А. А. Спектор // Государств. Власть и мест. самоупр. – 2013. – № 8. – С. 44–46.

25. Спектор А. А. Особенности государственного контроля (надзора) при регулировании отдельных видов деятельности / А. А. Спектор // Предпринимат. право. Прил. «Бизнес и право в России и за рубежом». – 2013. – № 4. – С. 31–34.

26. Шишкин С.Н. Государственная поддержка предпринимательской деятельности как специфическая форма государственного регулирования экономики / С. Н. Шишкин // Предпринимат. право. – 2011. – № 4. – С. 29–32.

27. Шишкин С.Н. Предпринимательско-правовые (хозяйственно-правовые) основы государственного регулирования экономики: монография. М.: Инфотропик Медиа, 2011. 328 с.

28. Шепенко Р. Импорт алкогольной продукции: лицензирование и квотирование // Закон. 1997. № 10. С. 69.

29. Якушева С. Соотношение лицензирования и специальной правоспособности // Российская юстиция. 2003. № 11. С. 16–17.

## Mövzu 5. Dövlət əmlakının özəlləşdirilməsinin hüquqi tənzimlənməsi

*Mühazirə –2 saat;*
***Seminar – 2 saat.***

### Müzakirəyə çıxarılan suallar:

1. Dövlət əmlakının özəlləşdirilməsinin anlayışı və prinsipləri.
2. Dövlət əmlakının özəlləşdirilməsinin subyektləri.
3. Dövlət əmlakının özəlləşdirilməsinin obyektləri.
4. Dövlət əmlakının özəlləşdirilməsinin üsulları.
5. Dövlət əmlakının özəlləşdirilməsinin rəsmiləşdirilməsi.

### Hüquq normalarının şərhinə dair tapşırıqlar:

"Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü, 7-ci, 13-cü, 25-ci, 30-cu maddələrinin şərhini verin.

### Yazılı tapşırıqlar:

1. Dövlət əmlakının özəlləşdirilməsinin prinsiplərini sxem şəklində tərtib edin və onların məzmununu açıqlayın.
2. Özəlləşdirilməsi baxımından dövlət əmlakının təsnifatını sxem şəklində tərtib edin.
3. Dövlət əmlakının hərraclar vasitəsilə satışı üsulunun həyata keçirilməsini sxem şəklində tərtib edin.
4. Dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramının məqsədlərini sxem şəklində tərtib edin.

## Terminoloji tapşırıqlar:

*“Özəlləşdirmə”, “hərrac”, “milliləşdirmə”, “müsabiqə”, “opsion”, “diversifikasiya*” terminlərinin etimoloji, hüquqi və fəlsəfi izahlarını dəftərinizdə qeyd edin.

## Elmi problemlər və yanaşmalar:

**1.** Hüquq elmində "özəlləşdirmə" termini, anlayışı və onun məzmunu barədə vahid mövqe bu günədək formalaşmayıb. Belə ki, hüquq elmində özəlləşdirmənin müəyyən bir fəaliyyət olması barədə fikirləri də geniş yer tutur. V.P. Kamışanskiy qeyd edir ki, “özəlləşdirmə, qanunla başqa hal nəzərdə tutulmayıbsa dövlət və bələdiyyə mülkiyyətinin vətəndaşların və hüquqi şəxslərin mülkiyyətinə verilməsi üzrə əvəzli, təşkilati, və məqsədyönlü fəaliyyətdir ...”.[37] Lakin, “özəlləşdirmə” anlayışının dəqiq müəyyən edilməsini zəruri hesab edən S.V.Novikova “dövlət və bələdiyyə əmlakının özəlləşdirilməsini - dövlət və bələdiyyə mülkiyyətində olan əmlakın əvəzli olaraq fiziki və (və ya) hüquqi şəxslərin mülkiyyətinə özgəninkiləşdirilməsi ilə bağlı tədbirlər məcmusu kimi, yəni mülkiyyət hüququnun yaranması və xitam verilməsinin xüsusi bir əsası kimi müəyyən edir”. Analoji mövqeyi A.V. Paşenko tutur.[38] İ.S.Komaritskiy isə özəlləşdirməni mülkiyyət hüquqlarının hüquqi tənzimlənməsi sahəsinə aid olan hüquq institutu kimi nəzərdən keçirir və müəyyən əmlaka dövlət mülkiyyət hüququnun xitamı və həmin əmlaka xüsusi mülkiyyət hüququnun yaranması kimi başa düşür”.[39] V.S. Belıx isə dövlət və bələdiyyə mülkiyyətinin özəlləşdirilməsini ida-

---

[37] Камышанский, В. П. Приватизация предприятий. Право собственности. М.: А-Приор, 2009. с. 120.

[38] Новикова, С. В. Понятие и способы приватизации государственного и муниципального имущества // Научный журнал КубГАУ. 2014 № 100 (06) с. 8.; Пащенко, А. В. Цели правового регулирования приватизации // Реформы и право 2012. № 2. с. 15–16.

[39] Комарицкий, С. И. Приватизация: правовые проблемы: курс лекций. М.: Статут, 2000. с. 7.

rəetmə fəaliyyətinin xüsusi növü, həmçinin özəlləşdirmə subyektlərinin dövlət və bələdiyyə mülkiyyətinin obyektlərinin xüsusi mülkiyyətə verilməsi üzrə qarşılıqlı əlaqəli və məqsədyönlü tədbirlərinin məcmusu kimi nəzərdən keçirir.[40]

***Sizin fikrinizcə, bu halda göstərilən müəlliflərin hansı birinin fikirləri ilə razılaşmaq olar? Dövlət əmlakının özəlləşdirilməsi ilə bələdiyyə əmlakının özəlləşdirilməsinin nisbəti nədən ibarətdir? Fikrinizi əsaslandırın.***

**2.** "Özəlləşdirmə" ilə "dövlətsizləşdirmə" anlayışlarının nisbəti məsələsinə dair hüquq ədəbiyyatında bir neçə mövqe formalaşmışdır. Belə ki, **birinci mövqedə** duran müəlliflər hesab edirlər ki, "özəlləşdirmə" və "dövlətsizləşdirmə" eyni mənalı anlayışlardır, eyni təzahürün adlandırılması üçün müxtəlif terminlərdən istifadə olunur – dövlət mülkiyyətinin xüsusi mülkiyyətə keçməsidir.[41]

**İkinci mövqedə** duran müəlliflər hesab edirlər ki, "dövlətsizləşdirmə" - dövlət mülkiyyətindən imtina prosesidir və məzmununa görə "dövlətsizləşdirmə" "özəlləşdirmə"yə nisbətdə geniş anlayışdır və özündə dövlət sektorunun genişlənməsini yavaşlatmaq və iqtisadiyyatda özəl başlanğıcların inkişafına yönələn tədbirləri də özündə ehtiva edir.[42]

**Üçüncü mövqeyə** görə isə özəlləşdirmə daha geniş bir prosesin yəni, hüquqi, siyasi, təşkilati və sosial məqsədləri özündə ehtiva edən dövlətsizləşdirmənin bir hissəsidir. Dövlətsizləşdirmə bəzi hallarda özəlləşdirmə yolu ilə mülkiyyət formalarının diversifi-

---

[40] Белых, В. С. Приватизация государственных и муниципальных предприятий в Российской Федерации: экономико-правовые вопросы // Государство и право. 1996. № 10. с. 69.

[41] Миронов И. Приватизация в СССР: поиск оптимального варианта // Вопросы экономики. 1991. № 4. С. 70.

[42] Арупов А.А. Приватизация государственной собственности: сравнительный анализ мирового опыта и Республики Казахстан. Дисс. на соиск. доктора экономических наук. СПб., 2000. С. 48.

kasiyası ilə müşayiət olunan dövlət müəssisələrinin və digər təsərrüfat strukturlarının dövlət idarəetmə orqanlarının inzibati təsirindən çıxarılmasını normativ şəkildə tənzimləyən bir prosesdir.[43]

***Sizin fikirinizcə, "özəlləşdirmə" və "dövlətsizləşdirmə" terminlərinin və anlayışlarının eyni mənalı hesab edilməlidirmi və ya onların arasında nisbət müəyyən olunmalıdırmı? Fikrinizi əsaslandırın.***

## Test tapşırıqları:

**1. Dövlət əmlakının özəlləşdirilməsi dedikdə nə başa düşülür?**

a) dövlət əmlakının "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Qanunda müəyyən edilmiş qaydalara uyğun alıcıların mülkiyyətinə əvəzsiz olaraq verilməsidir;

b) dövlət əmlakının "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Qanunda müəyyən edilmiş qaydalara uyğun alıcıların və üçüncü şəxslərin mülkiyyətinə verilməsidir;

c) dövlət əmlakının "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Qanunda müəyyən edilmiş qaydalara uyğun alıcıların mülkiyyətinə verilməsidir;

d) dövlət əmlakının "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Qanunda müəyyən edilmiş qaydalara uyğun üçüncü şəxslərin mülkiyyətinə əvəzsiz olaraq verilməsidir.

**2. Özəlləşdirmə əqdi nədir?**

a) dövlət əmlakının satıcısı ilə alıcısı arasında bağlanılan dəyişdirmə müqaviləsidir;

b) dövlət əmlakının satıcısı ilə üçüncü şəxslər arasında bağ-

---

[43] Малая приватизация в Российской Федерации. Нижегородская модель. Пособие для должностных лиц муниципального уровня. Подготовлено Международной финансовой корпорацией. Washington, 1992. С. 25; Коршунов Н.М. Процесс приватизации в России. Методология правового регулирования. Н. Новгород: НЮИ МВД России, 1998. С. 56.

lanılan alqı-satqı müqaviləsidir;

c) dövlət əmlakının satıcısı ilə fiziki şəxslər arasında bağlanılan alqı-satqı müqaviləsidir;

d) dövlət əmlakının satıcısı ilə alıcısı arasında bağlanılan alqı-satqı müqaviləsidir.

**3. Aşağıda göstərilən prinsiplərdən hansı biri dövlət əmlakının özəlləşdirilməsinin əsas prinsiplərinə aiddir?**

a) özəlləşdirməyə dair tədbirlərin qapalı şəraitdə həyata keçirilməsi və onun gedişi üzərində dövlət və ictimai nəzarətin təmin edilməsi;

b) özəlləşdirməyə dair tədbirlərin qapalı və aşkarlıq şəraitində həyata keçirilməsi və onun gedişi üzərində dövlət və ictimai nəzarətin təmin edilməsi;

c) özəlləşdirməyə dair tədbirlərin aşkarlıq şəraitində həyata keçirilməsi və onun gedişi üzərində dövlət və ictimai nəzarətin təmin edilməsi;

d) özəlləşdirməyə dair tədbirlərin aşkarlıq şəraitində həyata keçirilməsi və onun gedişi üzərində dövlət nəzarətinin təmin edilməsi.

**4. Dövlət əmlakının özəlləşdirilməsinin subyektləri kimlərdir?**

a) Azərbaycan Respublikasının vətəndaşları və hüquqi şəxsləri;

b) Dövlət əmlakının alıcısı və satıcısı;

c) Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər;

d) Azərbaycan Respublikasının vətəndaşları, hüquqi şəxsləri, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər.

**5. Dövlət əmlakının özəlləşdirilməsi zamanı dövlət əmlakının satışı üzrə keçirilən ilk iki hərracda əmlak satılmadıqda üçüncü hərracda həmin əmlakın start qiyməti ilkin start qiymətinin neçə faizi həcmində aşağı salınır?**

a) 20%-i həcmində;

b) 30%-i həcmində;
c) 50%-i həcmində;
d) 10%-i həcmində.

## Məsələlər:

**Məsələ 1**. 2 aprel 2018-ci il tarixində "ASİMAN" ASC Bakı şəhəri Nizami rayon Mənzil-Kommunal Təsərrüfat Birliyi ilə dövlət mülkiyyətində olan qeyri-yaşayış sahəsinin alqı-satqısı müqaviləsini bağlamışdır. 25 may 2018-ci il tarixində isə Nizami rayon Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinə ərizə ilə müraciət edərək qeyri-yaşayış sahəsinə xüsusi mülkiyyət hüququnun təsdiq edilməsini xahiş etmişdir. Lakin Nizami rayon Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti dövlət mülkiyyətində olan və Nizami rayon MKTB-nin balansında olan qeyri-yaşayış sahəsinin alqı-satqısının "Dövlət əmlakının özəlləşdirilməsi" haqqında Azərbaycan Respublikasının Qanununda təsbit olunmuş qaydada yalnız hərrac və müsabiqə yolu ilə özəlləşdirilməsinin mümkün olması səbəbindən qeyri-yaşayış sahəsinə "ASİMAN" ASC-in mülkiyyət hüququnun qeydiyyata alınmasına dair xahişindən imtina etmişdir.

***Nizami rayon Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən imtina əsaslıdırmı?***

***Qeyri-yaşayış sahəsinin hansı qaydada özəlləşdirilməsinə yol verilir?***

**Məsələ 2.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin nəzdində fəaliyyət göstərən və 2500 nəfər işçisi olan "DİGECTA" Qapalı Səhmdar Cəmiyyətinin əmək kollektivinin yığıncağında dövlət müəssisəsinin hərrac və ya müsabiqə yolu ilə özəlləşdirilməsi qərara alınmışdır. Bu məlumatlar müəssisə rəhbərliyinin diqqətinə çatdırılmışdır və müəssisə rəhbərliyi Nazirliyə müəssisənin özəlləşdirilməsi ilə bağlı məktubla müraciət etmişdir. 14 gün keçdikdən sonra Azərbaycan Respublikasının Rə-

qəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən belə bir özəlləşdirmənin aparılmasının məqsədəmüvafiq olmaması barədə məlumat daxil olmuşdur.

***Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən verilən cavab qanunauyğundurmu?***

***Dövlət mülkiyyətində olan müəssisənin özəlləşdirilməsinə dair qərarı hansı orqan qəbul etməlidir?***

**Məsələ 3**. Dövlət əmlakının özəlləşdirilməsi sahəsində səlahiyyətli olan dövlət orqanının qərarı əsasında dövlət müəssisəsinin açıq səhmdar cəmiyyətinə çevrilməsi yolu ilə özəlləşdirmə komissiyası yaradılmışdır.

Dövlət əmlakının özəlləşdirilməsi komissiyasının qərarına əsasən açıq səhmdar cəmiyyətinin səhmlərinin 30 faizi əmək kollektivinə əvəzli olaraq verilmiş, səhmlərin 30 faizi açıq hərraca çıxarılmış, səhmlərinin 40 faizi isə dövlət mülkiyyətində saxlanılmışdır.

***Dövlət əmlakının özəlləşdirilməsi komissiyasının qərarı qanunauyğundurmu?***

***Dövlət müəssisəsinin açıq səhmdar cəmiyyətinə çevrilməsi yolu ilə satışı qaydasını göstərin.***

**Məsələ 4.** Dövlət orqanı tərəfindən dövlət mülkiyyətində olan və Binəqədi rayon Digah kəndinin əhalisini elektrik enerjisi ilə təchiz olunması üçün istifadə olunan kommunal-məişət təyinatlı müəssisənin özəlləşdirilməsi barədə qərar qəbul edilmişdir.

Müsabiqənin şərtlərinə əsasən alıcı əmlakı birbaşa olaraq təyinatına uyğun olaraq istifadə etməlidir. Müsabiqənin nəticələrinə əsasən kommunal-məişət təyinatlı müəssisə Binəqədi rayon Digah kəndinin sakini vətəndaş Əmrahov Səbuhi Kazım oğlu tərəfindən özəlləşdirilmişdir.

Lakin, alıcı Səbuhi Əmrahov müsabiqənin şərtlərinə əməl et-

məyərək kommunal-məişət təyinatlı müəssisəni özəlləşdirdikdən sonra modernləşdirmə işləri apararaq bilavasitə şəxsi istehsal məqsədləri üçün istifadə etmişdir.

***Bu halda alıcı Səbuhi Əmrahov haqlıdırmı?***

***Dövlət əmlakının özəlləşdirilməsi sahəsində səlahiyyətli dövlət orqanı hansı qərarı qəbul etməlidir?***

***Müsabiqə yolu ilə dövlət əmlakının özəlləşdirilməsinin qaydasını göstərin.***

## Referat mövzuları:

1. Dövlət əmlakının özəlləşdirilməsinin subyektləri və onların hüquq və vəzifələri.
2. Dövlət əmlakının özəlləşdirilməsinə dair əqdlər: anlayışı və rəsmiləşdirilməsi qaydası.
3. Dövlət əmlakının özəlləşdirilməsinin obyektləri: anlayışı və təsnifatı.

## Özünüyoxlama sualları:

1. Dövlət əmlakının özəlləşdirilməsinə anlayış verin.
2. Dövlət əmlakının özəlləşdirilməsinin məcburi şərtlərini sadalayın.
3. Özəlləşdirilən əmlakın satıcısı qismində kim çıxış edir?
4. Dövlət əmlakının özəlləşdirilməsini tənzim edən normativ-hüquqi aktları sadalayın.
5. Dövlət əmlakının özəlləşdirilməsinin əsas prinsiplərini göstərin.
6. Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsi haqqında II Dövlət Proqramının əsas məqsədini və vəzifələrini sadalayın.
7. Dövlət əmlakının özəlləşdirilməsində alıcılar qismində kimlər çıxış edir?

## Mövzunun mənimsənilməsi üçün tövsiyə olunan ədəbiyyat:


1. “Dövlət əmlakının özəlləşdirilməsi haqqında” Azərbaycan Respublikasının 16 may 2000-ci il tarixli 878-IQ nömrəli Qanunu.

2. “Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 10 avqust 2000-ci il tarixli 383 nömrəli Fərmanı.

3. “Dövlət əmlakının hərraclar vasitəsilə satışı Qaydaları”nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 2000-ci il tarixli 432 nömrəli Fərmanı.

4. “Dövlət əmlakının ixtisaslaşdırılmış çek və pul hərraclarında satışı Qaydaları”nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 2000-ci il tarixli 432 nömrəli Fərmanı.

5. “Dövlət əmlakının özəlləşdirilməsində iştirak etmək üçün təqdim edilməli sənədlərin siyahısı və qaydaları haqqında” Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2 fevral 2001-ci il tarixli 32 №-li Qərarı.

6. Бондаренко Н.Л. Приватизация как инструмент охраны окружающей среды // Влияние межгосударственных интеграционных процессов на развитие аграрного, экологического, природоресурсного и энергетического права: тез. докл. Междунар. науч.-практ. конф., Минск, 26–27 апр. 2018 г. / Белорус. гос. ун-т; редкол.: Т. И. Макарова (отв. ред.) [и др.]. – Минск: БГУ, 2018. – 307 с. – С. 90–92.

7. Довлатова Е.В. Формирование имущественной основы предпринимательской деятельности предприятий ЖКХ в процессе приватизации имущественного комплекса предприятий // Правовые вопросы строительства. 2006. № 1.

8. Зельдер А. Г., Ширяева Р. И. Приватизация в России: новый этап, неучтенный опыт и возможная альтернатива // Экономические науки. 2020. № 1(86). С. 8.

9. Кирсанов А.Р. Приватизация государственного и муниципального имущества на основании судебных актов // Имущественные отношения в Российской Федерации. 2015. N 4. С. 56 - 61.

10. Козырин Н. А. Приватизация в России: правовое измерение/А. Н. Козырин//Реформы и право. -2019. -№ 2.

11. Козырин А.Н. Процедуры планирования приватизации по законодательству Российской Федерации // Реформы и право. 2015. № 4. С. 3–15.

12. Косинов В.А. Проблемы государственного регулирования приватизации государственного и муниципального имущества // Административное и муниципальное право. 2015. N 1. С. 5 - 7.

13. Комарицкий С.И. Приватизация: правовые проблемы. Курс лекций. М., 2000.

14. Комментарий к Федеральному закону от 21 декабря 2001 г. № 178-ФЗ «О приватизации государственного и муниципального имущества» (постатейный) / Н.В. Ласкина, Н.Ю. Тимофеева, Т.А. Бирюкова и др. // СПС «КонсультантПлюс», 2013.

15. Коптев В. П. Российская приватизация и формирование национальной модели управления предприятием//Вестник Челябинского государственного университета. 2018. № 31. С. 88-92.

16. Котликов Я.С. Приватизация: теоретический курс. М., 1995.

17. Лебедев А. Приватизация по новому // Коллегия. 2002. № 4.

18. Малышева А.В. Основания классификации способов приватизации земельных участков // Право и экономика. 2017. № 11. С. 66–70.

19. Мочальников В. Приватизация в России: проблемы и последствия//Вестник Института экономики Российской академии наук. 2017. № 4. С. 132-134.

20. Моисеева Е.В. Приватизация как способ распоряжения государственным и муниципальным имуществом. //Журнал российского права № 9/2006.

21. Никитина О. Приватизация предприятий. Законодательство и судебно-арбитражная практика // Бизнес-адвокат. 1997. № 10.

22. Новикова С.В. Понятие и способы приватизации государственного и муниципального имущества// ПолитемАтический сетевой электронный научны журнал Кубанского государственного аграрного университета. 2018. № 100. С.1-14.

23. Новикова С.В. Способы приватизации государственного и муниципального имущества // Власть Закона. 2014. № 2. С. 101–107.

24. Перепелкина Н.В. К вопросу о приватизации имущества в Российской Федерации // Законы России: опыт, аннализ, практика. 2017. N 3. С. 69 - 81.

25. Петров И.С. Приватизация как способ преобразования собственности // Адвокат. 2000. № 9.

26. Приватизация и право: учебное пособие / А.А. Бельтюкова, Ю.В. Гинзбург, В.О. Денисов и др.; под ред. А.Н. Козырина. М.: НИУ ВШЭ, 2012.

27. Пятков Д.В. Отчуждение публичной собственности: вопросы правового регулирования // Хозяйство и право. 1998. № 6.

28. Скворцов О.Ю. Приватизационное право. Учебное пособие. М., 2000. Государственное регулирование рыночной экономики / Под общ. ред. В.И. Кушлина, Н.А. Волгина. М., 2000.

29. Сабирова Л.Л. Отдельные аспекты приватизации государственного и муниципального имущества на современном этапе // Вестник Казанского юридического института МВД России. 2017. № 9.

30. Скворцов О. Ю. Приватизационное право: учебное пособие/О. Ю. Скворцов. - М., 2019. -272 с.

31. Трофимова А. Х. Актуальность правового регулиро-

вания гражданского и приватизационного законодательства//Юрист. 2019. № 1. С. 20-25.

32. Федорова Л.В. Правовое регулирование приватизации недвижимых объектов культурного наследия: монография. М.: Юстицинформ, 2012.

## Mövzu 6. Sahibkarlıq fəaliyyəti sahəsində inhisar fəaliyyətinin məhdudlaşdırılması və rəqabətin hüquqi təminatı

*Mühazirə – 2 saat;*
*Seminar – 2 saat.*

### Müzakirəyə çıxarılan suallar:

1. Bazarın anlayışı və formaları.
2. Rəqabətin anlayışı və əlamətləri.
3. Haqsız rəqabətin anlayışı və formaları.
4. İnhisar fəaliyyətinin anlayışı və növləri.
5. Təbii inhisar subyektlərinin fəaliyyətinin hüquqi tənzimlənməsi.

### Hüquq normalarının şərhinə dair tapşırıqlar:

1. "Haqsız rəqabət haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu və 12-ci maddələrinin şərhini verin.

2. "Antiinhisar fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü, 13-cü, 14-cü maddələrinin şərhini verin.

3. "Təbii inhisarlar haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci və 11-ci maddələrinin şərhini verin.

### Yazılı tapşırıqlar:

1. Haqsız rəqabətin formalarını sxem şəklində qeyd edin.
2. Rəqabətin əlamətlərini sxem şəklində qeyd edin.
3. Hökmran mövqenin əlamətlərini sxem şəklində qeyd edin.
4. İnhisar fəaliyyətinin növlərini məzmunu açıqlanmaqla cədvəl şəklində tərtib edin.

5. Süni inhisarçılığın növlərini cədvəl şəklində tərtib edin və hər bir növün məzmununu açıqlayın.

## Terminoloji tapşırıqlar:

*"İnhisar", "oliqopoliya", "rəqabət", "konsern", "kartel", "trest", "sindikat", "bazar", "dempinq"* terminlərinin etimoloji, hüquqi və fəlsəfi izahlarını dəftərinizdə qeyd edin.

## Elmi problemlər və yanaşmalar:

**1.** Hüquq ədəbiyyatlarında qeyd olunur ki, rəqabət mürəkkəb və çoxşaxəli təzahürdür. İqtisadi ədəbiyyatlarda rəqabətin əhəmiyyətinə dair iki əsas nəzəriyyə mövcuddur. Birinci nəzəriyyəyə əsasən rəqabət – nəticədir (vəziyyətdir), ikinci nəzəriyyəyə əsasən isə rəqabət – proses və metoddur.[44] R.A.Farxutdinov qeyd edir ki, rəqabət, subyektin qanunvericilik çərçivəsində və ya təbii şəraitdə obyektiv və subyektiv ehtiyaclarını ödəməkdən ötrü mübarizədə qələbə qazanmaq və ya başqa məqsədlərə nail olmaq üçün özünün rəqabət üstünlüklərinin idarəetmə prosesidir.[45]

A.A. Tompson və A.J. Striklend rəqabəti "şirkətlərin həmlə və müdafiə hərəkətləri ilə və diqqəti rəqabət mübarizəsinin bir növdən digərinə keçməsi ilə müşayiət olunan dinamik, daim dəyişən bir proses" kimi müəyyən edirlər.[46]

***Sizin fikrinizcə, rəqabət nəticə (vəziyyət), yaxud proses və ya metod kimi nəzərdən keçirilməlidir? Hansı müəlliflərin fikirləri ilə razılaşmaq olar? Fikrinizi əsaslandırın.***

---

[44] Тотьев К.Ю. Конкурентное право (правовое регулирование деятельности субъектов конкуренции и монополий): Учебник для вузов. 2-е изд., перераб. и доп. М., 2003. Стр. 17-19.

[45] Фатхутдинов Р.А. Конкурентоспособность организации в условиях кризиса: экономика, маркетинг, менеджмент. М., 2002. С. 10.

[46] Томпсон А.А., мл., Стрикленд А. Дж. Стратегический менеджмент: концепции и ситуации: Учебник для вузов. М.: ИНФРА-М, 2000.

**2.** İqtisadi və hüquq ədəbiyyatlarında təbii inhisar, əsasən, iki aspektdən nəzərdən keçirilir. Bir qrup müəlliflər hesab edirlər ki, təbii inhisar əmtəə və xidmətlərin istehsalı və satışı üzrə rəsmi olaraq tanınan qaçılmaz inhisar ya inhisarçının təbii hüquqları ilə yaxud da bütövlükdə dövlət və əhali üçün iqtisadi səmərə mülahizələri ilə şərtlənir Digər tərəfdən isə dövlətin maraqları naminə vahid boru kəmərləri, enerji şəbəkələri, dəmir yolları magistrallarının olması faydalıdır.[47]

Digər qrup müəlliflər isə qeyd edirlər ki, təbii inhisar istehsalın texnoloji xüsusiyyətlərinə görə rəqabətin olmadığı şəraitdə tələbin təmin edilməsi daha səmərəli olan bazar vəziyyətidir, təbii inhisar subyektlərinin istehsal etdiyi mallar isə istehlakda başqa mallarla əvəz edilə bilməz. Təbii inhisarın subyekti qismində unikal ehtiyatlar (adətən təbii) üzərində müstəsna hüquqa malik və istehsal xərcləri az olan (səmərəli texnologiyalar sayəsində) və rəqiblərini bazara daxil olmasını mümkünsüz edən təsərrüfat subyektidir (bazar strukturudur). Patentlərə müstəsna sahibliyə əsaslanan inhisar təbii inhisar hesab olunmur.[48]

***Sizin fikrinizcə, bu gün təbii inhisar ilə bağlı irəli sürülən hansı mövqe ilə razılaşmaq olar? Fikrinizi əsaslandırın.***

---

[47] Райзберг Б. А. Современный экономический словарь / Б. А. Райзберг, Л. Ш. Лозовский, Е. Б. Стародубцева. – 5-е изд., перераб. и доп. – Москва: ИНФРА-М, 2007. – 495с.; Борисов А.Б. Большой экономический словарь / А. Б. Борисов. – Москва: Книжный мир, 2003. – 895с.; Естественная монополия [Электронный ресурс]: //Академик. Юридическая энциклопедия. http://goo.gl/mNS31n; Естественная монополия [Электронный ресурс]: //Академик. Финансовый словарь. –http://goo.gl/5JE9vt.

[48] Естественная монополия [Электронный ресурс]: //Академик. Энциклопедический словарь. – Режим доступа: http://goo.gl/3wBSYX; Естественная монополия [Электронное издание]: //Академик. Политология. Словарь. http://dic.academic.ru/dic.nsf/politology/1016; Естественная монополия [Электронное издание]: //Академик. Политология. Словарь-справочник. http://goo.gl/76Lgud.

## Test tapşırıqları:

**1. Rəqabət nədir?**

a) bazar subyektinin sahibkarlıq fəaliyyətində mövcud qanunvericiliyə zidd üsullarla üstünlük əldə etməyə yönəlmiş hərəkətlərdir;

b) eyni fəaliyyətlə məşğul olan bazar subyektləri arasında yüksək nəticələr əldə etmək uğrunda aparılan mübarizədir;

c) bazar subyektinin digər bazar subyektinə zərər vura bilən, yaxud onların işgüzarlıq nüfuzuna xələl yetirə bilən hərəkətlərdir;

d) bazar subyektinin sahibkarlıq fəaliyyətində mövcud qanunvericiliyə zidd üsullarla üstünlüklər əldə etməyə yönəlmiş, bazar subyektinə zərər vura bilən, yaxud onların işgüzarlıq nüfuzuna xələl yetirə bilən hərəkətlərdir.

**2. Sosial-iqtisadi təbiətinə görə inhisar fəaliyyətinin hansı növləri var?**

a) kartel;

b) sindikat;

c) süni inhisar;

d) trest.

**3. Haqsız rəqabət haqqında qanunvericiliyə görə aşağıdakılardan hansı biri haqsız rəqabətin formalarına aid edilə bilməz**?

a) rəqibin təsərrüfat fəaliyyətinin nüfuzdan salınması;

b) təsərrüfat subyektlərinin çaşdırılması;

c) rəqibin təsərrüfat fəaliyyətinə müdaxilə;

d) istehlakçıların çaşdırılması.

**4. Aşağıda göstərilənlərdən hansı biri dempinqin növü hesab olunur?**

a) müvəqqəti dempinq;

b) təsadüfi dempinq;

c) məcburi dempinq;

d) könüllü dempinq.

**5. Aşağıda göstərilən əlamətlərdən hansı biri haqsız rəqabətə xasdır?**

a) haqsız rəqabət – sahibkarlıq fəaliyyəti subyektlərinin yalnız passiv hərəkətləri vasitəsilə həyata keçirilə bilər;

b) haqsız rəqabət – sahibkarlıq fəaliyyəti subyektlərinin həm aktiv, həm də passiv hərəkətləri vasitəsilə həyata keçirilə bilər;

c) haqsız rəqabət – sahibkarlıq fəaliyyəti subyektlərinin yalnız aktiv hərəkətləri vasitəsilə həyata keçirilə bilər;

d) haqsız rəqabət – sahibkarlıq fəaliyyəti subyektlərinin yalnız məhdud aktiv hərəkətləri vasitəsilə həyata keçirilə bilər.

## Məsələlər:

**Məsələ 1.** "Təbii inhisarlar haqqında" Azərbaycan Respublikası Qanunu aşağıda göstərilən hansı sahələri əhatə edir?

- mavi qazın boru kəmərləri ilə nəqli;
- dəmir yolu nəqliyyatı;
- elektrik enerjisinin ötürülməsi xidmətləri;
- avtomobil nəqliyyatı;
- nəqliyyat terminallarının, limanların, hava limanlarının xidmətləri;
- lombardda saxlama;
- anbarda saxlama;
- magistral boru kəmərləri ilə neft və neft məhsullarının nəqli.

**Məsələ 2.** Bakı şəhər Səbail rayonunda un məmulatların hazırlanması bazarında payı 30% təşkil edən iri çörək bişirmə sexləri gizli şəkildə istehsal etdikləri məhsulun qiymətinin artırılmasına dair müqavilə bağlamışdırlar. Bu barədə məlumat əldə edən bir sıra sahibkarlar AR İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə müraciət etmişlər.

***Bu halda AR İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti hansı tədbirləri görməyə haqlıdır?***

***Saziş inhisarçılığının xüsusiyyətlərini göstərin.***

**Məsələ 3**. "KAZUAL" açıq səhmdar cəmiyyəti tikinti məhsulları bazarında fəaliyyət göstərən digər sahibkarlarla razılığa gələrək bütün çeşiddən olan tikinti materiallarının qiymətlərinin yüksəldilməsinə dair kartel sazişini bağlamışdır. Bu barədə antiinhisar orqanına daxil olan sənəd və məlumatlar əsasında yaradılmış komissiya belə bir qənaətə gəlmişdir ki, "KAZUAL" açıq səhmdar cəmiyyəti tərəfindən tikinti məhsulları bazarında digər sahibkarlarla razılığa gələrək bütün çeşiddən olan tikinti materiallarının qiymətlərinin yüksəldilməsinə dair kartel sazişinin bağlanılması "Rəqabət haqqında" və "Antiinhisar fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunlarının tələblərini pozmuşdur.

***Kartel sazişinin yarada biləcəyi nəticələri müəyyən edin?***

***Antiinhisar orqanının qərarı qanunuauyğundurmu?***

***Bu halda "KAZUAL" ASC məsuliyyətə cəlb olunmalıdırmı?***

**Məsələ 4.** AR İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti əmtəə bazarında hökmran mövqeyə malik olan "Kristal" ASC barədə antiinhisar qanunvericiliyinin pozulması səbəbindən icraata başlanılması haqqında qərar qəbul etmişdir. Araşdırma zamanı müəyyən olunmuşdur ki, "Kristal" ASC-nin bazarda payı 48 % təşkil edir. Antiinhisar orqanı "Kristal" ASC-yə bazarda hökmran mövqeyə sahib olmaması barədə sübutların təqdim edilməsini təklif etmişdir. Lakin, "Kristal" ASC onun bazarda hökmran mövqeyə sahib olmamasını təsdiq edən hər hansı bir sübutu antiinhisar orqanına təqdim edə bilməmişdir. Bu səbəbdən antiinhisar orqanı müvafiq qərar qəbul etmişdir.

***Bazarda hökmran mövqeyə sahib olmanın sübut edilməsi qaydasını göstərin.***

***AR İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin qərarı qanunauyğundurmu?***

**Məsələ 5.** 2012-ci ildən etibarən Xaçmaz rayonunda un istehsalı və satışı ilə bağlı fəaliyyət yalnız "Taxıl" MMC tərəfindən həyata keçirilir. 2019-cu ilin mart ayında "Taxıl" MMC-nin rəhbərliyi qərara aldı ki, un məhsulunun satışı 10%, həmin ilin noyabr ayında 40%, 2021-ci ilin yanvar ayının sonunda isə 70% azaldılmışdır.

AR İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin Xaçmaz regional bölməsi "Taxıl" MMC-nin bu hərəkətlərinin "Haqsız rəqabət" haqqında qanunvericiliyə zidd olduğunu əsas gətirərək ona 10% maliyyə sanksiyası tətbiq etmişdir.

***AR İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin Xaçmaz regional bölməsinin qəbul etdiyi qərar qanunauyğundurmu?***

***"Taxıl" MMC-nin rəhbərliyinin un məhsulunun satışının azaldılması barədə qərarı qanunauyğundurmu?***

**Məsələ 6.** Bakı şəhərində optik eynəklərin istehsalı üzrə iki sahibkarlıq subyekti "GÜNƏŞ" və "LAZER" Açıq Səhmdar Cəmiyyətləri fəaliyyət göstərir. "GÜNƏŞ" ASC-də işçilərin sayı 300 nəfər, "LAZER" ASC-də isə 315 nəfər təşkil edir. 2020-ci ilin avqust ayında "LAZER" ASC-də 270 nəfərə yaxın işçi əmək haqqının 10% artırılması barədə cəmiyyətin rəhbərliyi qarşısında tələb irəli sürərək tətilə başladılar. Tətil 2 ay müddətində davam etdi. "LAZER" ASC-nin rəhbərliyi müstəqil auditor rəyinə əsasən bildirmişdir ki, işçilərin əmək haqqının artırılması onun iqtisadi im-

kanlarında deyil. Buna baxmayaraq tətil davam etmişdir. “LAZER” ASC-nin rəhbərliyi AR İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə müraciət edərək onun işçilərinin işləməməyə və tətil etməyə “GÜNƏŞ” ASC tərəfindən sövq edildiyini bildirmişdir.

AR İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti apardığı araşdırma və təhlillər nəticəsində “GÜNƏŞ” ASC-nin “Haqsız rəqabət haqqında” AR Qanunun 6-cı maddəsinin tələblərini pozaraq rəqibin işçilərini öz xidməti vəzifələrini yerinə yetirməməyə sövq etmək məqsədilə onlara qanunsuz vasitələrlə təsir göstərilməsi müəyyən etmişdir. “Haqsız rəqabət haqqında” AR Qanunun 12-ci maddəsinə əsasən, AR İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti “GÜNƏŞ” ASC-yə haqsız rəqabətə yol verilməklə satılmış mallardan (göstərilmiş iş və xidmətlərdən) əldə edilmiş gəlirin 10 faizinədək maliyyə sanksiyası tətbiq edilməsi barədə qərar qəbul etmişdir.

***Sizin fikrinizcə, haqsız rəqabət haqqında qanunvericiliyin tələbləri bu halda pozulubmu?***

***AR İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin qəbul etdiyi qərarı qanunauyğundurmu?***

***“LAZER” ASC-nin işçilərinin tətil etməsi nəticəsində cəmiyyətin sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə mənfi təsir göstərəcək amilləri göstərin.***

## Referat mövzuları:

1. Antiinhisar qanunlarının pozulmasına görə məsuliyyət.
2. Rəqabətin və inhisarların hüquqi tənzimlənməsi prinsipləri.
3. Müasir dövrdə haqsız rəqabət: anlayışı və növləri.

## Özünüyoxlama sualları:

1. Rəqabət nədir?
2. Bazar nədir?
3. Bazarın hansı növləri var?
4. Bazarda hökmran mövqeyinin mahiyyəti nədən ibarətdir?
5. İnhisarın əsas növlərini sadalayın.
6. Haqsız rəqabətin hansı formaları var?
7. Haqsız rəqabətə görə qanunvericilikdə hansı məsuliyyət müəyyən olunub?
8. Haqsız rəqabət hansı hüquqi nəticələr yaradır?
9. Rəqabətə dövlət-hüquqi təsirinin üsullarını göstərin.
10. İnhisar fəaliyyətin məhdudlaşdırılması dedikdə, nə başa düşülür?
11. Təbii inhisarın subyektləri kimlərdir?
12. Təbii inhisar sahələrində dövlət nəzarəti necə həyata keçirilir?

## Mövzunun mənimsənilməsi üçün tövsiyə olunan ədəbiyyat:

1. “Haqsız rəqabət haqqında” Azərbaycan Respublikasının 2 iyul 1995-ci il tarixli 1049 nömrəli Qanunu.
2. “Antiinhisar fəaliyyəti haqqında” Azərbaycan Respublikasının 4 mart 1993-cü il tarixli, 526 nömrəli Qanunu.
3. “Təbii inhisarlar haqqında” Azərbaycan Respublikasının 15 dekabr 1998-ci il tarixli 590-IQ nömrəli Qanunu.
4. “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin Əsasnaməsi”nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanı.
5. Антиконкурентные соглашения и недобросовестная конкуренция: учебное пособие / отв. ред. С.А. Пузыревский. М.: Проспект, 2016.

6. Архипова Л.С. Конкуренция как основа экономики: концептуальные подходы к исследованию роли конкуренции: монография / Л.С. Архипова, Г.Ю. Гагарина, А.М. Архипов. М.: ИНФРА-М, 2015.

7. Борзило Е.Ю. Антимонопольные риски предпринимательской деятельности: научно-практическое руководство. М.: Статут, 2014.

8. Бруско Б. С. Пределы антимонопольного регулирования предпринимательских правоотношений / Б. С. Бруско // Право и экономика. – 2012. – № 8. – С. 75–78.

9. Гаврилов Д.А. Некоторые вопросы взыскания убытков вследствие нарушения антимонопольного законодательства: текущая практика и перспективы с учетом зарубежного опыта // Вестник Арбитражного суда Московского округа. 2015. № 3. С. 19–27.

10. Государственная политика цен и тарифов в Российской Федерации / под ред. В.В. Герасименко. М.: Изд-во Московского университета, 2014.

11. Демиева А.Г. Конкуренция как стимул осуществления предпринимательской деятельности: правовой аспект // Журнал российского права. 2017. N 6. С. 61 - 68.

12. Егорова М.А. Понятие «экономическая концентрация» в американском антимонопольном законодательстве: компаративный аспект // Право и экономика. 2016. № 1. С. 23–29.

13. Конкурентное право: теория и практика применения: учебник для магистров: учебник для студентов высших учебных заведений, обучающихся по юридическим направлениям и специальностям / Д.А. Петров; под общ. ред. В.Ф. Попондопуло. М.: Юрайт, 2013.

14. Конкуренция в рыночной экономике: пределы свободы и ограничений: монография /А.А. Амангельды, О.А. Беляева и др.; отв. ред. А.В. Габов. М.: ИЗиСП при Правительстве РФ, Юриспруденция, 2016.

15. Марова О. Недобросовестная конкуренция на рынке пассажирских перевозок: опыт Хакасии // Конкуренция и право. 2015. № 6. С. 55–58.

16. Мартыненко Г.И., Мартыненко И.П. Правовое регулирование конкуренции и ограничения монополистической деятельности. // Право и экономика. 2004. № 9. С. 3–8.

17. На пути к безальтернативной дисквалификации за нарушение антимонопольного законодательства / Крюков А. и др.// Конкуренция и право. 2015. № 6. С. 38–47.

18. Научно-практический комментарий к Федеральному закону "О защите конкуренции" (постатейный) / К.Н. Алешин, И.Ю. Артемьев, Е.А. Большаков и др.; отв. ред. И.Ю. Артемьев. 2-е изд., перераб. и доп. М.: Статут, 2016. 1024 с.

19. Ответственность за нарушения антимонопольного законодательства: проблемы теории и практики: монография / И.В. Башлаков-Николаев, Д.А. Гаврилов, А.Ю. Кинев и др.; отв. ред. С.В. Максимов, С.А. Пузыревский. М.: НОРМА, ИНФРА-М, 2016.

20. Паращук С.А. О сроках давности в конкурентном праве России // Юрист. 2018. № 1.

21. Паращук С.А. Правовые проблемы принятия и применения норм законодательства о защите конкуренции, улучшающих либо ухудшающих положение хозяйствующих субъектов // Предпринимательское право. 2018. № 1.

22. Паращук С.А. Монополия и монополизация: регламентация в российском праве. Юрист. 2017. № 1.

23. Паращук С.А. Актуальные проблемы конкурентного права в новых экономических условиях // Приложение к журналу Предпринимательское право. 2016. № 1.

24. Паращук С.А. Конкурентное право (правовое регулирование конкуренции и монополии). М.: Городец-издат, 2002.

25. Самолысов П.В. Правовое регулирование доказательств и доказывания по делам о нарушении антимонопольного законодательства // Вестник арбитражной практики.

2016. № 1. С. 15–20.

26. Серебруев И.В. Правовая природа недобросовестной конкуренции: понятие, признаки, формы // Бизнес, менеджмент и право. 2015. № 1. С. 146–149.

27. Татаринова С.С. Современное антимонопольное регулирование: достижения и перспективы / С. С. Татаринова // Конкурент. право. – 2013. – № 3. – С. 6–9.

28. Тотьев К.Ю. Конкурентное право. М., 2000.

29. Тулаева Е.Н. Положения об отказе от конкуренции (non-compete clauses) в сделках M&A // Закон. 2017. N 3. С. 155 - 160.

30. Шайхеев Т.И. Предложения по совершенствованию антимонопольного законодательства // Конкурентное право. 2015. № 4. С. 7–9.

31. Рыженков А.Я. Российское антимонопольное законодательство: вопросы целеполагания // Власть Закона. 2015. № 4. С. 25–33.

32. Рыженков А.Я. Право и монополии в современной России: монография. М.: Юстицинформ, 2017.

## Mövzu 7. Sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqlarının və qanuni mənafelərinin müdafiəsi

*Mühazirə – 2 saat;*
*Seminar – 2 saat.*

### Müzakirəyə çıxarılan suallar:

1. Sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqlarının və qanuni maraqlarının müdafiəsinin anlayışı, forma və vasitələri.
2. Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar yaranan mübahisələrə kommersiya məhkəmələrində baxılmasının prosessual xüsusiyyətləri.
3. Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar yaranan mübahisələrin pretenziya qaydasında həlli.
4. Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar yaranan mübahisələrə mediasiya vasitəsilə baxılmasının xüsusiyyətləri.
5. Beynəlxalq kommersiya arbitrajında sahibkarların hüquqlarının və qanuni maraqlarının müdafiəsi.

### Hüquq normalarının şərhinə dair tapşırıqlar:

1. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 1.1.-ci, 2-ci, 4-cü, 10-1-ci, 26-cı, 29-cu maddələrinin şərhini verin.

2. "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü və 24-cü maddələrinin şərhini verin.

### Yazılı tapşırıqlar:

1. Sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqlarının və qanuni mənafelərinin müdafiəsi üsullarının izahını verməklə təsnifatını göstərin.

2. Mülki mühakimə icraatının vəzifələrini cədvəl şəklində tərtib edin və onların məzmununu açıqlayın.

3. İddia formasının əsas əlamətlərini sxem şəklində tərtib edin.

4. Mediasiyanın prinsiplərini sxem şəklində tərtib edin və onların məzmununu açıqlayın.

5. Mediasiyanın mərhələlərini cədvəl şəklində tərtib edin və onların məzmununu açıqlayın.

## Terminoloji tapşırıqlar:

*"Arbitraj", "pretenziya", "iddia", "proses", "mediasiya", "mediator", "konfidensiallıq", "notariat", "institusional" "ad hok"* terminlərinin etimoloji, hüquqi və fəlsəfi izahlarını dəftərinizdə qeyd edin.

## Elmi problemlər və müzakirələr:

**1.** Hüquq elmində iddianın anlayışına dair yanaşmalar birmənalı deyil. Bəzi müəliflər iddianın iki müstəqil anlayışını fərqləndirirlər: maddi-hüquqi mənada iddia və prosessual mənada iddia. Belə ki, M.A.Qurviçin və N.B. Zeyderin fikrincə, maddi-hüquqi mənada iddia – maraqlı şəxsin subyektiv hüquqlarının və qanuni maraqlarının pozulmasının dayandırılması haqqında cavabdehə yönəltdiyi tələbdir, prosessual mənada iddia isə maraqlı şəxsin mübahisəli subyektiv mülki hüquqların və ya qanunla qorunan maraqların müdafiəsi haqqında tələbi ilə məhkəməyə müraciətidir.[49]

A.F. Kleynman, A.A. Dobrovolskiy və başqaları isə iddianı iki tərəfi olan vahid anlayış kimi nəzərdən keçirirlər: prosessual və maddi-hüquqi. Onların fikrincə, hüquqlarının və qanunla qorunan mənafelərinin müdafiəsi üçün iddiaçının məhkəməyə irəli sürdüyü

---

[49] Гурвич М.А. Учение об иске (состав, виды). М., 1981. С. 5-11; Елисейкин П.Ф. Предмет судебной деятельности в советском гражданском процессе. Автореф. дис. д-ра юрид. наук. Л., 1974. С. 9;

tələb – iddianın prosessual tərəfidir, iddiaçının cavabdehə irəli sürdüyü tələb isə iddianın maddi-hüquqi tərəfidir.[50] Bu məsələyə münasibətini bildirən M.L.Vikut qeyd edir ki, "iddianın anlayışı necə müəyyən olunursa olsun hüquqşünasların da, qanunvericinin də fikirləri bir yerdə kəsişir: iddia icraaatı varsa, iddia da var. İddianın verilməsi – iddia icraatının başlanılması üçün əsasdır".[51]

***Sizin fikrinizcə, göstərilən müəlliflərin hansı birinin fikirləri ilə razılaşmaq olar? Fikrinizi əsaslandırın.***

**2.** Sahibkarlıq fəaliyyəti ilə bağlı mübahisələrə kommersiya məhkəmələri ilə yanaşı **münsiflər məhkəməsində** də baxıla bilər. V.F. Popondopulonun və V.F. Yakovlevanın fikrincə, münsiflər məhkəmələri xüsusi-hüquqi institutdur, onlar məhkəmə sisteminə aid edilmir, ədalət mühakiməsini həyata keçirmir, məhkəmə hakimiyyəti orqanı deyil.[52] V.F. Popondopulo qeyd edir ki, "münsiflər məhkəməsi" və "kommersiya arbitrajı" anlayışları bir-biri ilə qarşılıqlı bağlı olan fərqli anlayışlardır: kommersiya mübahisələri həll edilən müəssisələr; bu tipli mübahisələrə baxan arbitrlərin tərkibi; kommersiya mübahisələrinin həlli proseduru. İstənilən halda hüquq münasibəti subyektlərinin onların arasında yaranmış mübahisənin həlli üçün özlərinin seçdikləri qeyri-dövlət məhkəməsidir".[53]

AR MPM-in 29-cu maddəsində mübahisələrin münsiflər məhkəməsinə verilməsi barədə birbaşa göstəriş təsbit olunmuşdur. Göstərilən normaya əsasən məhkəməyə aid olan mübahisə qanunla, beynəlxalq müqavilələrlə və ya tərəflərin sazişi ilə nəzərdə tutu-

---

[50] Клейнман А.Ф. Советский гражданский процесс. М., 1954. С. 147; Добровольский А. А., Иванова С.А. Основные проблемы исковой формы защиты права. М., 1979, səh. 18–19;

[51] Гражданский процесс России. Учебник. Под ред. М.Л. Викут. М.: Юристь, 2005. Стр 131-132.

[52] Коммерческое право: Учебник. В 2 ч. / Под ред. В.Ф. Попондопуло и В.Ф. Яковлевой. СПб., 1997. Ч.1., səh. 491.

[53] Коммерческое право зарубежных стран: Учебник / Под ред. В.Ф. Попондопуло. –СПб., изд. Дом С.-Петерб. Гос. ун-та, 2005, səh.448.

lan hallarda, işdə iştirak edən şəxslərin yazılı razılığı ilə münsiflər məhkəməsinin həllinə verilə bilər. Eyni zamanda, AR MPM-in 167.1.5.-ci maddəsində isə qeyd olunur ki, mübahisəni həll etmək üçün tərəflərin münsiflər məhkəməsinə müraciət etmək hüququnu və bu hərəkətin nəticələrini onlara izah edilməsi işin məhkəmədə baxılmağa hazırlamaq üçün hakim tərəfindən həyata keçirilən hərəkətlərdən birinə aiddir.

***Azərbaycan Respublikasında münsiflər məhkəməsinin fəaliyyət göstərməsi sahibkarlıq münasibətlərindən yaranan mübahisələrin həll edilməsində əhəmiyyəti nədən ibarətdir? Bu gün Azərbaycan Respublikasında münsiflər məhkəməsinin fəaliyyət göstərməsinə zərurət varmı? Fikrinizi əsaslandırın.***

## Test tapşırıqları:

**1. Hansı hallarda hakim iddianın yolverilməzliyinə görə iddia ərizəsini qəbul etməkdən imtina edir?**

a) dövlət rüsumunun ödənilməsi barədə sənəd təqdim edilmişdirsə;
b) iddia ərizəsi imzalanmışsa;
c) ərizəyə məhkəmə qaydasında baxılmalı deyildirsə;
d) iddianın surətləri iddia ərizəsinə əlavə olunmuşdursa.

**2. Notarius kimin adından notarial hərəkətləri aparır?**

a) öz adından;
b) məhkəmənin adından;
c) Ədliyyə Nazirliyinin adından;
d) Azərbaycan Respublikasının adından.

**3. Beynəlxalq kommersiya arbitrajının hansı növləri var?**

a) ad hoc (müvəqqəti) və institusional (daimi);
b) mediasiya və ad hoc (müvəqqəti);
c) mediasiya və institusional (daimi);
d) mürəkkəb və sadə.

**4. Pretenziya nədir?**

a) iddia, tələb, xahiş;
b) iddia, şikayət, xahiş;
c) tələb, şikayət, xahiş;
d) iddia, tələb, şikayət.

**5. Aşağıda göstərilənlərdən hansı biri mediasiyanın prinsiplərinə aid deyil?**

a) könüllülük;
b) aşkarlıq;
c) konfidensiallıq;
d) mediatorların qərəzsizliyi və müstəqilliyi.

## Məsələlər:

**Məsələ 1.** Ə.Əhmədov ilə C.Səmədov arasında bağlanılan icarə müqaviləsinin icrası prosesində əmlakdan istifadə edilməsinə münasibətdə mübahisə yaranmışdır. Ə.Əhmədov mübahisənin həll edilməsi üçün vasitəçiyə (mediatora) müraciət etməyi C.Səmədova təklif etmişdir. C.Səmədov isə müqavilədə mediatora müraciət edilməsi ilə bağlı müddəanın olmamasını göstərərək Ə.Əhmədova iddia ilə məhkəməyə müraciət etməyi təklif etmişdir.

***Tərəflərin mövcud vəziyyətini qiymətləndirin.***

***Mediasiya nədir və onun tətbiqinin şərtlərini göstərin.***

***Mediasiya prosedurunun aparılması haqqında saziş hansı qaydada bağlanılır?***

**Məsələ 2.** Zərərin ödənilməsinə dair iddia tələbinə baxılmasını məhkəmə öz icraatına qəbul etmişdir. Məhkəmə iclasında iddiaçının vəkili qeyd etmişdir ki, tərəflər mülki işin münsiflər məhkəməsinə verilməsinə dair razılığa gəlmişlər.

***Bu halda məhkəmə hansı prosessual hərəkətləri yerinə yetirməlidir?***

***Məhkəmə icraatında olan mülki işin münsiflər məhkəməsinə verilməsi qanunvericiliyin tələblərinə uyğundurmu?***

**Məsələ 3.** Aşağıda göstərilən tələblər üzrə kommersiya məhkəməsi baxmağa səlahiyyətlidir:

1. Sahibkar S.Aslanov "İki sahil" qəzetinin redaksiyasına qarşı işgüzar nüfuzun müdafiəsinə dair iddia tələbi üzrə;
2. M.Tahirov bacısı S.Tahirovanın torpaq sahəsində yerləşən "DƏNİZ" supermarketə mülkiyyət hüququnun tanınmasına dair tələb üzrə;
3. "STSbank" ilə vətəndaş M.Salayev arasında bağlanılmış 10000 manat məbləğində kredit müqaviləsi üzrə borcun qaytarılmasına dair iddia tələbi.

**Məsələ 4.** Aşağıda göstərilən tələblər üzrə işə kommersiya məhkəməsi tərəfindən baxılır və həll edilir:

1. Vətəndaş Ə.Əliyevin mühafizə fəaliyyəti ilə məşğul olmaq üçün lisenziyalaşdırma orqanı tərəfindən lisenziya verməkdən imtina edilməsi barədə qərarının ləğv edilməsinə dair tələbə;
2. Fərdi sahibkar Ə.Əhmədovun tələbi ilə vergi müfəttişliyinin alıcılarla nağd pul hesablaşmalarında nəzarət-kassa aparatından istifadə edilməməsinə görə cərimə tətbiq edilməsi barədə qərarının ləğv edilməsinə dair tələbə;
3. "ULDUZ" MMC-nin müflis elan edilməsi üzrə işlərə;
4. Kredit müqaviləsinə əsasən "AsanBank" tərəfindən "AZİMUT" ASC-yə verilən 70 000 manat məbləğində kreditin qaytarılmasına dair tələbə.

**Məsələ 5.** "Savalan" ASC "İŞIQ" qəzetinin redaksiyasına qarşı işgüzar nüfuzuna xələl gətirəcək həqiqətəuyğun olmayan məlumatların yayılması nəticəsində dəymiş zərərin əvəzinin ödənil-

məsinə dair iddia ərizəsi ilə Bakı Kommersiya Məhkəməsinə müraciət etmişdir.

Bakı Kommersiya Məhkəməsi həqiqətəuyğun olmayan məlumatların yayılması nəticəsində dəymiş zərərin əvəzinin ödənilməsini "Savalan" ASC-nin tələb etmək hüququnun olmadığına istinad edərək iddianı təmin etməkdən imtina etmişdir.

***Bakı Kommersiya Məhkəməsinin belə imtinası qanunauyğundurmu?***

***Bu halda "Savalan" ASC mülki prosessual qanunvericiliyə əsasən hansı prosessual hərəkətləri yerinə yetirə bilər??***

**Məsələ 6.** Daşıma müqaviləsinə əsasən Bakı şəhərindən Gürcüstan Respublikasının Tiflis şəhərinə "Azərbaycan Dəmir Yolları" QSC tərəfindən 10 gün müddətində 50 ton həcmində taxtanın dəmir yolu vasitəsi ilə daşıması başa çatdırılmalıdır. Lakin müqavilədə nəzərdə tutulan müddətdən 3 gün sonra yük Tbilisi stansiyasına çatdırılmışdır. Yükü göndərən "DESK" ASC-nin rəhbərliyi yükün gecikdirilməsinə görə "Azərbaycan Dəmir Yolları" QSC-dən hər gecikdirilən gün üçün yükdaşıma haqqının 10%-i məbləğində haqqın ödənilməsini tələb etmişdir. "Azərbaycan Dəmir Yolları" QSC gecikməni yükdaşımada gözlənilməz işlərin görülməsi ilə bağlı olduğunu izah edərək tələbi ödəməkdən imtina edib.

***"DESK" ASC-nin tələbi qanunauyğundurmu?***

***Əgər "DESK" ASC məhkəməyə iddia ərizəsi ilə müraciət etsə, bu halda məhkəmə hansı qərarı qəbul edəcək?***

## Referat mövzuları:

1. Kommersiya məhkəməsində sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqlarının və qanuni mənafelərinin müdafiəsinin prosessual xüsusiyyətləri.
2. Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı yara-

nan mübahisələrə beynəlxalq arbitraj məhkəməsində baxılmasının xüsusiyyətləri.

3. Sahibkarlıq fəaliyyəti subyektlərinin pozulmuş hüquqlarının və qanuni mənafelərinin müdafiəsində mediasiyanın rolu.

## Özünüyoxlama sualları:

1. Sahibkarların hüquqlarının və qanuni maraqlarının müdafiəsi nədir?

2. Sahibkarların hüquqlarının və qanuni maraqlarının müdafiəsi vasitələrini sadalayın.

3. Sahibkarların hüquqlarının və qanuni maraqlarının müdafiəsinin hansı formaları var?

4. “Hüquqların müdafiəsi” və “hüquqların mühafizəsi” anlayışlarının oxşar və fərqli cəhətləri hansılardır?

5. Sahibkarların hüquqlarının və qanuni maraqlarının məhkəmə müdafiəsinin xüsusiyyətlərini göstərin.

6. Münsiflər məhkəməsində mübahisələrə hansı qaydada baxılır?

7. Korrupsiyaya qarşı mübarizə: anlayışı və əsas istiqamətləri.

## Mövzunun mənimsənilməsi üçün tövsiyə olunan ədəbiyyat:


1. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi. Azərbaycan Respublikasının 1999-cu il 28 dekabr tarixli 780-IQ nömrəli Qanunu ilə təsdiq edilmişdir Bakı, 2021. Mad. 26, 29, 149-156.

2. “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının 10 iyun 1997-ci il tarixli 310-IQ nömrəli Qanunu.

3. “Notariat haqqında” Azərbaycan Respublikasının 26 noyabr 1999-cu il tarixli 762-IQ nömrəli Qanunu.

4. “Beynəlxalq arbitraj haqqında” Azərbaycan Respublikasının18 noyabr 1999-cu il tarixli 757-IQ nömrəli Qanunu.

5. “Mediasiya haqqında” Azərbaycan Respublikasının 29 mart 2019-cu il tarixli 1555-VQ nömrəli Qanunu.

6. “İnzibati məhkəmələrin və kommersiya məhkəmələrinin təşkili və “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1632-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 9 iyul 2019-cu il tarixli 1325 nömrəli Sərəncamı.

7. “Mediasiya prosesinin həyata keçirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 sentyabr 2019-cu il tarixli 385 nömrəli Qərarı.

8. “İlkin mediasiya sessiyası zamanı mediasiya xidmətinin göstərilməsinə görə haqqın və digər xərclərin məbləği”nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 iyul 2019-cu il tarixli 308 nömrəli Qərarı.

9. Əliyev V. Mənəvi zərərin kompensasiyası sahibkarlıq fəaliyyəti subyektlərinin şərəfinin, ləyaqətinin və işgüzar nüfuzunun mülki-hüquqi müdafiəsinin üsulu kimi. “Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi”. 21-ci buraxılış. Bakı, «Adiloğlu», 2008., səh.283-288.

10. Абрамов А. М. Третейский суд как основной вид альтернативных способов разрешения и урегулирования способов разрешения и урегулирования споров / А. М. Абрамов // Вестник арбитражной практики. – 2012. – № 6. – С. 5–8.

11. Агеева Е.Ш. Институт охраны и защиты прав предпринимателей: Сравнительно-правовое исследование законодательств России и Англии. М.: Статут, 2015. 144 с.

12. Ануфриева А.А. Защита иностранных инвестиций во время финансового кризиса // Закон. 2016. № 3. С. 109–116.

13. Бондаренко Н.Л. Некоторые проблемы защиты прав акционеров-миноритариев в законодательстве Республики Беларусь и пути их преодоления Правовий вiсник Украiнськоi Академii Банковськоi справи. – 2011. – № 1 (4). – С. 115–119.

14. Бондаренко Н.Л., Капитанова А.А. Проблемы реализации преимущественных прав в корпоративных правоотношениях (на примере ЗАО и ООО)// Актуальные проблемы гражданского права: сб. науч. трудов. Выпуск (седьмой) / Международный университет «МИТСО»; редкол.: И.А. Маньковский (гл. ред.) [и др.]. – Минск: Междунар. ун-т «МИТСО», 2018. – № 1. – С. 6–18.

15. Вознесенская Н.Н. Правовое регулирование и защита иностранных инвестиций в России. М.: Волтерс Клувер, 2011.

16. Вершинин А.П. Способы защиты прав предпринимателей в арбитражном суде. СПб., 1996.

17. Гражданин и предприниматель в российском и зарубежном суде: Правовая помощь / Т.Н. Нешатаева и др. М.: Деловой экспресс, 2002. 448 с.

18. Гуреев В.А. Проблемы защиты прав и интересов акционеров в Российской Федерации М.: Волтерс Клувер, 2007.

19. Зайцев А.И. Взаимодействие государственных и третейских судов: история вопроса / А. И. Зайцев // Вестн. гражд. процесса. – 2013. – № 5. – С. 79–115.

20. Защита прав инвесторов в капитальном строительстве / В.А. Баранов, А.А. Овчинников, О.Н. Петюкова и др.; под ред. В.А. Баранова, О.Н. Петюковой. М.: Деловой двор, 2012.

21. Кирилловых А.А. Уполномоченный по правам предпринимателей: основы правового статуса в системе правозащитных институтов // Законодательство и экономика. 2013. № 11. С. 26.

22. Кузьмак Р. Оставить без рассмотрения / Р. Кузьмак // ЭЖ-Юрист. – 2013. – № 36. – С. 10.

23. Лабин Д.К. Международное право по защите и поощрению иностранных инвестиций. М.: Волтерс Клувер, 2008.

24. Летута Т. В. Правовая природа решения третейского суда / Т. В. Летута // Соврем. право. – 2013. – № 5. – С. 72–75.

25. Микова Е.Б. Государственная защита субъектов

предпринимательской деятельности как приоритетное направление развития законодательства о бизнесе в России: на примере учреждения уполномоченных по защите прав предпринимателей в Российской Федерации // Предпринимательское право. Приложение «Бизнес и право в России и за рубежом». 2013. № 4. С. 27–30.

26. Назарова Т. Дело до суда не доводи! / Т. Назарова // ЭЖ-Юрист. – 2012. – № 40. – С. 9.

27. Полтавская Н. Нотариат (курс лекций). М., 1999.

28. Райлян А.А. Вопросы защиты прав граждан-потребителей в Разъяснениях антимонопольного органа Российской Федерации // Право и экономика. 2017. № 5.

29. Рогалева М.А. Квалификация исков о защите прав инвесторов в сфере рынка ценных бумаг. М.: РУСЛАЙНС, 2016.

30. Степин А.Б. Судебные и несудебные способы защиты гражданских прав субъектов малого и среднего предпринимательства // Российский судья. 2018. № 3.

31. Тарасенко О.А. Кредиторы: защита их имущественных прав: учебно-практическое пособие. М.: Юркнига, 2004.

32. Тихомиров М.Ю. Претензии и иски: Практическое пособие. М.: Изд. г-на Тихомирова М.Ю.: Юринформцентр, 2003. 271 с.

33. Тренклер А. Защита деловой репутации юридического лица в арбитражном суде // Хозяйство и право. 2001. № 5. С. 137–144.

34. Фогельсон Ю.Б. Защита прав потребителей финансовых услуг. М.: ИНФРА-М, 2010.

## Mövzu 8. Sahibkarlıq fəaliyyəti subyektlərinin istehsal fəaliyyətinin hüquqi tənzimlənməsi

*Mühazirə – 2 saat;*
*Seminar – 2 saat.*

### Müzakirəyə çıxarılan suallar:

1. Standartlaşdırmanın anlayışı, məqsədi və vəzifələri.
2. Standartlaşdırmanın prinsipləri.
3. Standartların anlayışı və növləri.
4. Texniki tənzimləmənin anlayışı və texniki reqlamentlərin tələblərinə uyğunluğun qiymətləndirilməsi.
5. İstehlakçıların hüquqlarının müdafiəsi sahəsində sahibkarların vəzifələri.

### Hüquq normalarının şərhinə dair tapşırıqlar:

1. "Standartlaşdırma haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci, 5-ci, 9-cu, 18-ci maddələrinin şərhini verin.

2. "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı, 12-ci, 16-cı maddələrinin şərhini verin.

### Yazılı tapşırıqlar:

1. Standartların təsnifatını sxem şəklində tərtib edin və hər birinin məzmununu açıqlayın.

2. Məhsulların (işlərin, xidmətlərin) sertifikatlaşdırılmasının məqsədlərini sxem şəklində tərtib edin və hər birinin məzmununu açıqlayın.

3. Standartlaşdırmanın prinsiplərini cədvəl şəklində tərtib edin və hər birinin məzmununu açıqlayın.

## Terminoloji tapşırıqlar:

*"Standart", "standartlaşdırma", "sertifikasiya", "idxal", "ixrac", "kontrafakt məhsul" "konsensus", "qüsur", "reqlament", "yarmarka", "inqrediyent", "kontrafakt"* terminlərinin etimoloji, hüquqi və fəlsəfi izahlarını dəftərinizdə qeyd edin.

## Elmi problemlər və müzakirələr:

**1.** Hal-hazırda rəqabət qabiliyyətinin artırılması vasitəsi kimi milli standartlaşdırma sisteminin anlayışı və hüquqi xüsusiyyətlərinə dair hüquqşünas alimlərin tədqiqatları azlıq təşkil etsə də, iqtisadçı alimlər tərəfindən geniş şəkildə tədqiq edilmişdir. Belə ki, E.Y.Xarçenko qeyd edir ki, "Texniki tənzimləmə sistemi olmadığı təqdirdə, məhsulların təhlükəsizliyini və keyfiyyətini təmin edə biləcək əsas hüquqi vasitə kimi yalnız milli standart ola bilər".[54]

İ.V. Yerşova qeyd edir: "Yalnız texniki qaydalara əməl olunması funksiyasına qədər standartların təyinatının daraldılması tamamilə doğru deyildir".[55] M.S. Lavrentyeva isə standartlaşdırma və sertifikatlaşdırmanın inzibati hüququn ayrıca bir institutu kimi ayrılmasını təklif edir. Müəllif bu təklifi standartlaşdırma sahəsində icra hakimiyyəti orqanları tərəfindən qaydaların müəyyən edilməsi zamanı yaranan, dəyişən və xitam olunan, nisbətən təcrid olunmuş, eynicinsli ictimai münasibətləri tənzim edən inzibati-hüquqi normaların məcmusunun formalaşdırılmasının zəruriliyi ilə əsaslandırır.[56]

---

[54] Харченко Э.Ю. Административно-правовое регулирование обеспечения безопасности и качества продукции Диссер. ... уч. степени канд. юрид. наук. 12.00.14. СПб., 2006, с.51.

[55] Ершова И.В. Стандартизация как элемент правового механизма технического регулирования в условиях экономической интеграции, с. 16.

[56] Лаврентьева М.С. Административно-правовое регулирование в сфере стандартизации и сертификации: дис. ... канд. юрид. наук : 12.00.14 Москва, 2006 258 с. РГБ ОД, 61: 07-12/288, с. 87.

***Sizin fikrinizcə, müəlliflərdən hansı birinin fikirləri ilə razılaşmaq olar? Standartlaşdırma və sertifikatlaşdırma sahəsində yaranan münsibətlərin yalnız inzibati hüquq normaları ilə tənzim olunmasına zərurət varmı? Fikrinizi əsaslandırın.***

**2.** Standartlaşdırma sahəsində "dövlət idarəetmə"si və "dövlət tənzimlənmə"si anlayışlarının nisbəti ilə bağlı olan problem xüsusi diqqət tələb edir. Belə ki, elmi ədəbiyyatlarda "dövlət idarəetməsi" anlayışının "dövlət tənzimlənməsi" anlayışı ilə əvəz edilməsi cəhdlərinə rast gəlinir. Y.M. Kozlov isə bu anlayışların nisbəti barədə müzakirələr apararaq qeyd edir ki, "idarə edərək dövlət tənzimləyir və tənzimləyərək dövlət idarə edir". [57]

***Sizin fikrinizcə "dövlət idarəetmə"si və "dövlət tənzimlənməsi" anlayışlarının nisbəti müəyyən edilməlidirmi? Əgər müəyyən edilməlidirsə, bu halda hansı anlayış daha geniş anlayış hesab oluna bilər? Fikrinizi əsaslandırın.***

## Test tapşırıqları:

**1. Aşağıda göstərilən anlayışlardan hansı biri beynəlxalq standarta xasdır?**

a) beynəlxalq standart - standartlaşdırma üzrə beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş standart;

b) beynəlxalq standart - standartlaşdırma üzrə regional təşkilatlar tərəfindən qəbul olunmuş standart;

c) beynəlxalq standart - milli standartlaşdırma qurumu tərəfindən qəbul edilən standart;

d) beynəlxalq standart - standartlaşdırma üzrə beynəlxalq və regional təşkilatlar tərəfindən qəbul olunmuş standart.

---

[57] Козлов Ю.М. Административное право Российской Федерации: Учебник. М.: ИКД «Зерцало-М», 2003, с. 11.

**2. Aşağıda göstərilənlərdən hansı biri standartlaşdırmanın subyekti deyil?**

a) Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi;

b) milli standartlaşdırma qurumu;

c) standartlaşdırma üzrə texniki komitələr;

d) standartlaşdırma fəaliyyəti ilə məşğul olan digər subyektlər (dövlət orqanları (qurumları), hüquqi və fiziki şəxslər).

**3. Aşağıda göstərilən mallardan hansı biri Azərbaycan Respublikasının ərazisində dəyişdirilməli olmayan mallara aid deyil?**

a) qızıl məmulatları və parfümer kosmetika malları;

b) ayaqqabı və kostyum;

c) kişi, qadın və uşaq çimərlik paltarları;

d) uşaq oyuncaqları.

**4. Hansı halda icraçının istehlakçıya məcburi əlavə qulluq xidməti (işi) sifariş etdirilməsinə yol verilir?**

a) qanunla müəyyən edilmiş istisna halda;

b) heç bir halda;

c) qanunla müəyyən edilmiş müstəsna halda;

d) istənilən halda.

**5. İstehlakçının malı dəyişdirmək tələbi, mal olmadıqda müvafiq ərizənin verildiyi andan hansı müddətə ödənilməlidir?**

a) bir ay müddətində;

b) üç ay müddətində;

c) iki ay müddətində;

d) dörd ay müddətində.

## Məsələlər:

**Məsələ 1.** Fərdi sahibkar Aqşin Həsənov "Aysu" Ticarət Mərkəzində uşaq geyimlərinin satışı ilə məşğul olurdu. Vergi əməkdaşları yoxlama zamanı Aqşin Həsənovdan satılan məhsulların sertifikatını tələb etmişdir. Lakin, Aqşin Həsənov bildirmişdir

ki, onun satdığı uşaq geyimləri tanınmış Almaniya şirkəti tərəfindən istehsal olunur və serifikatlaşdırılmır. Bu səbəbdən vergi əməkdaşları Aqşin Həsənov inzibati məsuliyyətə cəlb etmişdirlər.

***Vergi əməkdaşlarının tələbi qanunauyğundurmu?***

***Azərbaycan Respublikasının ərazisində tanınmış xarici şirkətlərin istehsal etdikləri məhsullar sertifikatlaşdırmadan keçirilməlidirmi?***

**Məsələ 2.** Vətəndaş Həsən Kərimov ailəsi ilə birlikdə 2019-cu ilin sentyabr ayından etibarən Əli Verdiyev ilə əmlak-kirayə müqaviləsi bağlayaraq sanitar-gigiyenik tələblərə cavab verməyən mənzildə yaşayır. Həsən Kərimov öz hesabına mənzili təmir etdirmişdir və mənzili kirayəyə verən Əli Verdiyevə müraciət edərək təmir ilə bağlı çəkilən xərclərin ona ödənilməsini və yaxud təmir ilə bağlı çəkilən xərclərə uyğun olaraq mənzilə görə ödənilən kirayə haqqının azaldılmasını tələb etmişdir.

***Həsən Kərimovun irəli sürdüyü tələb haqlıdırmı?***

***Mənzili kirayəyə verən vətəndaş Əli Verdiyev irəli sürülən tələbdən imtina edərsə, bu halda, qanunvericiliyə əsaslanaraq Həsən Kərimovun nə etməli olduğunu göstərin.***

**Məsələ 3.** Turistlər İbrahim Həsənov və Cümşüd Qafarov Türkiyənin Antalya şəhərinə 10 gün müddətində turistik xidmətlərini göstərən "Ayna" MMC-dən ümumən qiyməti 3500 manat olmaqla turistik paketləri almışdırlar. "Ayna" MMC ilə vətəndaşlar İbrahim Həsənov və Cümşüd Qafarov arasında bağlanmış turist xidmətlərinin göstərilməsi müvaqiləsinə əsasən, turistik səfər zamanı İ. Həsənov və C. Qafarov beş ulduzlu oteldə hər bir şəraiti, o cümlədən, soyuducu, mini bar, televizor və telefonu olan otaqda qalacaqdırlar. Lakin, istirahət üçün nəzərdə tutulmuş şəhərə gələn vətəndaşlar İbrahim Həsənov və Cümşüd Qafarov heç bir şəraiti olmayan bir otaqlı evə yerləşdirilmişdir.

***Bu halda vətəndaşlar İbrahim Həsənov və Cümşüd Qafarov nə etməlidirlər?***

***Turistik xidmətləri göstərən "Ayna" MMC hər hansı bir məsuliyyətə cəlb oluna bilərmi?***

**Məsələ 4.** Bakı şəhəri Nərimanov rayonunda yerləşən "ARQO" super marketdə məhsulların standartlarının məcburi tələblərə uyğunluğunun yoxlanılması zamanı aşağıda göstərilən pozuntular müəyyən olunmuşdur:

1. "Vesna" adlı karamel – xarici görünüşünə görə standartlara cavab vermir;
2. artan turşuluğu və dəyişdirilmiş tutarlığı olan süd;
3. keyfiyyətini itirmiş alma;
4. istifadəyə yararsız və şişmiş ət konservləri;
5. dərəcəsi 36% olan araq.

Yoxlayıcı tərəfindən "ARQO" super marketin rəhbərliyi inzibati məsuliyyətə cəlb olunaraq cərimə edilmişdir.

***Yoxlayıcının bu qərarı qanunauyğundurmu?***

***Super marketin rəhbəri yoxlayıcının qərarından şikayət vermək hüququ varmı?***

***Yuxarıda göstərilən məhsulların hansı birinin məcburi sertifikatlaşdırmadan keçirilməsi nəzərdə tutulub?***

**Məsələ 5.** Bakı şəhəri Nəsimi rayonunda yerləşən super marketə satış üçün verilmiş balıq məhsulları daxil olmuşdur. Marketdə satışa daxil olan məhsullara cavabdeh olan İmran İsmayılov məhsulu qəbul edib yoxlayarkən müəyyən etmişdir ki, balıq məhsulu qanunvericiliklə müəyyən olunmuş standartların məcburi tələblərinə cavab vermir. Marketin rəhbərliyi vasitəsilə məhsulu istehsal edən "New fish" şirkətinə pretenziya göndərilmişdir. Lakin, "New fish" şirkəti pretenziyanı heç bir səbəb gətirmədən qəbul etməkdən imtina etmişdir.

***İstehsalçı olan “New fish” şirkətinə hansı tədbirlər tətbiq edilə bilər?***

***Balıq məhsulları üçün məcburi standart nəzərdə tutulubmu?***

## Referat mövzuları:

1. Malların, işlərin və xidmətlərin təhlükəsizliyini və keyfiyyətini təmin etməyin hüquqi vasitələri.
2. Müasir qanunvericilikdə standartlaşdırmanın hüquqi tənzimlənməsi.
3. Texniki reqlamentin hazırlanması və tətbiqi qaydası.

## Özünüyoxlama sualları:

1. Standartlaşdırma nədir?
2. Standartlaşdırmanın hansı məqsədlərini bilirsiniz?
3. Standart nədir və onun hansı növləri var?
4. Uyğunluq nişanı nədir?
5. İstehlakçıların qanunla müəyyən edilmiş hüquqlarını sadalayın.
6. "Keyfiyyət" və "təhlükəsizlik" dedikdə nə başa düşülür?
7. "Qüsur" və "mühüm qüsur" anlayışlarını fərqləndirin.
8. "Məhsul və xidmətlərin sertifikatlaşdırılması" dedikdə nə başa düşülür?

## Mövzunun mənimsənilməsi üçün tövsiyə olunan ədəbiyyat:

1. “Standartlaşdırma haqqında” Azərbaycan Respublikasının 17 may 2019-cu il tarixli 1587-VQ nömrəli Qanunu.
2. “Texniki tənzimləmə haqqında” Azərbaycan Respublikasının 30 sentyabr 2019-cu il tarixli 1669-VQ nömrəli Qanunu.
3. “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Azər-

baycan Respublikasının 19 sentyabr 1995-ci il tarixli 1113 nömrəli Qanunu.

4. “Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 3 aprel tarixli 94 nömrəli qərarı

5. Гаврилов Э.П. Защита частным правом секретов производства и информации, составляющей коммерческую тайну // Патенты и лицензии. 2015. № 4.

6. Гончаров, А. А. Метрология, стандартизация и сертификация: учебное пособие для вузов / А. А. Гончаров, В. Д. Копылов. – 3-е изд., стер. – М.: Академия, 2006.

7. Зименкова О.Н., Левшина Т.Л., Тобис В.И., Шерстобитов А.Е. Комментарий к Закону Российской Федерации "О защите прав потребителей". — М.: Изд-во "Кросна-Лекс", 1997. — 220 с.

8. Зорин Ю. В. Стандартизация, метрология и сертификация продукции, процессов и услуг: Метод. Пособие, 2009.

9. Исаев И. И. Управление качеством продукции и сертификация продукции: Учебное пособие. СПб.: Изд. центр СПбГМТУ, 2009, 186 с.

10. Крылова Г. Д. Основы стандартизации, сертификации, метрологии: Учебник для вузов. - М.: Аудит, ЮНИТИ, 2008. - 497 с.

11. Котельников Д.С., Медников А.А. Сертификация товаров и услуг в свете последних изменений // Финансовая Россия. 1998. №35.

12. Лапин А.В. Развитие национальной инновационной системы как обязательное условие технологических изменений и роста производства // Административное и муниципальное право. 2018. № 4. С. 26–41.

13. Левшина Т.Л. Основы законодательства о защите прав потребителей. Курс лекций. — М.: Юрид.лит., 1994. — 160 с.

14. Лифиц И.М. Стандартизация, метрология и сертифи-

кация: учеб. М.: ЮРАЙТ, 2007.

15. Лифиц И. М. Основы стандартизации, метрологии и сертификации: Учебник - М.: Юрайт, 2008. - 285 с.

16. Мальков Г В Правовые основы подтверждения соответствия и аккредитации // Партнеры и конкуренты 2006 № 6.

17. Международные и региональные организации по стандартизации и качеству продукции. М., 2010.

18. Менеджмент качества и обеспечение качества продукции на основе международных стандартов ИСО. Свиткин М. З., Мацута В. Д., Рахлин К. М. - СПб.: Изд-во СПб картфабрики ВСЕГЕИ, 2009. - 403 с.

19. Неменок Н. П. Государственный контроль (надзор) в сфере защиты прав потребителей в Российской Федерации / Н. П. Неменок // Юрид. мир. – 2013. – № 4. – С. 25–34.

20. Николаева М.А., Карташова Л.В. Стандартизация, метрология и подтверждение соответствия: учебник / М.А. Николаева, Л.В. Карташова. – М.: ИД «ФОРУМ»: ИНФРА-М, 2010. – 336.: ил. – (Высшее образование).

21. Николаева М.А. Техническое регулирование — новый этап обеспечения качества продукции и услуг // Современная торговля, 2003. № 3.

22. Окрепилов В. В. Управление качеством: Учебник для вузов/2-ое изд. доп. и перераб. М., 2008.

23. Парций Я. О защите прав потребителей // Хозяйство и право. 1994. №2.

24. Парций Я. Закон РФ "О стандартизации" // Хозяйство и право. 1995.№1. С.29.

25. Петров Д.Ю. О добровольной и обязательной сертификации // Партнеры и конкуренты 2006 № 2.

26. Правовое регулирование хозяйственной деятельности: Учебник / В.В. Авдеев, Н.С. Березуцкая, Н.Л. Бондаренко и др.; Под общ. ред. В.А. Витушко, Р.И. Филипчик. – Мн.: Книжный Дом, 2009 – 832 с. – Гл. 12 – С. 383–406; Тема 9– С. 766–773.

27. Ряполов А. Ф. Сертификация. Методология и практика. -М.: Изд-во стандартов, 2010.

28. Сертификация. Отечественная и зарубежная практика/Под. ред. В. Г. Версага, Е. И. Тавера. М., 2009.

29. Сорокин Е. Терминология в области стандартизации и ее соответствие Федеральному закону «О техническом регулировании» // Стандарты и качество. 2003. № 9.

30. Чайка И.И., Теркель А.Л. Оценка и подтверждение соответствия. Терминологический аспект// Сертификация, 2011, № 3. с. 7.

## Mövzu 9. Bank fəaliyyətinin hüquqi tənzimlənməsi

*Mühazirə – 2 saat;*
*Seminar – 2 saat.*

### Müzakirəyə çıxarılan suallar:

1. Bank fəaliyyətinin anlayışı və növləri.
2. Azərbaycan Respublikasının bank sistemi.
3. Azərbaycan Respublikasının Mərkəzi Bankının bank sistemində yeri.
4. Bankların yaradılması, idarə olunması və onların ləğvi.
5. Bank olmayan kredit təşkilatlarının fəaliyyətinin hüquqi tənzimlənməsi.

### Hüquq normalarının şərhinə dair tapşırıqlar:

1. "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci, 2-ci, 4-cü, 6-cı, 10-cu, 28-ci maddələrinin şərhini verin.
2. "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci, 3-cü, 19-cu, 26-cı, 33-cü, 38-ci, 49-cu maddələrinin şərhini verin.

### Yazılı tapşırıqlar:

1. Azərbaycan Respublikasının Mərkəzi Bankının funksiyalarını sxem şəklində tərtib edin və hər birinin məzmununu açıqlayın.
2. Banklara tətbiq edilən təshih tədbirlərini sxem şəklində göstərin.
3. Bankların idarəetmə strukturunu sxem şəklində tərtib edin.

## Terminoloji tapşırıqlar:

*“Bank”, “təshih”, “depozit”, “kliring”, “prudensial, “rezolyusiya”, “restrukturizasiya” “monetarizm”, “denominasiya”* terminlərinin etimoloji, hüquqi və fəlsəfi izahlarını dəftərinizdə qeyd edin.

## Elmi problemlər və yanaşmalar:

**1.** Hüquq ədəbiyyatlarında **“bank əməliyyatları”** və **“bank əqdləri”** anlayışlarının nisbəti məsələsinə dair müzakirələr bu gün də öz aktuallığını saxlayır. Belə ki, A.Q.Bratko hesab edir ki, bank əməliyyatları – bank hüququ normaları ilə tənzim olunan əqdlərin həyata keçirilməsi forması, əqdlərin verilməsi texnologiyasıdır. [58] E.A.Suxanov aşağıdakı xüsusiyyətlərinə görə “bank əməliyyatları” və “bank əqdləri”ni fərqləndirir: birincisi, əgər bank əqdləri – xüsusi hüquqi kateqoriyadırsa, onda bank əməliyyatları - bank fəaliyyəti sahəsində yalnız ictimai maraqları nöqteyi-nəzərdən mövcuddur. İkincisi, bank əməliyyatları özündə həm publik, həm də xüsusi hüquqi elementləri ehtiva edir.[59]

Mahiyyətini vurğulayan M.M.Aqarkov, bank əməliyyatlarını bilavasitə bank fəaliyyətinin predmetini təşkil edən bank əqdləri kimi müəyyən edir.[60]

Öz növbəsində, S. A. Sapyorov bank əməliyyatlarının təsnifatını onların hüquqi forma baxımından deyil, iqtisadi məzmunu baxımından vermişdir. Bununla da müəllif "bank əməliyyatı" və "bank əqdləri" kateqoriyalarını bir-biri ilə əlaqəli fəaliyyət prosesində birləşdirir.[61]

---

[58] Братко А.Т. Специфика нормативных актов Банка Росси// Право и экономика, 2006, № 7.

[59] Правовое регулирование банковской деятельности// под ред. Е.А. Суханова. М.: 1997, стр. 19.

[60] Агарков М. М. Основы банковского права: Курс лекций. 2-е изд. М.: БЕК, 1994. с. 50.

[61] Саперов С. А. Банковское право: теория и практика. М., 2003.с. 163.

***Sizin fikrinizcə, “bank əməliyyatları” və “bank əqdləri” anlayışlarının nisbəti müəyyən edilməlidirmi? Müəlliflərdən hansı birinin fikirləri daha əsaslıdır? Fikrinizi əsaslandırın.***

**2.** Baxmayaraq ki, bank fəaliyyətini tənzim edən qanunvericilikdə “bank fəaliyyəti” terminine dəfələrlə rast gəlinir, lakin bu terminin leqal anlayışı verilməmişdir. Hüquq ədəbiyyatlarında isə bank fəaliyyətinə müxtəlif mövqelərdən çıxış edərək anlayış verilir. Belə ki, M.M.Aqarkov bank fəaliyyətini banklar tərəfindən yerinə yetirilən iqtisadi funksiyalar prizmasından təhlil edir[62]. Bank fəaliyyətini kapital qoyuluşu, kreditlərin verilməsi və ödəniş xidmətlərinin göstərilməsi kimi nəzərdən keçirən Y.A.Vaydenqammer hesab edir ki, bank fəaliyyəti üç əsas bank funksiyasını yerinə yetirir: 1. ödənişlərdə vasitəçilik funksiyası; 2. kreditlərin verilməsində vasitəçilik funksiyası; 3. kapitalın dövriyyəsində vasitəçilik.[63]

Lakin Y.A.Vaydenqammerin bu fikirləri hüquq ədəbiyyatlarında birmənalı qarşılanmır. Belə ki, V.A.Belov hesab edir ki, Y.A.Vaydenqammerin bu mövqeyi bir tərəfdən bank əməliyyatlarının bank və bank olmayan əməliyyatlara qruplaşdırılmasına imkan verir, digər tərəfdən isə bank fəaliyyətinin funksiyalarını bütövlükdə götürdükdə həll etmir.[64] Bu halda müəllif **bank fəaliyyətinə tamamilə başqa mövqedən yanaşaraq hesab** edir ki, bank fəaliyyəti qaytarılması, ödənişliliyi və təcili olması şərtləri əsasında pul vəsaitlərinin sonradan öz adından yerləşdirilməsi məqsədi ilə cəlb edilməsi üzrə peşəkar sahibkarlıq fəaliyyətidir.[65] Bank fəaliyyətinin anlayışı məsələsinə dair mövqeyini ifadə edən E.T. Xomenko hesab edir ki, “bank fəaliyyəti – Mərkəzi Bank tərəfindən lisenziyalaşdırılan, xüsusi subyekt olan kredit təşkilatının maliyyə

---

[62] Агарков М.М. Основы банковского права: курс лекций. Учение о ценных бумагах: научное исследование. 2-е издание. М., 1994. Səh. 7-9.

[63] Вайденгаммер Ю.А. Банк и его операции. М., 1923. Стр. 232.

[64] Белов В.А. Банковское право России: теория, законодательство и практика. Юридические очерки. М.: ЮрИнфор, 2000, səh. 15-16.

[65] Белов В.А. Банковское право России: теория, законодательство и практика. Юридические очерки. М.: ЮрИнфор, 2000, səh. 12.

alətlərindən istifadə etməklə sistematik (mütəmadi) olaraq həyata keçirən və gəlir götürən bank əməliyyatlarının məcmusudur”.[66]

***Sizin fikrinizcə, müəlliflərin hansı birinin fikirləri bank fəaliyyətinin anlayışnı mahiyyət və məzmun etibarı ilə əhatə edir? “Bank fəaliyyəti” və “bankın fəaliyyəti” anlayışlarının nisbəti müəyyən edilməlidirmi, yaxud bu anlayışlar arasında bərabərlik işarəsi qoyulmalıdır? Fikrinizi əsaslandırın.***

## Test tapşırıqları:

**1. Mərkəzi Bankın fəaliyyətinin əsas məqsədi nədən ibarətdir?**

a) öz səlahiyyətləri daxilində qiymətlərin sabitliyini təmin etmək;

b) bankların fəaliyyətinə nəzarət etmək;

c) BOKT-a nəzarət etmək;

d) banklara və BOKT –lara lisenziyalar vermək.

**2. Yeni pul nişanlarının tədavülə buraxılması haqqında qərarı hansı orqan qəbul edir?**

a) Azərbaycan Respublikasının Nazirlər Kabineti;

b) Azərbaycan Respublikasının Mərkəzi Bankı;

c) Azərbaycan Respublikasının Milli Məclisi;

d) Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı.

**3. Müştərinin bankda olan pul vəsaiti və digər sərvətləri hansı halda müsadirə edilə bilər?**

a) prokurorluq orqanlarının göstərişi ilə;

b) vergi orqanlarının qərarı ilə;

c) Mərkəzi Bankın göstərişi ilə;

d) yalnız məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında.

---

[66] Банковское право Российской Федерации: учебное пособие /отв. ред. Е.Ю. “Грачева. М.: Норма, 2008. Стр. 29.

**4. Aşağıdakılardan hansı biri bankın səhmdarlarının ümumi yığıncağının səlahiyyətlərinə aiddir?**

a) bankın idarə edilməsinə və fəaliyyətinə nəzarəti həyata keçirmək, o cümlədən bankın İdarə Heyətindən hesabat almaq;

b) bankın nizamnaməsini qəbul etmək, nizamnaməyə əlavə və dəyişikliklər etmək;

c) banka aidiyyəti şəxslər və aidiyyəti şəxs adından hərəkət edən şəxslər ilə əqdlər bağlanmasını təsdiq etmək;

d) bankın fəaliyyətinin kompleks və ya ayrı-ayrı sahələrinin yoxlanması barədə qərar qəbul etmək.

**5. Aşağıda sadalanan şəxslərdən hansı biri BOKT-un inzibatçısı ola bilməz?**

a) qəsdən törədilmiş cinayətlərə görə məhkumluğu olan şəxslər;

b) ali təhsilli və ən azı bir illik iş təcrübəsinə malik olan şəxslər;

c) kredit mütəxəssisi;

d) daxili auditor.

## Məsələlər:

**Məsələ 1.** Vətəndaş Kamil Vəliyev "Akrobank" açıq səhmdar cəmiyyəti ilə bir il müddətinə aylıq faiz dərəcələrinin ödənilməsi şərti ilə bank əmanəti müqaviləsi bağlamışdır. Lakin müqavilənin müddətinin bitməsindən sonra vətəndaş Kamil Vəliyev "Akrobank" açıq səhmdar cəmiyyətinə müraciət edərək müqavilənin ləğv edilməsini və əmanətə verilən pul vəsaitinin geri qaytarılmasını tələb etmişdir.

***Vətəndaş Kamil Vəliyevin "Akrobank" açıq səhmdar cəmiyyətinə qarşı irəli sürülən tələbi qanunauyğundurmu?***

***Bu halda "Akrobank" açıq səhmdar cəmiyyəti vətəndaş Kamil Vəliyevin tələbini yerinə yetirdiyi halda qoyulan əmanətə uyğun olaraq faiz dərəcələri hansı qaydada ödəniləcək?***

**Məsələ 2.** Vətəndaş Sənan Səlimov, Yavər Xudiyev, Kənan Nəsirov qarşılıqlı razılığa gələrək bank fəaliyyətini həyata keçirmək üçün Azərbaycan Respublikasının Mərkəzi Bankına lisenziya almaqdan ötrü müraciət etmişdirlər. Lakin, Azərbaycan Respublikasının Mərkəzi Bankı lisenziya verməkdən imtina etmişdir. Azərbaycan Respublikasının Mərkəzi Bankı imtina səbəbi kimi kredit təşkilatının fəaliyyət göstərəcəyi 3 il müddətində təqdim etdiyi biznes-planda əldə ediləcək gəlirlər və çəkilən xərclər barədə ziddiyyətli məlumatların təsbit olunmasını göstərmişdir.

***Azərbaycan Respublikasının Mərkəzi Bankının lisensiya veilməsindən imtinası qanunauyğundurmu?***

***Bank lisenziyası hansı qaydada verilir?***

**Məsələ 3.** Vətəndaş Nahid Kərimov "Nurbank"a müraciət edərək şəxsi məqsədlər üçün ona 3000 manat məbləğində pul vəsaitinin kreditə verilməsi barədə xahiş etmişdir. Bank əməkdaşı tərəfindən vətəndaş Natiq Kərimovun həyat və sağlamlığının bankın müəyyən etdiyi sığorta şirkəti tərəfindən sığortalanması şərtilə 2000 manat pul məbləğinin kreditə götürülməsinin mümkünlüyünü bildirilmişdir.

***Bank əməkdaşının tələbləri qanunauyğundurmu?***

***Kreditə pul vəsaitinin götürülməsi üçün həyat və sağlamlığın sığortası kredit müqaviləsinin məcburi şərti hesab oluna bilərmi?***

**Məsələ 4.** "ALMAZ" bank olmayan kredit təşkilatını yaratmaq istəyən vətəndaşlar Arif Cəfərov, Fərman Əliyev və Samir Cəbiyev dövlət qeydiyyatına alınması üçün Azərbaycan Respublikasının Mərkəzi Bankına ərizə ilə müraciət etmişlər. Azərbaycan Respublikasının Mərkəzi Bankı müraciətə baxaraq eyni adda kredit təşkilatının olması səbəbi ilə "ALMAZ" bank olmayan kredit təşkilatının dövlət qeydiyyatına alınmasından imtina edilməsinə dair qərar qəbul etmişdir.

***Azərbaycan Respublikasının Mərkəzi Bankının qərarı qanunauyğundurmu?***

***Bank olmayan kredit təşkilatının dövlət qeydiyyatı hansı orqan tərəfindən aparılır?***

***Siz bir hüquqşünas olaraq vətəndaşlar Arif Cəfərova, Fərman Əliyevə və Samir Cəbiyevə hansı məsləhəti vermiş olardınız?***

**Məsələ 5.** Azərbaycan Respublikasının Mərkəzi Bankı "Səmayəbank"ın fəaliyyətinə nəzarəti həyata keçirərkən müəyyən etmişdir ki, "Səmayəbank" bank fəaliyyətini həyata keçirməklə yanaşı, həm də ticarət fəaliyyəti ilə də məşğul olur. Bu halda Azərbaycan Respublikasının Mərkəzi Bankı qərar qəbul edərək "Səmayəbank"ın həyata keçirdiyi ticarət fəaliyyətinin dayandırılmasını tələb etmişdir.

***Azərbaycan Respublikasının Mərkəzi Bankının qərarı qanunauyğundurmu?***

***Azərbaycan Respublikasının bank qanunvericiliyinə görə banklar hansı fəaliyyət növlərini həyata keçirə bilməz?***

**Məsələ 6.** "Xəzərbank" kommersiya bankı dövlət qeydiyyatından keçərək Bakı şəhərində yerləşirdi və fəaliyyət göstərirdi. Üç ildən sonra bank Gəncə şəhərinə köçürüldü və bu şəhərdə fəaliyyətini davam etdirdi.

***Sizin fikrinizcə, hansı şəhər bankın yerləşdiyi yer hesab olunmalıdır?***

***Azərbaycan Respublikasının bank qanunvericiliyinə görə bankların fəaliyyət göstərildiyi ünvanının dəyişdirilməsinə yol verilirmi?***

## Referat mövzuları:

1. Bank sistemi, onun elementləri və fəaliyyət prinsipləri.
2. Azərbaycan Respuvlikasının Mərkəzi Bankı: məqsədi və funksiyaları.
3. Bank fəaliyyətinin lisenziyalaşdırılması.

## Özünüyoxlama sualları:

1. Bank xidmətləri bazarı dedikdə nə başa düşülür?
2. Azərbaycan Respublikasında bank nəzarətini kim həyata keçirir?
3. Mərkəzi Bankın daxili strukturunu göstərin.
4. Bank sistemi hansı funksiyanı yerinə yetirir?
5. Kredit təşkilatı dedikdə, nə başa düşülür?
6. Banklara təsir tədbirlərini hansı orqan həyata keçirir?
7. Banklara maliyyə sanksiyalarını hansı orqan həyata keçirir?
8. Banklar hansı qaydada idarə olunur?

## Mövzunun mənimsənilməsi üçün tövsiyə olunan ədəbiyyat:

1. "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının 10 dekabr 2004-cü il tarixli 802-IIQ nömrəli Qanunu.
2. "Banklar haqqında" Azərbaycan Respublikasının 16 yanvar 2004-cü il tarixli 590-IIQ nömrəli Qanunu.
3. "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının 25 dekabr 2009-cu il tarixli 933-IIIQ nömrəli Qanunu.
4. Elnur Sadıqov. Bank əməliyyatları. Dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2010.
5. İsayev A. Azərbaycan Respublikası qanunları əsasında bankların yaradılmasının nəzəri və praktiki aspektləri. "Qanun" jurnalı, № 02, 2006., səh. 41-46.
6. Mömsümov Camid. İqtisadi lüğət. Bakı: 2011.
7. Mirzəyeva A.Q., Əliyeva Ə.Ə.. Bank hüququ. Dərslik. Bakı 2019.

8. Mirzəyeva A.Q., Əliyeva Ə.Ə. Bank hüququ. Dərs vəsaiti. Bakı, ADMİU-nun mətbəəsi, 2019.

9. Авраменко Ю. Совместные формы международной банковской деятельности // Экономист. – 2006. – № 4.

10. Алексеев Д.Г. Применение систем удаленного ДОС-тупа в банковских расчетах // Закон. – 2006. – № 1.

11. Белицкая А.В. Финансирование развития — новое направление в банковской практике: правовой аспект // Банковское право. 2017. № 4.

12. Белицкая А.В., Лаутс Е.Б. Инвестирование и кредитование: сравнительно-правовой анализ // Законодательство. 2012. № 4.

13. Бондаренко Н.Л. Проблема защиты прав поручителей в отношениях банковского кредитования в Республике Беларусь // Вестник Пермского Университета. Юридические науки. – 2012. – Выпуск 1 (15). – С. 78–83.

14. Борисов С.М., Коротков П.А. Банковская система России: состояние и перспективы. // Деньги и кредит. 2014. №8. С. 25-37.

15. Братко А.Г. Банковское право России. - М.: 2003 г.

16. Зарубежное банковское право (банковское право Европейского Союза, Франции, Швейцарии, Германии, США, КНР, Великобритании). Монография. /отв. ред. Л.Г. Ефимова. М.: Проспект. 2018.

17. Ерпылева Н. Механизм правового регулирования банковской деятельности // Хозяйство и право. 2015. №2. С. 34-45.

18. Козлов А.А. Некоторые актуальные вопросы развития банковского сектора России // Деньги и кредит. 2014. №2. С. 11-15.

19. Коробова Г.Г. Банковское дело. М.: Юристъ, 2014. 751 с.

20. Лаврушин О.И. Деньги, кредит, банки. М.: Финансы и статистика, 2013. 464 с.

21. Ларина Л.С. Организация деятельности Центрального Банка Российской Федерации. М.: Юриспруденция, 2014. 32 с.

22. Лаутс Е.Б. Правовые аспекты антикризисного регу-

лирования рынка банковских услуг и институт банкротства кредитных организаций. М.: Юстицинформ, 2018.

23. Лаутс Е.Б. Правовое положение Банка России как мегарегулятора финансового рынка» // Приложение к журналу «Предпринимательское право». 2013. № 3.

24. Лаутс Е.Б. Банковское право и банковская деятельность. Понятие и сущность (лекция в рамках учебного курса «Предпринимательское право») // Приложение к журналу «Предпринимательское право». 2011. № 4.

25. Лаутс Е.Б. Рынок банковских услуг: правовое обеспечение стабильности. М.: Волтерс Клувер, 2008.

26. Мадатов Я.Г. Правовое регулирование банковской деятельности и валютных операций: Конспект лекций. Краснодар: НЭЦПО КК, 2012 г.

27. Матюхин Г.Г. Центральный банк: проблемы операций на открытом рынке. // Банковское дело. 2014. №9. С. 22-25.

28. Парамонова Т.В. Принципы регулирования банковской сферы. М.: Финансы и статистика, 2015. 209 с.

